RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 24 (9479) 4 FEVRAL 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Qalib xalq Zəfər seçkilərinə inamla gedir



## ABŞ şirkətinin keçirdiyi sosioloji sorğunun nəticəsi bunu bir daha təsdiqləyir

Artıq seçkiyə sayılı günlər qalır. Bütün ölkə üzrə, habelə Qarabağ və Şərqi Zəngəzurda seçki prosesinin tam şəffaf və demokratik şəraitdə keçməsi üçün seçki məntəqələri lazımi texniki vasitə və metodiki vəsaitlərlə, yanğın təhlükəsizliyi, fasiləsiz rabitə və elektrik enerjisi ilə təchiz olunub. Vətəndaşların seçimlərini sərbəst şəkildə etmələri üçün səsvermə kabinələri quraşdırılıb, məntəqələrə seçki qutuları və lazımi inventar avadanlıqlar paylanılıb, seçici siyahıları və məlumat lövhələri asılıb. Seçki məntəqələrinə mürəkkəb və ultrabənövşəyi lampalar və digər zəruri vəsaitlər gətirilib. Komissiyaların katibi və üzvləri, habelə seçkini izləyəcək müşahidəçilər üçün yerlər müəyyənləşdirilib.

Bütün seçkilərdə olduğu kimi, budəfəki prezident seçkiləri ərəfəsində də ölkədə sosioloji sorğu keçirilib. ABŞ-nin "Oracle Advisory Group" təşkilatı və "Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası"nın (VƏHML) birgə keçirdiyi sorğunun əsas məqsədi prezident seçkiləri ərəfəsində əhalinin səsverməyə hazırlığı və onların ölkənin siyasi həyatında iştirak səviyyəsinin, seçkilərlə bağlı ictimai rəyin öyrənilməsi olub.

→ 7

## Z.F.Fərəcovun 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Zakir Fərəc oğlu Fərəcov 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 fevral 2024-cü il*

## Azərbaycanın uğurları AŞPA-nın planlarını pozdu



Fransanın əlində alətə çevrilmiş AŞPA-nın ermənilərin taleyi üçün bu qədər narahat olduğunu görəndə fikirləşirsən ki, bəs Azərbaycan torpaqları 30 il ərzində ermənilər tərəfindən işğalda saxlanılanda bu beynəlxalq təşkilat harada idi? Niyə həmin günlərdə torpaqlarımızı işğal etmiş Ermənistan əleyhinə heç olmasa bəyanata oxşar nəsə bir şey səsləndirmirdi? Xalqımız üçün çətin olan həmin günlərdə AŞPA Ermənistan nümayəndə heyətinin etimadnaməsini dondurmurdu? Görəsən, vəhşi, qaniçən ermənilər AŞPA üçün, dünya üçün bu qədər qiymətlidir ki, onun müdafiəsinə qalxırlar?

→ 3

## Korsikalılar Fransa polisinin dinc fəallara qarşı repressiyasına etiraz edirlər





Həqiqətən də, proses indi məlumdur və çox kobud formaya çevrilib: müstəqillik hərəkatının hər bir təşəbbüsünə mexaniki şəkildə repressiya ilə cavab verilir.

Bu repressiv əməliyyatların gələn həftə daxili işlər naziri J.Darmaninin gəlişinin elan olunması ilə üst-üstə düşməsi də təsadüfi deyil. Fransız polisinin bu addımı Korsikanın müstəqilliyi uğrunda mübarizə aparan yeganə siyasi cərəyanı neytrallaşdırmaq siyasətinin bir hissəsidir. Bizim siyasi mübarizəmiz Korsika və korsikalıların maraqlarının qətiyyətli müdafiəsinə əsaslanır.

Qeyd edilib ki, yüzlərlə "Nazione" fəalı partiyanın siyasi cərəyanının ümumi istiqamətinə dair keçirilmiş səsvermədə partiyanın siyasi hərəkatının hər zaman ölkədə real siyasi həllin və real sülhün lehinə əsas aktor olduğunu bir daha təsdiqləyib.

→ 6






















Prezidentliyə namizədlərin ödənişsiz təşviqat materialları → 9-15

## Respublikaçılar seçkilərdə Trampa alternativ görmürlər

ABŞ-nin keçmiş prezidenti Donald Tramp "İbrahim sazişləri"nin imzalanmasına kömək etdiyinə görə Nobel Sülh Mükafatına namizəd olub. Bu barədə "Fox News" telekanalı məlumat yayıb.

Sabiq prezidentin namizədliyi Nümayəndələr Palatasının üzvü Klaudiya Tenni tərəfindən irəli sürülüb.

Tenninin dediyinə görə, Donald Tramp təxminən 30 ildə Yaxın Şərqdə ilk yeni sülh sazişlərinin imzalanmasında vasitəçilik etməkdə mühüm rol oynayıb.

2020-ci ilin sentyabrında Vaşinqtonda ABŞ-nin vasitəçiliyi ilə İsraillə Bəhreyn və BƏƏ arasında münasibətlərin normallaşmasına dair sənədlər imzalanıb. Razılaşma, islam, xristianlıq və yəhudilik də daxil olmaqla, bütün İbrahim dinlərinin möminlərinin mənəvi əcdadı sayılan peyğəmbərə istinad edərək "İbrahim Sazişləri" adlandırılıb.

→ 16

## Yollar abad, həyat rahat



Azərbaycan yol infrastrukturuna görə MDB-də 1-ci, dünyada 27-cidir

→ 8

## Hayastan ordusunda "dedovşina" kabusu

### Məğlub ölkənin müdafiə naziri silahlı qüvvələrin son durumu ilə bağlı həyəcan təbili çalır

Ekspertlər qeyd edirlər ki, bu gün Hayastanın siyasi həyatında yaşanan gərginlik orduya da sirayət edir. Bu fonda ordunun döyüş qabiliyyəti, demək olar ki, bərbad haldadır. Əsgərlərin təminatı olduqca aşağı səviyyədədir. "Dedovşina", əsgərlərin alçaldılması və digər başıpozuq davranışlar adi hal alıb. Bunu ölkənin müdafiə naziri Suren Papikyan da etiraf edib. O deyib ki, ölkənin silahlı qüvvələrində əsas problem intihar, intihar həddinə çatdırma və qətllərdir. Nazirin istinad etdiyi statistik məlumatlara görə, 2022-ci ildə ölkə üzrə yol qəzalarında 193, 2023-cü ildə isə 204 nəfər ölüb. Hərbçilərdə isə bu rəqəmlər müvafiq olaraq 17 və 12 nəfərdir. O, həmçinin hərbi qulluqçuların ölümünə səbəb olan xəstəlikləri, qəzaları da xatırladıb.

→ 16

# "Antiinhisar fəaliyyəti haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Mülki müdafiə haqqında", "Taxıl haqqında", "Milli təhlükəsizlik haqqında", "Dövlət sirri haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 9, maddə 224; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 17; 2001, № 6, maddə 360, № 11, maddələr 676, 683, № 12, maddə 736; 2003, № 1, maddə 5; 2004, № 2, maddə 57, № 4, maddə 202; 2006, № 12, maddə 1005; 2008, № 2, maddə 49, № 5, maddə 348, № 6, maddə 462; 2010, № 11, maddə 939; 2015, № 4, maddə 369; 2016, № 4, maddə 637; 2019, № 1, maddə 25; 2021, № 7, maddə 701; 2022, № 5, maddə 430) 4-cü maddəsinin birinci hissəsinin ikinci abzasından "və səfərbərlik" sözləri çıxarılsın.

**Maddə 2.** "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 23-24, maddə 368; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 11, maddələr 676, 683, 686; 2002, № 5, maddə 241; 2003, № 1, maddə 1; 2004, № 1, maddə 6, № 2, maddə 57; 2005, № 8, maddə 684, № 12, maddə 1083; 2007, № 8, maddə 745; 2011, № 11, maddə 984; 2012, № 9, maddə 842; 2014, № 10, maddə 1157; 2017, № 5, maddə 722; 2018, № 6, maddə 1169; 2019, № 1, maddə 31, № 8, maddə 1384; 2023, № 2, maddə 210, № 4, maddə 455) 30-cu maddəsi ləğv edilsin.

**Maddə 3.** "Mülki müdafiə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 222; 2004, № 4, maddə 202; 2005, № 4, maddə 278, № 12, maddə 1083; 2018, № 7 (I kitab), maddə 1404; 2023, № 4, maddə 447) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 6-cı maddənin birinci hissəsinin 7-ci bəndində "maddi və maliyyə vəsaitləri ehtiyatı" sözləri "fövqəladə və maliyyə vəsaiti ehtiyatları" sözləri ilə əvəz edilsin;

3.2. 18-ci maddə üzrə:

3.2.1. adında "maddi və maliyyə vəsaitləri ehtiyatının" sözləri "fövqəladə və maliyyə vəsaiti ehtiyatlarının" sözləri ilə əvəz edilsin;

3.2.2. birinci hissədə "maddi və maliyyə vəsaitləri ehtiyatı" sözləri "fövqəladə və maliyyə vəsaiti ehtiyatları" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "Taxıl haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 491; 2004, № 2, maddə 57; 2007, № 5, maddə 397; 2011, № 2, maddə 71; 2014, № 11, maddə 1373; 2016, № 7, maddə 1241; 2017, № 5, maddə 717; 2018, № 1, maddə 17; 2019, № 8, maddə 1383; 2021, № 10, maddə 1096; 2023, № 4, maddə 454) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 5.0.4-cü maddədə "fondu" sözü "ehtiyatı" sözü ilə əvəz edilsin;

4.2. 6.2-ci, 11.1-ci maddələr və II fəsil ləğv edilsin;

4.3. 7.2-ci maddədən "və dövlət taxıl fondunun yaradılması" sözləri çıxarılsın.

**Maddə 5.** "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 602; 2011, № 2, maddə 71; 2013, № 1, maddə 22) 19.2.1-ci maddəsində "ehtiyatların" sözü "və səfərbərlik ehtiyatlarının" sözləri ilə əvəz edilsin.

**Maddə 6.** "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 882; 2006, № 2, maddə 65, № 11, maddə 925; 2008, № 8, maddə 699; 2013, № 6, maddə 596; 2014, № 7, maddə 762; 2015, № 5, maddə 492; 2018, № 7 (I kitab), maddə 1401, № 11, maddə 2222; 2022, № 5, maddə 430; 2023, № 1, maddə 21) 5.2.1-ci maddəsindən "və səfərbərlik" sözləri çıxarılsın.

**Maddə 7.** "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 683; 2023, № 2, maddə 451) aşağıdakı dəyişikliklər edilsin:

7.1.4.3.14-cü maddədən "və dövlət ehtiyatlarının, habelə ərzaq mallarının və neft məhsullarının azaldılmaz" sözləri çıxarılsın;

7.2. 5.2.18-ci maddə ləğv edilsin.

**Maddə 8.** "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 10, maddə 870; 2007, № 11, maddə 1088; 2008, № 2, maddə 49, № 4, maddə 249, № 6, maddə 464; 2009, № 7, maddə 517; 2010, № 4, maddə 276; 2014, № 10, maddə 1164; 2016, № 12, maddə 2015; 2017, № 6, maddə 1026; 2018, № 7 (I kitab), maddə 1391; 2019, № 4, maddə 599; 2023, №8 (I kitab), maddə 1115; Azərbaycan Respublikasının 2023-cü il 6 oktyabr tarixli 1002-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

8.1. II fəslin adından "dövlət" sözü çıxarılsın;

8.2. 10.2-ci maddənin birinci və ikinci cümlələrində "müvafiq dövlət" sözləri "qiymətli metalların və qiymətli daşların" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 dekabr 2023-cü il*

# "Antiinhisar fəaliyyəti haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Mülki müdafiə haqqında", "Taxıl haqqında", "Milli təhlükəsizlik haqqında", "Dövlət sirri haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 19 dekabr tarixli 1056-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Antiinhisar fəaliyyəti haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Mülki müdafiə haqqında", "Taxıl haqqında", "Milli təhlükəsizlik haqqında", "Dövlət sirri haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 19 dekabr tarixli 1056-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1."Taxıl haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 370 nömrəli Fərmanının 2-ci hissəsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 510 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci bənddən "8.2-ci maddəsində və" sözləri çıxarılsın;

1.2. 2.3-cü bənddə ", 8.5-ci, 9.1-ci maddələrində, 9.2-ci maddəsinin ikinci cümləsində, 9.4-cü, 11.1-ci maddələrində" sözləri "maddəsində" sözü ilə əvəz edilsin;

1.3. 2.4-cü bənd ləğv edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 248 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 485 (Cild I) ilə təsdiq edilmiş "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. II hissənin 1-ci bəndinin "Dövlət sirrinə aid edilən məlumatlar" sütunundan "və səfərbərlik" sözləri çıxarılsın;

2.2. IV hissənin 19-cu bəndinin "Dövlət sirrinə aid edilən məlumatlar" sütunundan "və (və ya) səfərbərlik" sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 859 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 664 (Cild I) ilə təsdiq edilmiş "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"nın 1.1-ci bəndində "taxıl fondu" sözləri "ehtiyatları" sözü ilə, "buğda" sözü "mallar" sözü ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 oktyabr tarixli 1456 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1100 (Cild I) 3.1-ci bəndindən "və səfərbərlik" sözləri çıxarılsın.

5. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 10 fevral tarixli 1594 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 2, maddə 105 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1.1-ci bənddən "və səfərbərlik" və ", habelə Dövlət Taxıl Fondunun sərəncamçısı olan" sözləri çıxarılsın;

5.2. 2.1.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.3. strateji ehtiyatların və mülki müdafiə tədbirləri çərçivəsində fövqəladə ehtiyatların yaradılmasını və idarə edilməsini, habelə dövlət ehtiyatları üzrə nəzarəti həyata keçirmək;";

5.3. 2.1.4-cü, 3.1.8-ci, 3.1.10-cu və 3.1.16-cı yarımbəndlər ləğv edilsin;

5.4. 2.1.5-ci, 2.1.8-ci, 3.1.2-3.1.7-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"2.1.5. yaratdığı strateji və fövqəladə ehtiyatlar üçün malların tədarükü üzrə sifarişçi qismində müvafiq tədbirlər görmək;";

"2.1.8. strateji əhəmiyyətli malların (o cümlədən bazar iştirakçıları tərəfindən təmin edilən malların) monitorinqini aparmaq, bu məqsədlə müstəqil ekspertləri və mütəxəssisləri cəlb etmək, habelə proqnozlaşdırmada iştirak etmək;";

"3.1.2. aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə dövlət ehtiyatlarının çeşidi və həcmi barədə tələbatı öyrənmək, strateji ehtiyatların və mülki müdafiə tədbirləri çərçivəsində fövqəladə ehtiyatların yaradılması məqsədilə sifarişçi qismində tədbirlər görmək, o cümlədən müqavilələr bağlamaq;

3.1.3. strateji əhəmiyyətli malların siyahısı, dövlət ehtiyatlarının və bazar iştirakçıları tərəfindən təmin edilən malların nomenklaturaları ilə bağlı təkliflər vermək, həmin nomenklaturalar üzrə strateji ehtiyatların, habelə saxlanılmasını həyata keçirdiyi fövqəladə ehtiyatlarda və səfərbərlik ehtiyatlarında olan malların nomenklaturaları üzrə minimal həcmləritəmin etmək, istehlak bazarının strateji əhəmiyyətli mallarla təmin edilməsi məqsədilə daxili və xarici bazarları mütəmadi təhlil etmək, qiymətlərin kəskin artması və azalması risklərini müəyyən etmək və bununla bağlı təkliflər vermək;

3.1.4. strateji ehtiyatların və mülki müdafiə tədbirləri çərçivəsində fövqəladə ehtiyatların yaradılmasını, idarə edilməsini, strateji ehtiyatların yerləşdirilməsinivə dövlət ehtiyatlarına nəzarəti həyata keçirmək;

3.1.5. bazar iştirakçıları tərəfindən təmin edilən strateji əhəmiyyətli malların nomenklaturasındakı minimal həcmin azalma ehtimalı yarandıqda və ya həmin malların azalması müşahidə olunduqda, bu halların qarşısının alınması istiqamətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təkliflər vermək;

3.1.6. dövlət ehtiyatlarına aid malların uçotunu aparmaq, həmçinin saxlanılmasını təmin etdiyi strateji və fövqəladə ehtiyatların yeniləşdirilməsi və əvəzləşdirilməsi ilə bağlı tədbirlər görmək;

3.1.7. dövlət ehtiyatlarının keyfiyyətinə və saxlanılma şəraitinə nəzarəti həyata keçirmək, habelə dövlət ehtiyatlarının tədarükü, yerləşdirilməsi, saxlanılması, buraxılması və istifadəsi zamanı Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə riayət olunmasına nəzarət etmək;";

5.5. 3.1.9-cu yarımbənddə "dövlət və səfərbərlik ehtiyatlarının" sözləri "strateji ehtiyatların və mülki müdafiə tədbirləri çərçivəsində fövqəladə ehtiyatların" sözləri ilə əvəz edilsin;

5.6. 3.1.13-cü və 3.1.14-cü yarımbəndlərdən "və səfərbərlik" sözləri çıxarılsın;

5.7. 3.1.15-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.15. "Dövlət ehtiyatları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq,dövlət ehtiyatlarına aid olan malların hərəkəti və mövcudluğu ilə bağlı illik hesabatı Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etmək;".

6. "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Dövlət rüsumu haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Baytarlıq haqqında", "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 789-VIQD nömrəli Qanununun tətbiqi və "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 316 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 20 fevral tarixli 2038 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 246 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1.1-ci bənddən "30.5-ci, 30.6-cı, 30.7-ci" sözləri çıxarılsın;

6.2. 1.2-ci bənddən "30.6-cı, 30.7-ci" sözləri çıxarılsın;

6.3. 1.3-cü bənd ləğv edilsin.

7. Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi "Antiinhisar fəaliyyəti haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Mülki müdafiə haqqında", "Taxıl haqqında", "Milli təhlükəsizlik haqqında", "Dövlət sirri haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 19 dekabr tarixli 1056-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 fevral 2024-cü il*

# "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 mart tarixli 1121 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 mart tarixli 1121 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 3, maddə 316 (Cild I) 4.3-cü bəndində "400" rəqəmləri "369.26" rəqəmləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 fevral 2024-cü il*

# Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının 2024-cü ildə Azərbaycan Respublikasında təşkili ilə əlaqədar həyata keçiriləcək layihələr çərçivəsində sahibkarlara kredit təşkilatları tərəfindən verilmiş kreditlər üzrə faizlərin subsidiyalaşdırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının 2024-cü ildə Azərbaycan Respublikasında təşkili ilə əlaqədar həyata keçiriləcək layihələr çərçivəsində sahibkarların rezident banklar və bank olmayan kredit təşkilatlarından (bundan sonra - kredit təşkilatları) manatla aldıqları kreditlərə hesablanmış faizlər Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu vasitəsilə subsidiyalaşdırılsın.

2. "Sahibkarlara kredit təşkilatlarından manatla aldıqları kreditlər üzrə Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu vasitəsilə faiz subsidiyalarının verilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur).*

3. Müəyyən edilsin ki, subsidiya sahibkarlar tərəfindən 2024-cü il yanvarın 1-dən dekabrın 1-dək kredit təşkilatlarından manatla alınan kreditlərə hesablanmış faizlərə görə verilir.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

5.1. bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən Qaydaya uyğun olaraq Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu vasitəsilə faizlərin subsidiyalaşdırılmasını təşkil etsin;

5.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 2-ci hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu vasitəsilə ödəniləcək faizlərin subsidiyalaşdırılmasını təmin etmək məqsədilə tələb olunan vəsaitin 2025-ci ildən başlayaraq dövlət büdcəsində nəzərdə tutulması üçün tədbirlər görsün.

7. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən Qaydanın 2.1-ci bəndində nəzərdə tutulan təsdiqedici sənədin formasını və verilməsi qaydasını 10 (on) gün müddətində təsdiq etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2024-cü il*

*Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Sahibkarlara kredit təşkilatlarından manatla aldıqları kreditlər üzrə Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu vasitəsilə faiz subsidiyalarının verilməsi qaydası

**1. Ümumi müddəa**

1.1. Bu Qayda Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının 2024-cü ildə Azərbaycan Respublikasında təşkili ilə əlaqədar həyata keçiriləcək layihələr çərçivəsində sahibkarların rezident banklar və bank olmayan kredit təşkilatlarından (bundan sonra - kredit təşkilatları) manatla aldıqları kreditlər üzrə onlara Azərbaycan Respublikasının Sahibkarlığınİnkişafı Fondu (bundan sonra - Fond) vasitəsilə faiz subsidiyalarının verilməsinə dair tələbləri, müraciət qaydasını, faiz subsidiyası üzrə ödəniş şərtlərini və digər məsələləri tənzimləyir.

1.2. Kreditlər üzrə faizlərin subsidiyalaşdırılması Azərbaycan Respublikasının dövlət büdcəsindən Fonda ayrılmış vəsait hesabına həyata keçirilir.

**2. Faiz subsidiyasının verilməsi şərtləri**

2.1. Faiz subsidiyası Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının 2024-cü ildə Azərbaycan Respublikasında təşkili ilə əlaqədar həyata keçiriləcək layihələr (bundan sonra - layihə) üçün Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin təsdiqedici sənədi əsasında sahibkarların 2024-cü il yanvarın 1-dən dekabrın 1-dəkkredit təşkilatlarından manatla aldıqları kreditlərə verilir.

2.2. Faiz subsidiyası məbləği 1 (bir) milyon manatdan artıq olan kreditlərin illik faiz dərəcəsinin 6 (altı) faiz bəndi həcmində və 72 (yetmiş iki) aydan çox olmayan müddətə verilir. Kreditin illik faiz dərəcəsi 6 (altı) faizdən aşağı olarsa, faiz subsidiyası kreditin illik faiz dərəcəsi həcmində verilir.

2.3. Faiz subsidiyası kredit müqaviləsinin qüvvədə olduğu müddət ərzində hesablanır və 2025-ci il yanvarın 1-dən başlayaraq bu Qaydanın 4-cü hissəsinəuyğunolaraq rüblük əsasda ödənilir.

2.4. Faiz subsidiyası aşağıdakı hallarda verilmir:

2.4.1. layihəbu Qaydanın 2.1-ci bəndində göstərilən məqsədlər üçün həyata keçirilmədikdə;

2.4.2. sahibkar subsidiya üçün müraciət edən kredit təşkilatına aidiyyəti olan şəxs olduqda;

2.4.3. sahibkarın nizamnamə kapitalında dövlətin iştirak payı 50 (əlli) faizdən çox olduqda.

2.5. Kredit xətti istisna olmaqla, balansarxası öhdəliklərə faiz subsidiyası verilmir.

**3. Kreditin və faiz subsidiyasının verilməsi üçün müraciət**

3.1. Sahibkar kredit almaq üçün kredit təşkilatına müraciət edir.

3.2. Kredit təşkilatı müraciət daxil olduğu gündən 10 (on) iş günü müddətində sahibkar barədə məlumatları "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinə əsasən əldə edir və sahibkarınbu Qaydanın 2-ci hissəsində nəzərdə tutulmuş meyarlara uyğunluğunu yoxlayır, sifariş üzrə maliyyə-kredit təhlili aparır və müvafiq qərar qəbul edir.

3.3. Kredit təşkilatı müsbət qərar verilmiş layihənin maliyyələşdirilməsini həyata keçirir və bu barədə Fonda 2 (iki) iş günü müddətində rəsmi məlumat verir.

3.4. Sahibkar kredit aldıqdan sonra faiz subsidiyası almaq üçün kredit təşkilatına müraciət edir. Kredit təşkilatı sahibkarların aşağıdakı sənədlərini 10 (on) iş günü müddətində Fonda təqdim edir:

3.4.1. sahibkarın müraciətini, o cümlədən məlumatların Fonda ötürülməsinə razılığı;

3.4.2. sahibkarın təsis sənədlərini, VÖEN-ini, hüquqi şəxsin icra orqanın rəhbərininvə ya fərdi sahibkarın şəxsiyyətini təsdiq edən sənədi;

3.4.3. kredit müqaviləsinin və ödəniş qrafikinin surətini;

3.4.4. kredit hesabatını;

3.4.5. sahibkarın rekvizitlərinə, alınmış kreditə və tələb olunan subsidiya məbləğinə dair məlumatı;

3.4.6. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi tərəfindən verilmiş və sahibkarın layihə çərçivəsində nəzərdə tutulmuş işləri başa çatdırmasını təsdiq edən arayışı və ya məktubu.

3.5. Fond 5 (beş) iş günü müddətində sahibkara faiz subsidiyasının verilməsi və ya ondan imtina edilməsi barədə müvafiq qərar qəbul edir və kredit təşkilatına təqdim edir.

3.6. Kredit təşkilatı faiz subsidiyasının verilməsi barədə Fondun qərarını 2 (iki) iş günü müddətindəsahibkara sifarişli poçt göndərişi vasitəsilə bildirir.

**4. Faiz subsidiyasının ödənilməsi**

4.1. Kredit təşkilatı hər rüb üzrə hesablanmış faizlərə dair hesabatı və faiz subsidiyasının ödənilməsi barədə müraciəti 2025-ci il yanvarın 1-dən etibarən hər rüb başa çatdıqdan sonra növbəti ayın ilk 3 (üç) iş günü müddətində Fonda təqdim edir. Hesabatın formasını Fond müəyyənləşdirir.

4.2. Fond bu Qaydanın 4.1-ci bəndində nəzərdə tutulmuş müraciət daxil olduqdan sonra 3 (üç) iş günü müddətində faiz subsidiyasını aşağıdakı məbləğlərdə kredit təşkilatının hesabına köçürür:

4.2.1. bu Qaydanın 4.1-ci bəndində nəzərdə tutulmuş hesabata əsasən ödənilməli faiz subsidiyası bu Qaydanın 3.4.3-cü yarımbəndində nəzərdə tutulmuş ödəniş qrafikində göstərilən faiz subsidiyasının məbləğindən çox olduqda - ödəniş qrafikində göstərilən məbləğdə;

4.2.2. bu Qaydanın 4.1-ci bəndində nəzərdə tutulmuş hesabata əsasən ödənilməli faiz subsidiyası bu Qaydanın 3.4.3-cü yarımbəndində nəzərdə tutulmuş ödəniş qrafikində göstərilən faiz subsidiyasının məbləğindən az və ya ona bərabər olduqda - hesabatda göstərilən məbləğdə.

4.3. Sahibkara krediti üzrə ödənilən faiz subsidiyasının cəmi məbləği bu Qaydanın 3.4.3-cü yarımbəndində nəzərdə tutulmuş ödəniş qrafikində göstərilən faiz subsidiyasının cəmi məbləğindən artıq ola bilməz.

4.4. Bu Qaydanın 4.1-ci bəndində nəzərdə tutulmuş hesabatda kredit təşkilatı tərəfindən təhrif olunmuş məlumatların təqdim edilməsi aşkarlandıqda, artıq ödənilmiş faiz subsidiyası kredit təşkilatı tərəfindən Fonda geri qaytarılır.

4.5. Faiz subsidiyası yalnız bu Qaydanın 3.4.5-ci yarımbəndində nəzərdə tutulmuş sənəddə göstərilən faiz dərəcəsinə uyğun (dəbbə pulu nəzərə alınmadan) ödənilir.

**5. Faiz subsidiyasının ödənilməsinin dayandırılması və ləğvi**

5.1. Faiz subsidiyasının ödənilməsinə dair kredit təşkilatının Fonda müraciət tarixinə 1 (bir) iş günü qalanadək sahibkarın həmin kredit təşkilatında olan hesabı üzərində məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə, habelə qanunla müəyyənləşdirilmiş və ya bankla sahibkar arasında müqavilədə nəzərdə tutulmuş hallarda pul vəsaitinin silinməsinə dair müvafiq sərəncam olduqda, həmin borc tam məbləğdə ödənilənədək (öhdəlik yerinə yetirilənədək) faiz subsidiyasının ödənilməsi dayandırılır.

5.2. Bu Qaydanın 5.1-ci bəndində nəzərdə tutulmuş hallar aradan qaldırıldıqdan sonra faiz subsidiyasının ödənilməsi bərpa edilir və həmin dövrlər üçün ödənilməli faiz subsidiyası bu Qaydanın 4-cü hissəsi ilə müəyyən edilmiş qaydada kredit təşkilatının hesabına köçürülür.

5.3. Aşağıdakı hallarda sahibkara faiz subsidiyasının ödənilməsi ləğv edilir:

5.3.1. sahibkarın tələbi əsasında kredit təşkilatının Fonda müraciəti olduqda;

5.3.2. iqtisadi fəaliyyət sahəsində cinayətlərə görə məsuliyyətini təsdiqləyən qanuni qüvvəyə minmiş məhkəmə qərarı olduqda;

5.3.3. sahibkar fəaliyyətini dayandırdıqda, bu fəaliyyətə xitam verdikdə və ya onun bu fəaliyyətlə məşğul olmaq hüququ qanunla müəyyənləşdirilmiş qaydada ləğv edildikdə;

5.3.4. müqavilə üzrə ödənişlərinin icrası 90 (doxsan) gündən çox gecikən krediti restrukturizasiya olunduqda.

Bu Qaydanın 5.3.2-ci yarımbəndində nəzərdə tutulmuş hal barədə kredit təşkilatına məlumat daxil olduğu gündən 3 (üç) iş günü müddətində həmin təşkilat Fonda sifarişli poçt göndərişi vasitəsilə məlumat verir.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Azərbaycanın uğurları AŞPA-nın planlarını pozdu

**Yanvarın 22-də Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin dondurulması bu təşkilatın iç üzünü açıb dünyaya göstərdi. Etimadnamənin dondurulmasına səbəb kimi guya AŞPA-nın 7 fevral 2024-cü ildə keçiriləcək növbədənkənar prezident seçkilərinə dəvət olunmaması göstərilir. Əslində isə bu, səbəb deyil, AŞPA-nın Azərbaycana qarşı çirkin niyyətini həyata keçirmək üçün bəhanədir.**




Bu beynəlxalq təşkilatın Azərbaycana qarşı başlatdığı qaralama kampaniyasının arxasında Fransa, Almaniyanın bəzi siyasətçiləri, ABŞ və onun dirijorluğu ilə oturub-duranlar dayanır. AŞPA-nın göstərdiyi arqumentlər yalan olmaqla bərabər, həm də ölkəmizə qarşı qərəzli mövqe nümayiş etdirənlərin gerçək niyyətlərini açmağa imkan verir. Belə ki, seçkiyə dəvət məsələsi diqqətləri əsas məqsədlərdən yayındırmaq üçün düşünülüb. Amma məqsəd bu bəhanənin arxasında nə qədər gizlədilsə də, onun müxtəlif istiqamətlərini görmək elə də çətin deyil.

Təbiidir ki, əsas məqsədlərdən biri Ermənistanla Azərbaycan arasında gedən sülh danışıqlarını ləngitmək və sonra da qarşısını almaqdır. Hələ də keçmişin xəyalları ilə yaşayanlar, özlərini Qarabağ danışıqları üzrə "həmsədr" kimi hiss edənlər Bakı və İrəvanın birbaşa danışıqlar yolu ilə müsbət nəticələr əldə etdiyini görürlər. Ancaq bu prosesin onların çirkin maraqları ilə üst-üstə düşmədiyinə görə hansı vasitə ilə olursa olsun, ona maneçilik törətməyə çalışırlar.

Görünür, 2023-cü il sentyabrın 19-20-də Azərbaycanın Qarabağda həyata keçirdiyi antiterror tədbirləri təkcə erməni şəbəkəsini deyil, islamofobiyanın əsirinə çevrilmiş Qərb mərkəzlərini, o cümlədən AŞPA-nın da yuxusunu qaçırıb. AŞPA-nın bəhanələri də bax həmin sayıqlamalardan başqa bir şey deyil. Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi onların Qarabağ üzərindən qurulmuş bütün planlarını pozub. AŞPA, eləcə də bəzi beynəlxalq təşkilat və dövlətlər müxtəlif yollarla təzyiqlərini gücləndirərək Azərbaycanı geriyə addım atmağa məcbur etməyə çalışırlar. Çirkin məqsədlərdən hiss olunan odur ki, bu gün AŞPA müxtəlif yollarla bir növ tarixin təkərini geri döndərməyə çalışır. Tarixin təkərini isə geri döndərmək mümkün deyil. İnkişaf və tərəqqi yolunu tutmuş və bu istiqamətdə uğurla irəliləyən Azərbaycan heç vaxt geri addım atmayacaq. AŞPA-nın, Fransanın, eləcə də onlarla həmrəy və həmxasiyyət olan ölkələrin dedikləri Bakı üçün söz yığınından başqa bir şey deyil.

Günümüzün reallıqlarını ya görməyən, ya da görmək istəməyən, yalan və uydurmalara əsaslanan AŞPA yüz mindən çox erməni əhalisinin bölgəni tərk etməsindən narazılıq ifadə edir. Yalanlarını həqiqətə oxşatmaq üçün faktları şişirdərək yanlış arqumentlər səsləndirirlər. Azərbaycanın Qarabağın erməni əhalisi ilə necə davrandığı dünyanın gözü qarşısında olub. Onlara getməmələri, ölkəmizin vətəndaşlığını qəbul etmələri üçün dəfələrlə rəsmi müraciətlər edilib. Revanşistlərin mövqeyini müdafiə edən AŞPA isə çirkin məqsədini həyata keçirmək üçün reallığı əks etdirən bu müraciətləri qulaqardına vurur.

Fransanın əlində alətə çevrilmiş AŞPA-nın ermənilərin taleyi üçün bu qədər narahat olduğunu görəndə fikirləşirsən ki, bəs Azərbaycan torpaqları 30 il ərzində ermənilər tərəfindən işğalda saxlanılanda bu beynəlxalq təşkilat harada idi? Niyə həmin günlərdə torpaqlarımızı işğal etmiş Ermənistan əleyhinə heç olmasa bəyanata oxşar nəsə bir şey səsləndirmirdi? Xalqımız üçün çətin olan həmin günlərdə AŞPA Ermənistan nümayəndə heyətinin etimadnaməsini dondurmurdu? Görəsən vəhşi, qaniçən ermənilər AŞPA üçün, dünya üçün bu qədər qiymətlidir ki, onun müdafiəsinə qalxırlar?

Avropa Şurasının Parlament Assambleyasının yeni prezidenti yunanıstanlı deputat Teodoros Rousopoulosdur. Siyasətə jurnalistikadan gəlmiş Teodoros informasiya manipulyasiyalarını çoxlarından yaxşı bacarır. 2004-2008-ci illərdə Yunanıstan hökumətinin mətbuat katibi, daha sonra informasiya və kommunikasiya məsələləri üzrə dövlət naziri olub. Maxinasiya quruculuğu ilə ad qazanmış nazir sonda elə bu əməlinin qurbanı olub. 2008-ci ildə "Vatopedi monastrı qalmaqalı"na görə istefaya göndərilib.

Teodoros Rousopoulosun adı təkcə Yunanıstanın daxilində deyil, beynəlxalq skandallarda da, məşhur "Vodofone qalmaqalı"nda da çəkilir. Qalmaqalın motivi budur ki, bir il ərzində naməlum hücumçular Yunanıstanda Baş nazir, müdafiə naziri, xarici işlər naziri də daxil olmaqla, 100 aparıcı siyasətçinin və iş adamının telefonlarını dinləyiblər. Bütün bunlar Teodorosun Yunanıstan hökumətində informasiya-kommunikasiya məsələləri üzrə dövlət naziri olduğu illərə təsadüf edib. Bu cür böyük qalmaqallardan sonra ehtimal yaranır ki, Teodorosun karyerası bitib. Amma elə deyil. Erməni şəbəkəsi onu dərhal himayəsinə alıb. Ermənilərin dəstəyindən sonra Teodoros imkanlarını artıraraq 2019-cu ildə Yunanıstanın AŞPA-dakı nümayəndə heyətinin tərkibinə daxil olub. Sonra bu təşkilatın prezidenti "seçilib". AŞPA-nın yanvarın 22-də başlayan yeni sessiyasında prezident qismində ilk çıxışını edib. Dərhal da erməni şəbəkəsindən aldığı sifariş əsasında Azərbaycana qarşı çirkin münasibətini ortalığa qoyub.

Teodoros erməni şəbəkəsinin təsirində olduğunu 22 yanvar sessiyasından öncə də büruzə verib. Dövlət başçısı 2023-cü il oktyabrın 15-də Xankəndidə Azərbaycan bayrağını yüksəldəndə, Teodoros buna narazılığını bildirib. O, ermənilərə sadiqliyini nümayiş etdirərək 22 yanvarda Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin qəbul olunmasına da əngəl törədib.

Göründüyü kimi, AŞPA-nın Azərbaycana qarşı atdığı qərəzli addımların arxasında həqiqət yox, çirkin niyyət dayanıb. Deməli, müxtəlif bəhanələrdən istifadə edən bu beynəlxalq təşkilat Fransanın və erməni şəbəkəsinin maraqlarına xidmət edir. Dövlət başçısı Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonqu qəbul edərkən bu məsələyə toxunaraq deyib ki, Azərbaycan nümayəndə heyətinin hüquqları bərpa olunmayacağı təqdirdə, Azərbaycan tərəfindən də Avropa Şurası və Avropa İnsan Haqları Məhkəməsində iştirak məsələsinə yenidən baxılacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## AŞPA riyakarlığın beynəlxalq nümunəsidir

**"AŞPA-nın Azərbaycanla bağlı sərgilədiyi mövqe Avropa strukturlarının ölkəmizə qarşı riyakarlığını bir daha sübut edir. Azərbaycan Avropa Şurasına üzv olduğu 2001-ci ildən bəri dəfələrlə belə qərəzli mövqenin şahidi olub. Emənipərəst, islamofob və Azərbaycanofob qüvvələr daim bu təşkilatdan ölkəmizə qarşı vasitə kimi istifadə ediblər. Bu ədalətsiz kampaniya hazırda da davam etdirilir. Bu isə onu deməyə əsas verir ki, Avropa təşkilatları müəyyən güclərin əlində oyuncağa çevriliblər və bu təşkilatlardan müəyyən ölkələrə qarşı təzyiq aləti kimi istifadə edilir".**



Bu sözləri qəzetimizə açıqlamasında Milli Məclisin Əmək və sosial-siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı deyib. Deputat bildirib ki, AŞPA uzun illər ərzində Ermənistanın Azərbaycana qarşı təcavüzü və ərazilərimizi işğal etməsi faktına qarşı heç bir təsirli addım atmayıb. Bu təşkilat yalnız bəzi hallarda heç bir hüquqi çəkisi olmayan bəyanatlar və qərarlar verməklə kifayətlənib. AŞPA və bu kimi qurumlar Ermənistanın Azərbaycana qarşı işğalçılıq, terror, soyqırımı siyasəti nəticəsində dəhşətli bəşəri hərbi cinayətlər törətdiyini, insan hüquqlarını kobud şəkildə pozduğunu görməzlikdən gəliblər. Milyondan çox azərbaycanlının dədə-baba yurdundan didərgin düşərək 30 ilə yaxın qaçqın, məcburi köçkün həyatı yaşamasına göz yumublar: "Biz ötən müddətdə bir dəfə də olsun Ermənistanın bəşəri cinayətlərinə qarşı bu qurumun sərt reaksiyalarının şahidi olmamışıq. Halbuki AŞPA-nın Ermənistana ən sərt sanksiyalar tətbiq etmək üçün əlində yetəri qədər faktları olub. Lakin buna baxmayaraq, onlar işğalçıya dəstək verib, onun təcavüzkar siyasətini himayə ediblər. Deməli, AŞPA riyakarlığın beynəlxalq nümunəsi rolundan əl çəkə bilmir".

Deputat dedi ki, Azərbaycan Vətən müharibəsində Ermənistan üzərində şanlı Zəfər çalaraq öz ərazi bütövlüyünü və suverenliyini tam təmin etdikdən sonra Qərbin bəzi siyasi dairələrinin əsl siması ortaya çıxıb. Bir sıra xarici qüvvələr ölkəmiz əleyhinə açıq-aşkar təzyiq kampaniyası aparmağa başlayıblar. Belə ölkələrin başında gələnlərdən biri də Fransadır.

"Bütün beynəlxalq platformalarda "canfəşanlıq" edən Fransa Azərbaycana məğlub olmasına baxmayaraq, çirkin niyyətlərini həyasızcasına hələ də davam etdirir. Bu dəfə də Almaniyanın dəstəyi ilə AŞPA-da ölkəmizə qarşı əvvəlcədən hazırlanmış plan həyata keçirilib. Parisin bu qərəzli oyununun əsas səbəblərindən biri də onun Cənubi Qafqazda möhkəmlənmək istəyidir. Hadisələrin gedişi göstərir ki, Fransa öz çirkin oyunlarına işğalçı Ermənistanı da qoşub", - deyə müsahibimiz bildirib.



Məlahət İbrahimqızı əlavə edib ki, Ermənistan təəssüf ki, yaxın tarixin acı nəticələrindən dərs çıxarmaq istəmir: "İstər İkinci Qarabağ müharibəsində, istərsə də postmünaqişə dövründə Ermənistanın havadarları ona heç bir dəstək göstərməsələr də, verdikləri vədləri yerinə yetirməsələr də, İrəvan xam xəyallardan əl çəkmir. Hər dəfə itirən tərəf olmasına baxmayaraq, Ermənistan həmin siyasi güclərin əsl niyyətinin heç də ermənilərə yardım etmək olmadığını başa düşmür. İndi də Fransa Almaniya ilə tandem oyun təşkil edərək ənənəvi riyakarlığını davam etdirir, AŞPA-dan və Ermənistandan bir vasitə kimi istifadə etməklə məkrli planlarını reallaşdırmaq istəyir".

Deputat yekunda vurğulayıb ki, Azərbaycanı sevməyən qüvvələrin cəhdləri heç bir nəticə verməyəcək: "Azərbaycan öz haqq yolunu müəyyən edib və bu yolda əmin addımlarla irəliləyir. Heç bir qüvvə bizi düz yolumuzdan döndərə bilməz. Bu gün Azərbaycanın əsas hədəfi Cənubi Qafqazda dayanıqlı sülhə və sabitliyə nail olmaqdır və nail olacaq. Kimsə buna şübhə etməsin!"

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## Fransa AŞPA-nı çirkin oyunlarına qoşub

**"Fransa ilə Azərbaycan arasında müşahidə olunan gərginliyin əsas səbəbi Parisin Azərbaycan-Ermənistan qarşıdurmasında tutduğu ədalətsiz və qərəzli mövqedir. Fransa uzun müddətdir ki, Ermənistana hər cür - diplomatik, iqtisadi və hərbi dəstək verməklə Bakı ilə İrəvan arasında sülhün əldə olunmasına əngəl törədir. Bu tendensiya BMT Təhlükəsizlik Şurası, Avropa İttifaqı (Aİ) və onun qurumlarında da davam etdirilir, Fransa müxtəlif beynəlxalq platformalarda ölkəmizə qarşı açıq şəkildə düşmənçilik aparır".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib. Deputat bildirib ki, bu addımlardan sonra bumeranq effekti ilə Parisin özünün də zərbələr aldığına şahidlik edirik. Həmçinin Fransanın təmsil olunduğu Avropa İttifaqının da nüfuzuna ciddi ziyan dəyir.

Deputat söyləyib ki, Azərbaycanın İkinci Qarabağ müharibəsində və ötən il sentyabrın 19-20-də keçirilmiş antiterror tədbirlərində əldə etdiyi qələbədən sonra Fransanın ermənipərəst mövqeyi daha da sərtləşib: "Bu ölkə Ermənistana öz əyaləti, müstəmləkəsi kimi baxır. Belə olan halda, Azərbaycanın ard-arda əldə etdiyi qələbələr işğalçı ölkənin ağası sayılan, onu münaqişələrə təhrik edən Fransanı isterik hala salıb. AŞPA-da Azərbaycan nümayəndə heyətinin mandatının təsdiqlənməməsi üçün parlamentarilərə təzyiqlər edən Paris ədalətsiz mövqeyini davam etdirir. Əslində, Avropa İttifaqı üçün Cənubi Qafqazda Azərbaycanla tərəfdaşlıq etmək daha maraqlı olmalıdır. Qısqanclığını cilovlaya bilməyən Fransa isə Avropa İttifaqı ölkələrinə özünün liderliyini təsdiq etmək üçün Azərbaycan kimi etibarlı tərəfdaşa, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan ölkəyə qərəzli hücumlar təşkil edir. Fransanın və rəsmilərinin qeyri-adekvat addımları onları beynəlxalq aləmdə gülünc vəziyyətə salıb".

Azərbaycanın Fransanın qərəzli addımlarına cavabının qətiyyətli olduğunu deyən Aydın Hüseynov əlavə edib: "Parisin bütün dünyada müstəmləkəçi və soyqırımı törədən ölkə kimi ifşa edilməsi məntiqli addım idi. Hətta Azərbaycan növbəti mərhələlərdə bunun davamını da gətirə bilər. Əgər Fransa qərəzsiz mövqe sərgiləməsə, hücumlarını dayandırmasa, Cənubi Qafqazda Ermənistan kimi proksi ölkə vasitəsilə münaqişəni davam etdirsə, ona qarşı sanksiya da tətbiq edə bilərik. Bu isə Fransanın işinə yaramayacaq. Nəzərə almaq lazımdır ki, Fransanın ölkəmizdə fəaliyyət göstərən böyük şirkətləri var".

Deputat həmçinin AŞPA-nın ölkəmiz əleyhinə qərarının da Fransanın təhriki və sifarişi ilə qəbul edildiyini qeyd edib. Vurğulayıb ki, AŞPA-da əleyhimizə verilən qərarda irqçilik, türkofob və islamofobiya təzahürləri mövcuddur: "Lakin bu qərəzli davranış yeni deyil. Biz bu quruma üzv olduğumuz gündən AŞPA-da aparılan müzakirələrdə daim ermənipərəst münasibətlə üzləşmişik. Görünür, vaxtilə bu təşkilatda ədalət axtarmaqda yanılmışıq. Son hadisələr də bir daha sübut etdi ki, AŞPA açıq-aşkar riyakarlıq nümayiş etdirir. Demokratiyadan, insan haqlarından ağızdolusu danışan həmin təşkilat, əslində, bütün bunlardan məhrumdur. Avropa Şurasına üzv olduğumuz 23 il ərzində keçirilən iclaslarda, qəbul edilən qərarlarda Ermənistanın işğalçı siyasətini pisləyən bir cümlə belə işlədilməməsindən də bu qurumun ermənipərəst mövqeyə sahib olduğu onsuz da aydın idi".

Aydın Hüseynovun dediyinə görə, Azərbaycan nümayəndə heyətinin korrupsiyalaşmış və islamofob düşüncəli qüvvələrin qərəzləri ilə dolmuş bir təşkilatda təmsilçiliyinə son qoyması məntiqlidir: "AŞPA bu günə qədər heç bir sənədində Azərbaycanın ərazi bütövlüyünü, vətəndaşlarının Ermənistan tərəfindən pozulmuş hüquqlarının bərpasını müdafiə etməyib. Ermənistan Azərbaycanın dünya birliyi tərəfindən tanınan ərazilərinin 20 faizini işğal etsə də, AŞPA hələ indiyə qədər İrəvana "gözün üstdə qaşın var" deməyib. Əksinə, daim separatçıları himayə edib, məsələyə ikili standartlardan yanaşıb. Halbuki bir quruma üzv olan iki ölkədən birinin digərinin ərazisini işğal etməsi faktına görə ən azından işğalçının səs hüququ əlindən alına bilərdi. Bunun əvəzində, AŞPA 2023-cü il oktyabrın 23-də "Dağlıq Qarabağda humanitar vəziyyət" adlı qətnamə qəbul edib. Əlbəttə, əvvəlcədən hazırlanmış bu ssenarilərin arxasında AŞPA rəhbərliyi özü dayanır".




*N.QAFARZADƏ,*
*"Azərbaycan"*

## Avropadan asılı olanlar...

### Dost ölkələrin Qərb "sevdası" onlara başucalığı gətirmir

**"Azərbaycan üzv olduğu beynəlxalq təşkilatardakı dövlətlərlə hər zaman ikitərəfli səmərəli əməkdaşlıq yaratmaqda maraqlı olub. Eləcə də GUAM (Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova) regional təşkilatında müttəfiqləri ilə yaxşı münasibətlər formalaşdırıb, əvvəl Özbəkistan bu təşkilata üzv olsa da, daha sonra ayrılıb və Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova üzv dövlətlər olaraq qalıblar. Lakin bu üç ölkənin hər biri Avropa İttifaqı üzvlüyünə namizəd kimi qeydə alınmaq üçün Qərbə daha çox meyilləniblər".**



Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini Tahir Kərimli "Azərbaycan" qəzetinə açıqlamasında deyib ki, Qərbə meyillənən dost ölkələr hətta bu məqsədlə Azərbaycanla münasibətlərinə belə xələl gətirə bilirlər. Çünki onlar Avropadan asılı vəziyyətdədirlər.

Burada əsas və təsiredici məqam isə hər üç ölkənin separatizmdən əziyyət çəkməsidir: "Azərbaycan separatizm problemini həll etdiyi üçün Avropa Şurası bizim üzərimizə gəlir. Təəssüf ki, burada da xristian təəssübkeşliyi, islamofobiya, Qərbin diktəsi ilə hərəkətlər başlıca yer tutur. Avropadan asılı olan ölkələr ona görə də Azərbaycanla münasibətlərə ciddi xələl gətirirlər. Amma Azərbaycan hər zaman bu üç dövlətlə normal, səmimi münasibətlərin tərəfdarı olub, onların ərazi bütövlüyünü dəstəkləyib. Bu baxımdan həmin ölkələrin AŞPA-da sərgilədikləri mövqelərinə ancaq təəssüf etmək olar".

T.Kərimli hesab edir ki, belə davranış bu dövlətlərin heç birinə başucalığı gətirmir. Azərbaycan düz yoldadır, dövlət suverenliyini və ərazi bütövlüyünü qorumaq üçün bu istiqamətdə yürütdüyü siyasətdə haqlıdır.

Ümumilikdə, AŞPA-nın Azərbaycan əleyhinə qərəzli kampaniyası, ikili standartlar siyasəti, ölkəmizə qarşı ədalətsiz mövqeyi yersizdir. Yəni bununla bu təsisat nəsə əldə edə bilməyəcək. Bu baxımdan itirən ölkəmiz əleyhinə səs verənlər, Qərbin müəyyən dairələrinin diktəsi ilə oturub-duranlardır. Azərbaycanı ədalət yolundan heç kim döndərə bilməz.

*Əsmər QARDAŞXANOVA ,*
*"Azərbaycan"*

# "İnvestisiya təşviqi sənədinin verilməsi nəzərdə tutulan strateji investisiya layihələrinin istiqamətləri"nin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "İnvestisiya təşviqi mexanizminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər, Azərbaycan Respublikası Prezidentinin "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 18 yanvar tarixli 745 nömrəli, "İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası"nın təsdiq edilməsi, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 19 yanvar tarixli 107-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 797 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2016-cı il 20 aprel tarixli 877 nömrəli fərmanlarında dəyişiklik edilməsi və "İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və həyata keçiriləcəyi inzibati ərazi vahidləri"nin təsdiq edilməsi haqqında" 2016-cı il 20 aprel tarixli 878 nömrəli Fərmanının ləğv edilməsi barədə" 2022-ci il 20 dekabr tarixli 1913 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "İnvestisiya təşviqi sənədinin verilməsi nəzərdə tutulan strateji investisiya layihələrinin istiqamətləri" təsdiq edilsin *(əlavə olunur).*

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2024-cü il*

*Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# İnvestisiya təşviqi sənədinin verilməsi nəzərdə tutulan strateji investisiya layihələrinin istiqamətləri

1. Yerli xammal bazasına (metal filiz, neft, qaz, kimya, tikinti materialları və pambıq sahələri) əsaslanan istehsal layihələri;
2. Bərpa olunan enerji mənbələri hesabına enerji istehsalı layihələri;
3. Tullantıların idarə olunması və təkrar emalı layihələri;
4. Dəniz suyunun duzsuzlaşdırılması layihələri;
5. Özəl sənaye məhəllələrinin yaradılması layihələri;
6. 2023-cü il yanvarın 1-dən sonra investisiya müsabiqələri vasitəsilə özəlləşdirilən qeyri-neft sənayesi müəssisələrinin istehsal layihələri;
7. Azərbaycan Respublikasında istehsalı ilk dəfə təşkil edilən, yerli məhsullarla özünü təminetmə səviyyəsini (idxalın əvəzlənməsini) və ya qeyri-neft sektorunun ixrac potensialının artırılmasını təşviq edən iqtisadi fəaliyyət sahələrinin yaradılması istiqamətində həyata keçirilən "Azərbaycanda ilk" ("FirstinAzerbaijan") layihələri;
8. Hava gəmilərinin istismarı və onlara texniki xidmət göstərilməsi layihələri;
9. Dəmir yolunun hərəkət tərkibinin təmiri və onun ehtiyat hissələrinin istehsalı layihələri;
10. Hərbi təyinatlı məhsulların istehsalı layihələri;
11. Alüminium məhsullarının istehsalı layihələri;
12. Dövlət-özəl tərəfdaşlığı (dövlətin satınalma öhdəliyi ilə özəl sektor tərəfindən həyata keçirilən elektrik enerjisi istehsalı layihələri daxil olmaqla) layihələri;
13. COP29 beynəlxalq tədbiri çərçivəsində qonaqlama layihəsi.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 65** **QƏRAR** **Bakı şəhəri, 2 fevral 2024-cü il**

## "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 708-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 708-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 13 dekabr tarixli 195 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 805 (Cild I) ilə təsdiq edilmiş "Avtomobil yollarının və yol təsərrüfatının digər daşınmaz əmlakının qeydiyyatı Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci bəndə "təqdim etməlidir" sözlərindən sonra "(bu Qaydanın 2.1-1-ci bəndinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

"2.1-1. Yol təsərrüfatının əmlakı üzərində mülkiyyət və digər əşya hüquqlarının qeydiyyatı üçün tələb olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.".

2. "Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları"nın və "Daşınmaz əmlakın təsvirinə, bu əmlak üzərində dövlət reyestrində qeydə alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayışın verilməsi haqqında Təlimat"ın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 oktyabr tarixli 319 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1233 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 25 yanvar tarixli 44 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları" üzrə:

2.1.1. aşağıdakı məzmunda 1.6-cı bənd əlavə edilsin:

"1.6. Bu Qaydaların 3-cü, 7-ci və 8-ci hissələrinə əsasən hüquqların dövlət qeydiyyatı üçün tələb olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.";

2.1.2. 3.1-ci bəndə "təqdim edilməlidir" sözlərindən sonra "(bu Qaydaların 1.6-cı bəndinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

2.1.3. 3.3-cü, 7.2-ci, 7.3-cü bəndlərə və 7.6-cı, 8.3-cü bəndlərin ikinci cümlələrinə "əlavə olunur" sözlərindən sonra "(bu Qaydaların 1.6-cı bəndinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Daşınmaz əmlakın təsvirinə, bu əmlak üzərində dövlət reyestrində qeydə alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayışın verilməsi haqqında Təlimat" üzrə:

2.2.1. 2.1-ci bəndin ikinci cümləsinə "əlavə etməlidir" sözlərindən sonra "(bu Təlimatın 2.1-1-ci bəndinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

2.2.2. aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

"2.1-1. Arayışın alınması üçün zəruri olan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər ərizəçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 66** **QƏRAR** **Bakı şəhəri, 3 fevral 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 aprel tarixli 140 nömrəli Qərarı ilə təsdiq edilmiş "Orta ixtisas təhsili üzrə ixtisasların Təsnifatı"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 aprel tarixli 140 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 4, maddə 487 (Cild I) ilə təsdiq edilmiş "Orta ixtisas təhsili üzrə ixtisasların Təsnifatı"nın "7. Səhiyyə, rifah və xidmət ixtisasları qrupu" hissəsinə aşağıdakı məzmunda 7.18-ci bənd əlavə edilsin:

"7.18. 040718 Optometriya".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycanın haqq səsinə səs verənlərin sayı artır

**Ermənistan torpaqlarımızı işğal etdikdən sonra vandallar yalnız yurd yerlərimizi dağıdıb xarabazara çevirməklə, xalqımıza məxsus mədəni irsi, tarixi abidələri, məscidləri, müqəddəs məkanlarımızı dağıdıb məhv etməklə, izini itirməklə kifayətlənmədilər. Eyni zamanda daha böyük və təhlükəli, ekoloji fəlakətə cığır açan bəşəri cinayətlər törətdilər.**


©REZA

Meşələrimizi qırdılar. İşğal altında olan torpaqlarda məqsədli yanğınlar törədərək füsunkar mənzərəsi ilə məşhur olan Qarabağın və Şərqi Zəngəzurun flora və faunasına ciddi ziyan vurdular. İşğal altında olan torpaqların yeraltı və yerüstü təbii sərvətlərini qanunsuz istismar etdilər, bulaqları dağıdıb, çaylarımızı zəhərli tullantılarla çirkləndirdilər... Zəngilan rayonunda Bəsitçay hövzəsində yerləşən təbii çinar meşəsini məhv etdilər. Xatırladaq ki, Zəngilan çinar vadisi sahəsinə, ağacların fiziki sağlamlığına, görünüşünə görə dünyada ikinci, bəlkə də birinci meşədir.

Zəngilan çinarı görkəminə, fiziki vəziyyətinə, nadir bioekoloji əlamətinə görə bənzərsizdir və onu Şərqin florasının mirvarisi, möhtəşəm gövdəsi və füsunkarlığına görə cənubun nəhəng ağacı adlandırırlar.

Zəngilan çinarları dünyada bitən 8 çinar növündən biri idi. Azərbaycanda yayılan çinar növünün əsasını Zəngilan çinarları təşkil edir. Bu çinar növü Şərq çinarı və ya barmaqyarpaqlı çinar adlandırılır. Şərq çinarı dünyanın bir sıra bölgələrində, o cümlədən Yunanıstanda dağ ətəklərində, Aralıq və Egey dənizləri sahillərində, Kipr, Krit və Rodos adalarında, Kiçik və Orta Asiyada geniş yayılıb.

Görkəmli təbiətşünas alim, akademik Həsən Əliyevin təşəbbüsü ilə nadir təbiət abidəsi olan çinar meşəsini qorumaq məqsədilə Azərbaycan SSR Nazirlər Sovetinin 1974-cü il 4 iyul tarixli qərarına əsasən, Zəngilan rayonunun ərazisində 117 hektar sahəni əhatə edən Bəsitçay Dövlət Təbiət Qoruğu yaradılıb. Mütəxəssislərin qeydlərinə görə, Azərbaycanda çinar meşəsinin ümumi sahəsi 120 hektara yaxındır. Zəngilanın çinar meşəsi Avropada ən böyük, dünyada isə Kanadadan sonra ikinci yeri tuturdu. Əfsuslar olsun ki, erməni vandalları işğal dövründə təbiətin nadir incisi olan çinar meşəsini də məhv ediblər.

Yeri gəlmişkən, Azərbaycan təbiətinin qorunması daim dövlətimizin prioriteti olub. Torpaqlarımız işğaldan azad edildikdən sonra Ekologiya və Təbii Sərvətlər, Daxili İşlər, Fövqəladə Hallar nazirlikləri, Dövlət Sərhəd Xidməti və ANAMA-nın əməkdaşlarının iştirakı ilə Zəngilan rayonunda 1000-dən çox ağac əkilib. Şirvan Milli Parkından götürülən 18 baş ceyran Cəbrayıl rayonu ərazisinə fərdi reintroduksiya olunub.

2022-2023-cü illər ərzində işğaldan azad edilmiş ərazilərdə fauna növlərinin - ceyran, bezoar keçisi, Dağıstan turu və nəcib maralın, o cümlədən balıq və yırtıcı quş növləri öz tarixi areallarına reintroduksiya olunub.

Ermənistanın tarixi torpaqlarımızda təbii sərvətlərimizi acgözcəsinə talamaları, təbiətlə vandalcasına davranışlarına təbiətsevərlər, ekofəallarımız tərəfindən sərt təpki göstərildi. Ekofəalların 2023-cü il dekabrın 12-də Şuşa şəhərində başlatdıqları etiraz aksiyası 138 gün davam etdi. Dünyada böyük rezonans doğuran ekoaksiyadan təbiətimizi məhv edənlər, təbii sərvətlərimizi talayanlar siyasi məqsədlər üçün istifadə etməyə çalışsalar da, ölkəmiz əleyhinə mənasız siyasi kampaniya, iyrənc təbliğat aparsalar da, yalanları ayaq tutmadı, əvəzində ifşa olundular. Dünyanın müxtəlif ölkələrindən olan ekofəallar, KİV və QHT nümayəndələri azərbaycanlı ekofəallarla həmrəylik nümayiş etdirərək haqq səsimizə səs verdilər. Dünyanın 22 ölkəsini birləşdirən 70-ə yaxın QHT Ermənistanın dağ-mədən sənayesinin hava və suyun çirklənməsinə etiraz edərək beynəlxalq təşkilatlara müraciət göndəriblər. Sənəddə qeyd edilir: "Ermənistanın mədən sənayesi transsərhəd çayları çirkləndirməklə Şərqi Avropadan Mərkəzi Asiyaya qədər geniş coğrafiyada bir sıra ekoloji problemlərə səbəb olmaqda davam edir.

BMT təmiz, sağlam və davamlı ətraf mühiti əsas insan hüququ kimi tanıyır. Qlobal ictimaiyyətin BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün səfərbər olduğu, ekoloji problemlərin həlli üçün səylərini gücləndirdiyi bir vaxtda Ermənistanın bu hərəkətləri Transsərhəd Çaylar Konvensiyası və BMT-nin Avropa İqtisadi Komissiyasının Transsərhəd Kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Konvensiyasının (Espoo Konvensiyası) tələblərini ciddi şəkildə pozur".

Sənədi imzalayanlar müraciətlərində yaxın zamanda BMT-nin İqlim Dəyişmələri üzrə Tərəflər Konfransı - COP29-un Cənubi Qafqaz regionunda, Azərbaycanda keçiriləcəyini nəzərə alaraq, Ermənistanı ətraf mühitə ziyan vuran əməllərdən çəkinməyə, beynəlxalq konvensiyalardan irəli gələn öhdəlikləri yerinə yetirməyə çağırırlar. Elə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının - COP29-un Tərəflər Konfransının 29-cu sessiyasının ölkəmizdə keçirilməsi də Azərbaycan dövlətinin və cəmiyyətinin təbiətə, ekoloji mühitə göstərdiyi münasibətin təzahürü kimi başa düşülməlidir.

Qeyd edək ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransı 1995-ci ildən hər il keçirilir. Bu tədbirin keçirilməsində əsas məqsəd dünyada iqlim dəyişikliyi ilə mübarizədə irəliləyişləri qiymətləndirməkdir. 1990-cı illərin ortalarından başlayaraq sözügedən konfrans çərçivəsində inkişaf etmiş ölkələrdə istixana qazlarının atmosferə tullantılarının məhdudlaşdırılması ilə bağlı icbari hüquqi öhdəlikləri ehtiva edən Kioto Protokolu müzakirə olunub. 2011-2015-ci illərdə keçirilən sessiyalarda iqlim dəyişikliyi ilə mübarizədə ən əhəmiyyətli beynəlxalq sənəd hesab olunan Paris Sazişi müzakirə edilib və 2015-ci ildə qəbul olunub. Bu günədək 195 ölkə, o cümlədən Azərbaycan bu razılaşmaya qoşulub.

Zaman ən böyük hakimdir. Vaxtı çatdıqca bütün hadisələri, haqsızlıqları, ədalətsizlikləri süzgəcindən keçirib qiymətini verir. Nə xoş ki, ölkəmiz bu imtahanlardan üzüağ çıxır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Yevlax Pilot Aqroparkının tam gücü ilə fəaliyyətə başlamasına az qalıb

## 100 milyon manat investisiya yatırılacaq aqroparkda 500 daimi, 1000 mövsümi iş yeri açılacaq

**Dünyanın bütün ölkələrində əsas inkişaf göstəricisi iqtisadiyyatın sənayeləşməsi ilə ölçülür. Ərazisi kiçik, təbii sərvətləri az olan Yaponiya, Almaniya və Böyük Britaniyanı götürək. Bu ölkələr təbii sərvətlərlə zəngin olan istənilən ölkədən qat-qat artıq sənaye məhsulları istehsal edirlər. Adları çəkilən ölkələrin üstünlüyü ondadır ki, onlar istehsal prosesində elmin və texnologiyanın ən son nailiyyətlərindən yararlanırlar. Üstəlik, bu ölkələrdə aqrar sənayenin inkişafı ən yüksək səviyyədədir.**



Bu baxımdan Azərbaycanın da aqrar sənayenin inkişafına üstünlük verməsi təbiidir. Həmin siyasətin özülü 2014-cü ildə qoyuldu - ilk "Şəmkir Aqropark" MMC yaradılanda. Cənubi Qafqazda ilk "Aqropark" formatlı kənd təsərrüfatı layihəsi olan müəssisənin möhkəm dayanmasından dolayı innovativ iqtisadiyyatda aqrar sahənin modernləşdirilməsi əsas prinsip kimi qarşıya qoyuldu. Belə bir məqamda ölkədə aqroparkların yaradılması zərurəti yarandı və bu, əsas hədəf hesab olundu.

Hazırda Azərbaycanın 33 rayonunda 51 aqropark var. Yevlax və Sabirabaddakı aqroparklar dövlət, digərləri isə özəl təsərrüfatdır. Kiçik və orta sahibkarlar üçün nəzərdə tutulmuş Yevlax Pilot Aqroparkı 2021-ci ilin dekabrından fəaliyyət göstərir. Onun yaradılmasında məqsəd aqrar sahənin inkişafının sürətləndirilməsi, kənd təsərrüfatı məhsullarına olan tələbatın ödənilməsi, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və ixracyönümlü məhsulların istehsalının artırılmasıdır. Xüsusi qeyd edək ki, bu park Azərbaycanda kiçik və orta fermerlərin cəlb olunması ilə yaradılan aqroparkdır. Yevlax Pilot Aqroparkında sahibkarlıq fəaliyyətinin inkişafı üçün dövlət tərəfindən bir çox stimullaşdırıcı tədbirlər görülür və bu işlər ardıcıl olaraq davam etdirilir. Belə ki, dövlət vəsaiti hesabına aqroparkın xarici və daxili infrastruktur sistemi qurulur, rezidentlərə investisiya təşviqi sənədi verilir və bu vaxt vahid pəncərə sistemi tətbiq edilir. Onu da bildirək ki, pilot aqroparkda müasir aqrar-sənaye kompleksinin yaradılması klaster fəaliyyətinin qurulması hesabına həyata keçirilir.

Yevlax Pilot Aqroparkının ümumi ərazisi 2807 hektardır. Bunun 1147 hektarlıq hissəsini parsellərə bölünmüş sahələr, 1028 hektarını heyvanların yem təminatı sahəsi, 129 hektarını sosial zona təşkil edir. Aqroparkın 1147 hektarlıq sahəsi 20 hektarlıq parsellərə bölünməklə fermerlərin uzunmüddətli istifadəsinə verilib. Layihə çərçivəsində 1147 hektarlıq ərazinin 3 parselində (60 hektar) Dövlət Məşğulluq Agentliyi tərəfindən Yevlax, Goranboy rayonlarında və Mingəçevir şəhərində işaxtaran və işsiz şəxslərin, hər ailəyə 1 hektar olmaqla ümumilikdə 60 ailənin özünüməşğulluq proqramına cəlb edilməsi planlaşdırılır.

Artıq aqroparkın ilk rezidenti kimi qeydiyyata alınmış "İSFA" MMC tərəfindən aqroparkın ərazisində meyvə bağları, tinglik salınıb. Bu istiqamətdə işlərini davam etdirən şirkətin əkin sahəsinin 40 hektarını meyvə bağları, 10 hektarını tingçilik təsərrüfatı təşkil edir. Artıq 20 hekatarlıq parselin 4 hektarında tezyetişən gilas, 2 hektarında ərik, 6 hektarında nektarin və şaftalı, 1 hektarında alça ağacları, 5 hektarında isə 500 min tingin yetişdirilməsi üçün 500 min calaqaltı əkilib. Ərazidə tam avtomatik suvarma sistemi quraşdırılıb.

İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan aqroparka ümumilikdə 100 milyon manatdan çox özəl investisiyanın qoyulması, 500 daimi və 1000-dən artıq işçinin isə mövsümi işlərə cəlb edilməsi nəzərdə tutulur. İndiyədək ümumi ərazisi 1882 hektar olan 33 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Həmin rezidentlər ümumilikdə 51 milyon manatdan artıq investisiya qoymağı planlaşdırırlar. Təkcə keçən il 8 rezident tərəfindən 868 hektar sahədə əkin işləri aparılıb. Əkin sahələrinin 687 hektarı birillik əkinlər, 159 hektarı intensiv meyvə bağları, 12 hektarı tərəvəzçilik təsərrüfatı və 10 hektarı tingçilik təsərrüfatıdır. Aqropark tam gücü ilə fəaliyyətə başlayandan sonra istehsal olunacaq meyvəçilik məhsullarının böyük hissəsinin ixrac edilməsi nəzərdə tutulur.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## Davamlı inkişaf, möhtəşəm quruculuq, böyük Zəfər

# Sürətli səyahət



### Bakı-Ağstafa qatarı ilə ölkənin şərqindən qərbinə indi daha tez və rahat getmək olur

**Səhərdir...**
**Yağmurlu havada Bakı Dəmiryolu Vağzalına, qatara çatmağa tələsirik... Bu dəfə Bakıdan Ağstafaya gedən sürətli sərnişin qatarının sərnişinləriyik...**
**Məqsədimiz müasir qatarlarımızın hərəkətinə, sərnişinlərə göstərilən xidmətə və vətəndaşların bu nəqliyyat vasitəsindən necə yararlanmalarına şahidlik etməkdir.**
**Dördüncü vaqona yaxınlaşaraq biletimizi və şəxsiyyət vəsiqəmizi təqdim edirik. Qatar bələdçiləri oturacağımıza qədər bizi müşayiət edərək yerləşməyimizə kömək edirlər.**
**Deyirlər, dünyanın ən maraqlı səyahətlərindən biri dəmir relslər üzərində uzaq məsafələrə hərəkət zamanı olur. Elə bizim də, beləcə, sürət qatarı ilə maraqlı səyahətimiz başlayır...**

## Elektron tablo, sərnişinlərə xidmət, siniflər üzrə fərqli qiymət

Qatarın bütün sinifləri üzrə yerlər tam doludur. Adətən yağışlı havada ən təhlükəsiz nəqliyyat vasitəsi olaraq uzaq səfərlərə qatarla səyahəti seçənlərin sayı artır.

Yola düşərkən anons səslənir: Qatar saat 12:25-də Gəncədə olacaq. Ekranlarda da qatarın hərəkət cədvəli, sürəti, havanın temperaturu ilə bağlı məlumatlar yolboyunca əks olunur.

Qatar yola düşdükdən sonra bələdçi xanımlar sərnişinlərin yolboyu rahatlığının təmin olunması üçün adyal, boyunluq, tərlik və yuxu bandı verirlər. Ardınca isə sərnişinlərə su təklif olunur. Təbii ki, xidmətlər də bilet aldığınız siniflər üzrə fərqlənir.

Elə yeni rahatlaşmışdıq ki, artıq Biləcəri stansiyasına yaxınlaşdığımız barədə maşinistin anonsunu eşitdik. Bildirildi ki, stansiyada qatarın dayanma vaxtı 2 dəqiqədir.

Qatarda təklükəsizliyin təmin olunması üçün siqaret çəkmək və spirtli içki qəbul etmək qadağandır. Həmçinin hər qatarda bir polis əməkdaşı olur ki, o da yolboyu hər hansı problem yaranarsa, onun həllinə yardım göstərir, təhlükəsizliyin təmin olunmasına nəzarət edir.

Səyahət etdiyimiz qatara gəlincə isə o, İsveçrənin "Stadler Rail Group" şirkətinə məxsusdur. Ümumilikdə ADY-nin sərnişin hərəkət vasitələri parkında bu şirkətin istehsalı olan 9 ikimərtəbəli, 2 sistemli, 4 vaqonlu sürətli sərnişin qatarı mövcuddur. Qatarların maksimal sürət həddi 120 km/saata qədərdir. Regionlar üzrə sürətli sərnişin qatarları Bakı-Ağstafa-Bakı və Bakı-Qəbələ-Bakı istiqamətlərində hərəkət edir. Bakı-Ağstafa-Bakı istiqamətində "Stadler" qatarları ilə birdəfəyə 364 sərnişin rahat səfər edə bilir. Bu marşrut üzrə qatarların dolumluluq səviyyəsi 100 faizdir. Qatarlar standart, biznes və birinci sinif salonlardan ibarətdir. Qatarda standart sinif üçün 293 yer, biznes sinif üçün 61 yer və birinci sinif üçün 9 oturacaq mövcuddur. Fiziki məhdudiyyətli şəxslər üçün ayrıca yer də ayrılıb. Onların qatara minməsi, hərəkəti üçün hər cür şərait yaradılıb, həmçinin xüsusi ayrılmış sanitar qovşaq da var.

Ümumiyyətlə, biletlərin qiyməti gedəcəyiniz məsafədən və seçdiyiniz yerdən asılı olaraq dəyişir. Rayonlara standart yerdə səfər etdiyiniz halda gediş haqqı tarifləri məsafədən asılı olaraq 13-17 manat arasında, biznes sinfində 28-38 manat arasında, birinci sinfə daxil olan 9 yerdən birini seçəcəyiniz halda isə 87-114 manat arasında dəyişir. Uşaqlar üçün qiymətlər daha ucuzdur. Qeyd etdiyimiz tariflər Bakıdan müxtəlif rayonlara gedişin qiymətidir. Digər rayonların stansiyalarında mindiyiniz zaman isə bilet qiymətləri, təbii ki, məsafədən asılı olaraq müəyyənləşdirilir.













## "Qatar mənim ikinci evimdir"

Biləcəri stansiyasından uzaqlaşdıqdan sonra isə qatar briqadaları və iş üzrə təlimatçı İlhamə Bağırova ilə həmsöhbət oluruq.

11 ildir Azərbaycan Dəmir Yollarında çalışan İlhamə Bağırova həm də beynəlxalq daşımalarda fəaliyyət göstərib. Bələdçi kimi işə qəbul olunduqdan 6 ay sonra qatar rəisi vəzifəsinə keçirilib. İlk təcrübəsi isə Bakı-Xarkov qatarında olub: "Daha sonra Bakı-Moskva qatarında çalışdım. Pandemiya başlayandan sonra Azərbaycan Dəmir Yollarının sərnişindaşıma departamentinin istismar xidmətində mütəxəssis kimi fəaliyyətə başladım. 2023-cü il sentyabrın 1-dən isə qatar briqadaları üzrə mütəxəssis kimi çalışıram".

İ.Bağırova qeyd edir ki, hazırda istismar xidmətində 106 bələdçi fəaliyyət göstərir, onlardan 45-i "Stadler" tipli vaqonlarda, qalanı isə həm xidməti, həm ezamiyyə, həm də xüsusi xidməti vaqonlarda çalışırlar. İş prinsipləri isə qatarların hazırlanması, reyslərin göndərilməsi, bələdçilərin təlimatlandırılması, sərnişinlərin qatara qəbulu, yolda onlara xidmət göstərmək, təyinat stansiyasında sərnişinlərin qatardan düşürülməsinə nəzarət etməkdir.

Bir sözlə, qatara minəndən düşənə qədər yolboyu sizin köməkçiləriniz istismar xidmətinin gülərüzlü xanımları olurlar. Dördvaqonlu qatarda bizi ümumilikdə 4 bələdçi və bir briqadir müşayiət edirdi.

Birinci sinif sərnişinləri üçün çay-kofe limitsiz, yemək isə getdiyiniz saata uyğun olaraq verilir. Axşam isə çayın yanında sizə tort da təklif olunur. Biznes sinfində isə çay və ya kofe ilk dəfə ödənişsiz, növbəti dəfələrdə isə ödənişlə verilir. Bundan başqa, qatarda iki qida satış aparatı mövcuddur. Həmçinin səyyar xidmət də fəaliyyət göstərir. Həm nağd, həm də kartla istədiyiniz məhsulu əldə edə bilərsiz. Ümumilikdə, çay-kofe və yemək xidməti isə xüsusi ketrinq şirkəti tərəfindən həyata keçirilir. Qatarlar hamısı reysdən qayıtdıqdan dərhal sonra təmizlənir, dezinfeksiya olunur.

Qatarı ikinci evi hesab edən İlhamə Bağırova başına gələn ən maraqlı xatirəsini də bizimlə bölüşür: "Daim səfərlərdə olduğum üçün maraqlı hadisələrlə rastlaşıram. Amma 2016-cı ilin iyun ayında Bakı-Xarkov qatarında qarşılaşdığım hadisə möcüzə idi. Həmin vaxt bu haqda mediada da məlumatlar getmişdi. Qatarın 5-ci vaqonunun 5-ci oturacağında səfər edən hamilə qadının Volqoqrad stansiyasına az qalmış sancıları başladı. Doğuşda iştirak edərək uşağı dünyaya gətirdik. Qatarda heç istifadə olunmamış tibbi çantada sterilizə olunmuş ləvazimatlar var idi. Stansiyaya çatanda təcili yardım artıq bizi gözləyirdi".

İ.Bağırova qeyd edir ki, işçi heyətinə ilkin tibbi yardımla bağlı təlimlər keçirilir. Amma halı pisləşən şəxsə hər hansı dərman preparatı vermək qadağandır. Bundan başqa, onlara psixoloji təlimlər, davranış qaydaları, müştəri məmnuniyyəti və birbaşa qatarla bağlı texniki təlimlər də keçirilir.

Həm pandemiyadan öncə, həm də sonra reyslərdə olan, gecəsini-gündüzünü peşəsinə sərf edən İlhamə xanım deyir ki, bəzən sərnişinlərin aqressiyaları ilə üzləşirlər. Sərnişinlərlə bağlı əsas problem şəxsiyyət vəsiqəsini təqdim etməmələri ilə bağlı olur: "Vətəndaşlar deyirlər ki, bilet almışıqsa, şəxsiyyəti təsdiq edən sənədi göstərməyə nə ehtiyac var. Əslində, bu barədə həm onlayn, həm də kassadan bilet aldıqları zaman onlar təlimatlandırılırlar, həmçinin biletin arxa üzündə də bununla bağlı məlumat olur. Amma qatara minən sərnişinlər bu məsələ ilə bağlı narazılıq edəndə onları yenə də səbirlə dinləyib bunun vacibliyini bildiririk".

Qeyd edək ki, bu, bir qaydadır. Həm hava, həm də dəmir yolları ilə səfər etdikdə bileti aldığınız sənəd minik zamanı mütləq təqdim olunmalıdır.

## Gülərüz personalın bir günü

Sərnişinləri getdikləri ünvana sağ-salamat çatdıran qatarın maşinisti Bahadur Əhmədov 26 ildir bu sahədə çalışır. O, qrafik üzrə növbəli şəkildə Bakı-Ağstafa və Abşeron dairəvi dəmiryolu xətti üzrə reyslərdə çalışır.

Bahadur Əhmədov deyir ki, sərnişinlər qatara avtobus və minik avtomobillərindən daha təhlükəsiz nəqliyyat vasitəsi olduğu üçün üstünlük verirlər. Həm qatarın, həm də sərnişinlərin təhlükəsizliyinə maşinistlər cavabdehdirlər. Onlar yolda hər hansı problemlə üzləşdikdə cəld tədbir görmək üçün həmişə ayıq-sayıq olmalıdırlar. Xüsusən gecə reysləri daha çox diqqətli olmağı tələb edir.

B.Əhmədov bildirir ki, uzun yollarda texniki problemlər qaçılmazdır: "Bəzən işıqforlar işləmir və ya elektrik enerjisi olmur. Bu zaman istər-istəməz gecikmələr baş verir. Payız-qış mövsümündə hava şəraiti ilə bağlı ləngimələr ola bilər. Bu zaman məcburən qatarın sürəti aşağı endirilir. Bundan başqa, sürət həddi yaşayış yerlərinə yaxınlaşdıqda azaldılır və siqnal verilir. Yol keçidlərində, döngələrdə təlimat üzrə məcburi siqnallar verilir, digər yerlərdə də təhlükə hiss etdiyimiz və ya nəsə gördüyümüz zaman siqnal veririk".

Maşinist müasir sürət qatarlarının rahatlığından da söz açır. Görünür ki, bu qatarlar sərnişinlər üçün rahat olduğu qədər onlar üçün də qatarı idarə etmək baxımından çox asandır. Bununla belə, yeni sistemlə işləyən qatarların idarəsi üçün maşinistlərə 2-3 ay təlimlər keçirilir.

Üç aydır qatar briqadiri kimi çalışan Aysel Vəlixanova da Azərbaycan Dəmir Yollarında bələdçi kimi fəaliyyətə başlayıb. O dedi: "Yeddi ildir bu sahədəyəm. İş prinsipim bələdçi xanımlara nəzarət etməkdir. Qatarda bələdçi və sərnişinlər arasında baş verən anlaşılmazlıqlara aydınlıq gətirirəm. Əsas problemimiz vəsiqəsiz sərnişinlərlə bağlı yaranır. İstər onlayn, istərsə də kassadan bilet alan sərnişinlər bəzən qatara minik zamanı vəsiqəsiz olurlar".

Aysel Vəlixanova deyir ki, onların əsas şüarlarından biri budur: "Sərnişin daim haqlıdır".

Bələdçi kimi fəaliyyətə yeni başlayan Gülsüm Dadaşova isə bir ay Bakı-Sumqayıt-Bakı qatarında çalışdıqdan sonra Bakı-Ağstafa-Bakı qatarında fəaliyyətə başlayıb: "İşim əsasən sərnişinlərlə xoş rəftar edərək onların müraciətlərini nəzərə almaqdır. Sərnişinlər ən çox "siqaret çəkmək istəyirəm, qatar nə vaxt dayanacaq?", "nə vaxt çatırıq?" tipli suallar verirlər".

## Mənzilbaşına rahat və tez çatanların məmnuniyyəti

Qatarın bələdçi heyəti ilə söhbətləşdikdən sonra getdikləri ünvana çatmağa tələsən sərnişinlərin fikirlərini, sürət qatarı ilə bağlı təəssüratlarını öyrənirik. Birinci sinifdə səfər edən, Azərbaycanda qonaq olan pakistanlı Mehran Sadiq deyir ki, Bakıda dəfələrlə olsa da, bu dəfə dostlarının tövsiyəsi ilə Gəncəyə yollanmaq qərarına gəlib: "Doğrusu, səyahətimin belə rahat keçəcəyini düşünmürdüm. Bir çox Avropa ölkələrində şəhərlərarası qatarlardan istifadə etmişəm. Əminliklə deyə bilərəm ki, bu sürət qatarları onlardan heç də geri qalmır".

Biznes sinfində yer alanlar içərisində balaca sərnişin də var. Onun səsini eşidərək valideynlərinə yaxınlaşırıq. Sərnişinlər Orxan Muradov və həyat yoldaşı Gülsüm Muradova 7 aylıq qızları ilə Ağstafaya gedirlər. O.Muradov bildirir ki, sürət qatarından istifadə etmələrinin bir neçə səbəbi var: "Əslində, biz avtomobil və ya avtobusla da gedə bilərdik. Lakin körpə ilə uzun müddət oturaq vəziyyətdə getmək əlverişli deyil. Burada isə heç nəqliyyatda olduğumuzu hiss etmədən rahat hərəkət edirik".

Qatarla səfərə üstünlük verənlərdən biri də Türkan Quliyevadır. O deyir ki, qatarla səyahət rahat olmaqla yanaşı, nostalji hisslər yaşadır. Həm rahatlığını, həm də uşaqlığını xatırlamaq üçün o, qatarı seçir: "Uşaq olanda nənəmlə birlikdə rayona qatarla gedərdik. İndi isə baba ocağına tək gedirəm. Təbii ki, ozamankı qatarlarla indiki müasir qatarları müqayisə etmək mümkün deyil. Ölkəmiz gündən-günə inkişaf edir, müasirləşir. Sürət qatarlarının istifadəyə verilməsi də bunu bir daha göstərir".

## Səfərdən xoş xatirələr

Gəncəyə qədər qatarın pəncərələrindən təbiəti müşahidə edirik. Bakıdan uzaqlaşdıqca sakit, ağ buludların bəzədiyi mavi səma bizi qarşılayır. Gəncəyə doğru isə qatarın pəncərəsinə çilənmiş yağışın damcılarını günəşin şüaları qurudur. Gəncə vağzalına çatanda hava şaxtalı olsa da, günəşin istiliyi bizi isidir. Bununla yanaşı, isti qarşılanma da sərnişinlərə soyuğu unutdurur.

Gəncə Dəmiryol Vağzalının rəisi Turan Həmzəyev bizi vağzalda görülən işlərlə, qatarların fəaliyyəti ilə tanış edir. T.Həmzəyev hər gün qatar Gəncə stansiyasına yaxınlaşanda artıq perronda olur, ta ki 10 dəqiqəlik fasilədən sonra yola düşənə qədər. O, bütün işlərə nəzarət edir. Özü də vurğulayır ki, dəmir yollarının gündən-günə inkişafı çox qürurverici haldır və növbəti illərdə bu sahədə daha böyük inkişaf görəcəyik.

Qatarın Ağstafadan dönüşünə qədər isə biz şəhərin gəzməli-görməli yerlərinə baş çəkirik. Bu barədə danışmaqla bitməz...

Artıq platformaya tələsirik. Ayazlı havada bizi Günəşi ilə qarşılayan Gəncə stansiyasından xoş təəssürat və xatirələrlə ayrılıb qatara minirik.

Həmin heyət yenə gülərüzlə işinin başındadır. Sərnişinləri düşürüb və qəbul edirlər...

*Əsmər QARDAŞXANOVA,*
*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

*Bakı-Gəncə-Bakı*
















# Azərbaycan Respublikasının Milli Məclisində yaradılmış Korsika Xalqına Dəstək Qrupunun bəyanatı

2024-cü ilin 28 yanvar tarixində Korsikada 700-ə yaxın insan müstəqillik uğrunda mübarizə aparan strukturları və fəalları birləşdirən, Fransa müstəmləkə hökmranlığına qarşı mübarizəyə sadiqliyini təsdiqləyən yeni bir "Nazione" hərəkatını təsis etmişdir.

Başqa ölkələrin daxili işlərinə kobud müdaxilələr etməyə çalışan, kağız üzərində demokratiya adlanan Makron diktaturasının polisləri Korsikada insanların azad şəkildə fikirlərini ifadə etmək hüququna hörmət etməyərək, hərəkatın yaranmasından iki gün sonra "Nazione"nin fəallarına qarşı təqiblərə başlamışdır.

Yanvarın 30-da "Nazione"-nin iki fəalı Fransa Milli Terrorla Mübarizə Prokurorluğunun göstərişi ilə həbs edilərək əvvəlcə Borgu hərbi düşərgəsinə, oradan isə terrorçu kimi Parisə aparılıb. Fransa polisi "Nazione"nin fəallarının evlərinə hücum edərək, qapıları partlayıcılarla dağıdıb, uşaqlarının gözü önündə atalarına fiziki zor tətbiq edilib, evləri darmadağın edilib, uşaqların gözü qarşısında onların oyuncaqları qəsdən sındırılıb. Bundan sonra həbs edilənlərin ailə üzvləri, eləcə də digər bir fəal dindirilmək üçün polisə aparılıb.

Özünü insan hüquqlarının vətəni kimi təqdim edən bir ölkə üçün içərisində azyaşlı uşaqların olduğu evin qapısının partlayıcı maddə ilə partladılması riyakarlıqdır. Bu zorakılıqlar Fransanın hələ də müstəmləkəçi təfəkküründən xilas olmadığını, hazırkı koloniyalarında insanların təməl hüquqlarına hörmət etmədiyini bir daha sübut edir.

Bu gün də Fransada polisin qanunsuz təqibləri davam edir və Korsika xalqını qorxutmaq, müstəqillik tərəfdarlarını susdurmaq məqsədi daşıyır. Lakin 2 fevral tarixində "Nazione" hərəkatının rəhbərlərinin keçirdiyi mətbuat konfransında bəyan edildi ki, heç bir repressiya Korsika xalqının milli mübarizəsini susdura, boyun əyməyə məcbur edə bilməz.

150 mindən artıq insanın danışdığı Korsika dilini məhv etmək siyasəti yürütməklə Korsika xalqının milli kimliyini unutdurmağa çalışan Fransa hökuməti yerli parlamentdə müzakirələr, parlament üzvlərinin debatları zamanı korsika dilindən istifadəni qadağan edib.

Bu siyasət universal insan haqları və milli azlıqların hüquqları ilə bağlı Fransanın beynəlxalq öhdəliklərinin açıq-aşkar və güc tətbiqi ilə pozulmasıdır. Fransa ərazisində yaşayan xalqların milli kimliyini inkar edir, yalnız "fransız" anlayışını qəbul edir ki, bu özü şovinizmdir.

Fransa Korsikada yerli dildən istifadə hüququnu ləğv etməklə özünün də qoşulduğu beynəlxalq sənədlərin tələblərini, götürdüyü öhdəlikləri pozub. Bu sənədlər içərisində 1789-cu il böyük Fransa inqilabının fərdi insan hüquqlarını təyin edən ən vacib sənədi olan "İnsan və vətəndaş hüquqları bəyannaməsi" də vardır. Həmçinin "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt", "Uşaq hüquqları Konvensiyası", "İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası", "Əsas hüquqlar üzrə Avropa Xartiyası", "Dilçilik Hüquqlarının Ümumdünya Bəyannaməsi", UNESCO-nun mədəni müxtəlifliyə dair universal Bəyannaməsi, UNESCO-nun Mədəni İfadə Müxtəlifliyinin Qorunması və Təşviqi üzrə Konvensiyası, "Regional və ya Azlıqların Dilləri üçün Avropa Xartiyası" və s. bura daxildir.

Azərbaycan Respublikasının Milli Məclisində yaradılmış Korsika Xalqına Dəstək Qrupu olaraq:

- Fransa hüquq-mühafizə orqanlarının Korsikada müstəqillik tərəfdarlarına qarşı apardığı qeyri-qanuni hərəkətlərini qətiyyətlə pisləyirik;
- Fransa hakimiyyətindən fundamental insan hüquqlarına hörmət etməyi tələb edirik;
- Korsika xalqının sərbəst toplaşmaq azadlığı, birləşmək hüququ Fransa hökuməti tərəfindən təmin edilməlidir;
- Bütün saxlanılanların dərhal sərbəst buraxılmasını və siyasi təqiblərin dayandırılmasını tələb edirik.

# Korsikalılar Fransa polisinin dinc fəallara qarşı repressiyasına etiraz edirlər

**Bütün çətinliklərə baxmayaraq, korsikalılar ölkələrinin azadlığı uğrunda mübarizəni əzmlə davam etdirirlər. Ölkədə yeni yaranan "Nazione" Partiyası elə ilk gündən 600-dən çox fəalı bir araya gətirib. Partiyanın ilk gündən belə uğur qazanması fransız hökumətinin qəzəbi ilə üzləşib. Fransa hökuməti siyasi partiyanın bu uğurunu həzm edə bilməyib və bunu fəalların evlərinə hücum edərək, repressiya ilə göstəriblər.**



Yeni partiyanın assambleyasının ilk iclasından iki gün sonra fransız polisinin çox qəddar və amansız repressiyasına etiraz olaraq, "Nazione" Partiyası Bastiada mətbuat konfransı keçirib.

AZƏRTAC xəbər verir ki, konfransda partiyanın üzvləri və sözçüsü çıxış edərək, son günlər fransız polisinin törətdiyi repressiyanı qətiyyətlə pisləyiblər. Polisin həbs etdiyi və Parisə göndərdiyi "Nazione"nin iki fəalının dərhal azad olunmasını tələb ediblər. Həmçinin daxili işlər naziri J. Darmaninin Korsikaya səfəri zamanı bütün korsikalıları etiraz nümayişinə çağırıblar.

"Nazione" Partiyasının baş assambleyasının ilk iclasından cəmi iki gün sonra Fransa dövləti bu yeni siyasi təşəbbüsün uğuruna yenə də repressiya dalğası ilə cavab verdi, iki fəalımız və milli koordinasiyamızın üzvləri Anto Simoni və Nikolas Pinzuti həbs etdi.

Milli Terrorla Mübarizə Prokurorluğunun (PNAT) göstərişi ilə həyata keçirilən bu alçaq polis əməliyyatı fəallarımız və onların ailələrinə qarşı qəsdən təcavüz törətmək istəyini açıq şəkildə əks etdirir. Belə ki, onların evlərinə hücum edilərək, qapıları partlayıcılarla dağıdılıb, uşaqlarının gözü önündə ataları yerə yıxılaraq həbs olunub, evləri darmadağın edilib, uşaqların gözü qarşısında onların oyuncaqları qəsdən sındırılıb, siyasi və peşə öhdəliklərində vicdanlı və hörmətli olan iki fəal arbitrar şəkildə Parisə göndərilib.

Bu gün "Nazione" dinc insanlara qarşı ən pis avtoritar rejimlərə layiq olan bu acınacaqlı və qəbuledilməz təcrübələri pisləyir", - deyə partiya üzvləri yerli və xarici mətbuat qarşısında bəyan ediblər.

Bildirilib ki, onların fəallarının yeri Korsika torpağında ailələri arasında, iş yerlərində və ölkələrini yaşatmaq uğrunda apardıqları mübarizə meydanındadır. Onların azadlığa buraxılması tələb olunur.

"Milli azadlıq hərəkatına qarşı bu yeni təcavüzün yeganə məqsədi "Nazione"nin yaradılması ilə meydana gələn böyük xalq hərəkatını dayandırmağa və onun siyasi iradəsini susdurmağa çalışmaqdır.

Fransanın siyasi liderləri və Korsikadakı bəzi siyasətçilər bu çağırışlar üçün hər hansı siyasi motivi bir daha güc amilinə söykənərək rədd edəcəklər. Bir daha bəyan edirik ki, "Korsika işləri" ilə bağlı siyasi və məhkəmə hakimiyyətlərinin müstəqil olmasını söyləmək bir "əfsanədir" və çərşənbə axşamı günü həbslər siyasi ədliyyənin əmri ilə siyasi polis tərəfindən həyata keçirilib.

Həqiqətən də proses indi məlumdur və çox kobud formaya çevrilib: müstəqillik hərəkatının hər bir təşəbbüsünə mexaniki şəkildə repressiya ilə cavab verilir.

Bu repressiv əməliyyatların gələn həftə daxili işlər naziri J.Darmaninin gəlişinin elan olunması ilə üst-üstə düşməsi də təsadüfi deyil. Fransız polisinin bu addımı Korsikanın müstəqilliyi uğrunda mübarizə aparan yeganə siyasi cərəyanı neytrallaşdırmaq siyasətinin bir hissəsidir. Bizim siyasi mübarizəmiz Korsika və korsikalıların maraqlarının qətiyyətli müdafiəsinə əsaslanır", - deyə siyasi partiyanın sözçüsü vurğulayıb.

Qeyd edilib ki, yüzlərlə "Nazione" fəalı partiyanın siyasi cərəyanının ümumi istiqamətinə dair keçirilmiş səsvermədə partiyanın siyasi hərəkatının hər zaman ölkədə real siyasi həllin və real sülhün lehinə əsas aktor olduğunu bir daha təsdiqləyib. Bununla belə, sülh gətirən siyasi həll yolunun axtarışı heç vaxt Korsika xalqının gələcəyi üçün əsas olan bütün tələblərdən imtina etmək demək deyil.

"Heç vaxt repressiya milli mübarizəmizi nə susdura, nə də boyun əyməyə məcbur edə bilməz. "Nazione" yaxın günlərdə siyasətimizlə razılaşan bütün korsikalıları bir araya gətirərək siyasi layihəsini populyarlaşdırmağa davam edəcək", - deyə partiya üzvləri yaxın günlərdə fəaliyyətlərini daha da intensivləşdirəcəklərini diqqətə çatdırıblar.

Konfransın sonunda "Nazione" fəalları gələn həftə daxili işlər naziri J.Darmaninin Korsikaya səfərinə görə "Korsika xalqının hüquqları uğrunda! Repressiyaya son! Yaşasın millət!" şüarları ilə etiraz nümayişinə çağırış ediblər.

Sonda partiya üzvləri 18 maskalı fransız polisinin "Nazione"nin fəallarının evinə basqın etməsinin bir daha qəbuledilməz olduğunu bildiriblər. Bunun repressiyanın son həddi olduğunu deyərək, özünü hüquqi dövlət və insan hüquqları beşiyi hesab edən Fransanın, əslində, demokratik deyil, diktaturayönlü olduğunu diqqətə çatdırıblar. Qeyd ediblər ki, belə vəziyyət yalnız avtoritar rejimdə mümkündür. Ancaq bütün bu repressiyalar korsikalıların iradəsini sındıra bilməyəcək və onlar azadlıqları uğrunda mübarizəni əzmlə davam etdirəcəklər.

# *Petru Antone TOMASİ:* "Korsika xalqının və onun hüquqlarının tanınmasını tələb edəcəyik"

**"Bu gün Fransa polisinin iki fəalımıza və onların ailələrinə qarşı törətdiyi zorakılığa cavab olaraq buradayıq. Bu fəallar siyasi və peşə fəaliyyətlərində vicdanlı və hörmətli şəxslərdir. Polisin rəzil və qəbuledilməz əməllərinə etirazımızı bildirmək üçün mətbuat konfransı keçirdik".**




Bu fikirləri AZƏRTAC-a müsahibəsində "Corsica Libera" partiyasının sabiq sözçüsü Petru Antone Tomasi səsləndirib.

O bildirib ki, polisin "Nazione" siyasi partiyası fəallarına qarşı həyata keçirdiyi repressiya bu siyasi hərəkat yaranandan iki gün sonra və daxili işlər naziri Jerald Darmaninin Korsikaya səfərindən bir neçə gün əvvəl baş verib. "Fransa hökumətinin hər hansı bir üzvünün səfərindən bir neçə gün əvvəl və ya müstəqillik tərəfdarlarının təşəbbüslərindən sonra polisin belə zorakılıqlar törətməsi sistemli hal alıb. Bu onu göstərir ki, Fransada hakimiyyət bölgüsü mifdir və hər şey dövlətin əlindədir. Fransa dövlətinin əmri ilə polis "Nazione" siyasi cərəyanını neytrallaşdırmaq istəyir. "Nazione" bu gün Parisin həyata keçirdiyi strategiyaya qarşıdır", - deyə Petru Antone Tomasi qeyd edib.

Diqqətə çatdırılıb ki, ötən həftə yeni yaranmış "Nazione" partiyasının ümumi yığıncağında bəyan edildiyi kimi, onlar ölkədə fəaliyyətlərini genişləndirəcəklər və J.Darmaninin səfəri zamanı etiraz aksiyası üçün səfərbər olacaqlar. İlk növbədə repressiyanın əleyhinə olduqlarını deyəcək, Korsika xalqının və onun hüquqlarının tanınmasını tələb edəcəklər.

## 5 Fevral Kəşmirlə Həmrəylik Günüdür

# Onların hüquqları təmin olunmalıdır

**Kəşmir dünyanın cənnətməkan guşələrindən biridir desək, yanılmarıq. Himalay dağlarının ətəyində yerləşən bu əyalət 222.236 km² əraziyə malikdir və Hindistan, Pakistan, Çin və Əfqanıstanla əhatə olunub. Onun ərazisinin bir hissəsi olan Kəşmir vadisi fauna-florasının zənginliyi ilə seçilir.**




"Yer üzündə cənnət" adlanan onun sakit, mənzərəli və füsunkar gözəlliyi əsrlərboyu həm fatehləri, zəngin adamları, şahzadələri, həm də yoxsulları eyni cür ovsunlayıb. Bu gün Bollivud özünün ən gözəl filmlərini ilhaq edilmiş Kəşmir ərazisində çəksə də Hindistanın beynəlxalq hüquq normalarına zidd siyasəti nəticəsində orada yaşayan xalqın tarixi iztirab və kədərlə doludur. Onun həyatı yoxsulluq və zülm dastanı olaraq qalır. Bu problemi Pakistanın "qanı axan yarası" da adlandırmaq olar.

Bu region Hindistan və Pakistanın milli ideologiyalarının sınaqdan keçirildiyi bir döyüş meydanıdır. Kəşmir həm də strateji mövqeyinə görə hər iki ölkə üçün böyük əhəmiyyət kəsb edir.

Pakistan üçün Kəşmir məsələsi ərazi məsələsi deyil, 13 milyondan çox kəşmirlini əhatə edən humanitar məsələdir. BMT-nin gündəmində ən qədim məsələ olan Kəşmir problemi başa çatmamış yarımçıq olaraq qalmaqdadır.

1947-ci ildə müstəqillik əldə edərkən bu əyalətlərin hökmdarlarına o zaman öz xalqının istəklərini və həmçinin əyalətlərin coğrafi mövqeyini nəzərə alaraq Hindistan və ya Pakistana qoşulmağı tövsiyə edildi. Kəşmir müsəlmanlarının Pakistana qoşulmasının iki əsas səbəbi vardı. Əvvəla, müsəlmanların sayca üstünlüyü (ştatın əhalisinin 80 faizi) və ikincisi, əyalətin coğrafi baxımdan Pakistana yaxınlığı. Bununla belə, Hindistan liderlərinin əyalətin qeyri-müsəlman hökmdarını Hindistana qoşulmağa məcbur etdikləri iddia edilir.

Kəşmir vaxtilə Hindistan yarımadasında şahzadələrin idarə etdiyi 584 əyalətdən biri idi. Onun 4 milyonluq əhalisinin 3 milyonu müsəlmanlardan ibarət idi. Kəşmir əhalisinin əksəriyyəti 1947-ci ildə Hindistan iki yerə bölünən zaman Pakistana birləşməyin tərəfdarı olsa da, Cammu və Kəşmir knyazlığının hakimi, etiqadca indus olan maharaca Hari Sinqh müstəqilliyin elan olunduğu vaxt bu knyazlığın iki dominiondan hansının tərkibinə daxil olacağını hələ qəti şəkildə müəyyən edə bilməmişdi. Əhali arasında rəy sorğusu isə məsələni Pakistanın xeyrinə həll edə bilərdi. Ona görə də maharaca ümumi rəy sorğusu keçirməkdən imtina etdi və Cammu və Kəşmirin Hindistana birəşməsi haqqında qərar verdi. Çox güman ki, bu məsələdə Hindistanın ilk baş naziri Cəvahirləl Nehrunun ailəsinin Kəşmir brahmanları kastasına mənsub olması amili də mühüm rol oynamışdı.

Beləliklə, Kəşmir 26 oktyabr 1947-ci il tarixli Qoşulma sazişi ilə Hindistana birləşdirildi. Belə bir şəraitdə Pakistan Kəşmirin yalnız şimal ərazilərini ələ keçirə bildi. Kəşmirin bir sıra rayonlarında maharaca hakimiyyəti əleyhinə üsyanlar alovlandı. Sentyabrın 3-də ilk sərhəd münaqişəsi baş verdi. Oktyabrın 24-də knyazlığın qərbindəki Punç ərazisi Dehli tərəfindən ilhaq edilmiş Kəşmirdən ayrılmaq şüarı ilə çıxış etdi və bu ərazi Pakistan tərəfindən tutuldu. Üsyan qaldırmış Kəşmir müsəlmanları əyalətin çox hissəsini azad etdilər və orada Azad (Azad) Cammu və Kəşmir hökumətini qurdular. Kəşmir Müsəlman Konfransı təşkilatı knyazlığın azad edilmiş ərazisində "Azad Kəşmir" dövlətinin yarandığını elan etdi.

Hindistan əsgərləri və silahlı ekstremist indus qruplaşmaları iki ay ərzində Cammu bölgəsində 300 mindən çox dinc müsəlman əhalisini Pakistana qoşulmaq istəklərinə görə qətlə yetirdilər. Belə bir şəraitdə Hindistan BMT-dən ərazinin geri alınmasına kömək etməsini istədi. Lakin BMT Kəşmirin qaytarılması barədə Hindistanın iddiasını rədd etdi və kəşmirlilərin öz müqəddəratını təyinetmə hüququnu dəstəkləyən qətnamələr qəbul etdi.

Hindistan və Pakistan hökumətləri BMT-nin Hindistan və Pakistan üzrə Komissiyasının 13 avqust 1948-ci il və 5 yanvar 1949-cu il tarixli qətnamələrinin şərtlərini artıq qəbul etdiklərini və yenidən özlərinin belə bir istəklərini təsdiq etmişlər ki, Cammu və Kəşmir əyalətinin gələcəyinə BMT-nin himayəsi altında keçirilən azad və ədalətli plebisit əsasında demokratik şəkildə qərar verilməlidir.

BMT-nin 122 saylı 24 yanvar 1957-ci il tarixli qərarında deyilirdi ki, "Cammu və Kəşmir əyalətinin yekun ərazi quruluşu BMT-nin himayəsi altında keçirilən azad və qərəzsiz plebisit vasitəsilə demokratik şəkildə ifadə edilən xalqın istəklərinə uyğun olaraq müəyyən ediləcək".

Bu məqsədlə Hindistan Kəşmirdə plebisit keçirməyə razılaşdı və onun rəhbərləri ən azı 40 dəfə bu məsələ ilə bağlı öhdəlik götürdülər. Lakin hadisələrin gedişatı göstərdi ki, onlar, sadəcə olaraq, vaxt udmaq istəyirdilər və referendum keçirmək istəyində səmimi deyildilər.

Lakin Hindistana təzyiq olandan sonra onun rəhbərləri Kəşmir məsələsi ilə bağlı danışıqlara başladılar və tezliklə məlum oldu ki, onlar vaxtı uzatmaq taktikası yeridirlər. Nəticədə Pakistan və Hindistan bu problem üstündə üç müharibə aparmalı oldular və hər müharibənin nəticəsində Hindistan tərəfi problemi həll edəcəyinə söz verdi, lakin sözünə əməl etmədi.

BMT-nin Kəşmirlə bağlı qətnamələrinin yerinə yetirilməsinin xeyli ləngiməsi, ştatda keçirilən çoxsaylı saxta, gülünc seçkilər və 1980-ci illərdə dünyanı bürümüş demokratiya dalğası Hindistanın işğalı altında olan Kəşmir xalqını küçələrə çıxmağa, öz müqəddəratını təyin etmək hüququ uğrunda mübarizəyə təşviq etməyə məcbur etdi. Hindistan yerli müsəlman əhalisinin azadlıq hərəkatını güc yolu ilə yatırmağa çalışdı və kəşmirlilər silaha sarılmağa məcbur oldular. Kəşmirlilərin azadlıqsevər ruhunu öldürmək üçün Hindistan, xüsusi olaraq Kəşmir üçün hazırlanmış və qəbul edilmiş amansız qanunlar altında tam silahlanmış və qeyri-məhdud səlahiyyətlərə malik 7 yüz mindən çox əsgərini əyalətdə yerləşdirdi, bu da onlarla birlikdə bu əyalətə fəlakət, dağıntılar, göz yaşları gətirdi. Bədbəxt kəşmirlilərə edilən vəhşiliklər "Amnesty International", "Human Rights Watch" və başqaları kimi beynəlxalq insan haqları təşkilatları tərəfindən yazılı şəkildə sənədləşdirilib.

Kəşmir məsələsi Hindistan və Pakistan arasında bir neçə dəfə müzakirə olunub. 1972-ci il iyulun 2-də İndra Qandi və Zülfiqar Əli Bhutto tərəfindən Simla müqaviləsi imzalandı. Lakin Hindistan ötən dövr ərzində bu məsələnin həlli üçün heç bir iş görməyib və Pakistanın bu məsələ ilə bağlı verdiyi bütün təkliflərdən imtina edib. Bundan əlavə, bu saziş nə Kəşmirin mübahisəli statusunu dəyişdirir, nə də BMT-nin rolunu aradan qaldırır. Belə ki, sazişin birinci bəndi - tərəflər arasında münasibətləri BMT Nizamnaməsi ilə tənzimlədiyini bildirir, BMT-ni sülh prosesindən kənarlaşdırmır, Kəşmir məsələsini iki xalq arasında mübahisə və münaqişənin əsas səbəbi hesab edir. Yeddinci bənd Kəşmir mübahisəsini həll olunmamış problemlərdən biri hesab edir.

Xüsusilə vurğulamaq lazımdır ki, BMT Nizamnaməsinin 34 və 35-ci maddələri - hər hansı ikitərəfli razılaşmalardan asılı olmayaraq, Təhlükəsizlik Şurasına istənilən mübahisəyə baxmaq səlahiyyəti verir. Həmçinin 103-cü maddəyə görə, Nizamnamə qarşısında öhdəliklər ikitərəfli müqavilələr üzrə öhdəliklərindən üstündür. Hal-hazırda bu problem BMT-nin gündəmindədir. BMT Qüvvələri Müşahidəçi Qrupunun Hindistan və Pakistanda olması da BMT-nin bu mübahisənin həllində iştirakını təsdiqləyir.

Bu gün tərəqqipərvər bəşəriyyətin tələbi budur ki, hətta BMT Təhlükəsizlik Şurasında daimi üzvlük yeri axtarmaqdan çəkinməyən Hindistan BMT TŞ-nin Kəşmirlə bağlı qəbul etdiyi bütün qətnamələri nəzərə almalı və qeyd-şərtsiz onlara əməl etməlidir. Eyni şəkildə beynəlxalq ictimaiyyəti belə bir ciddi sual düşündürür: Əgər BMT-nin İraq, Kosovo və Şərqi Timorla bağlı qətnamələri icra oluna bilirsə, Kəşmirlə bağlı qətnamə niyə icra oluna bilmir?

Hərbi münaqişələrdən sonra müvəqqəti atəşkəs nəticəsində Cammu və Kəşmirin 45 faizi Hindistanın, 35 faizi isə Pakistanın nəzarətində qalıb. Bölgənin şərqindəki 20 faiz qonşu Çinə verildi. Hindistan hökuməti referenduma qarşı mövqe nümayiş etdirsə də, Pakistan BMT Təhlükəsizlik Şurasının qərarlarının həyata keçirilməsini istəyir. Göründüyü kimi, rəsmi İslamabadın mövqeyi beynəlxalq qanunlara, haqqa, ədalətə söykənir.

Hindistanla sərhəd mübahisəsi olan Çin 1956-1962-ci illər arasında Kəşmirin şərqindəki Aksay-Çin yaylasını ələ keçirərək Kəşmir məsələsinə qarışdı. Pekin rəhbərliyinin Kəşmir məsələsində Pakistanın tərəfini tutması və Pakistanın Kəşmirdə dar bir bölgəni Çinə verməsi iki ölkə arasında yaxınlaşmanı gücləndirdi. Çinin Himalay bölgəsindəki sərhəd mübahisəsini müharibə ilə həll etmək cəhdini nəzərə alan Hindistan Kəşmir siyasətini sərtləşdirib və bölgədə hərbi gücünü artırıb.

1972-ci ildə imzalanan Simla sazişi ilə müəyyən edilən Nəzarət xətti ilə Kəşmirdə Hindistan və Pakistanın nəzarətində olan bölgələr ayrıldı. Bu, BMT müşahidəçiləri tərəfindən 1971-ci ilin dekabrında qoyulmuş "Nəzarət xəttinə" hörmət edilməsini, problemləri isə yalnız ikitərəfli əsasda danışıqlar yolu ilə həll etməyi nəzərdə tuturdu. Bu xətti həm də Asiyanın "Berlin divarı" adlandırırlar. "Nəzarət xətti" hüquqi cəhətdən tanınan beynəlxalq sərhəd deyil, yalnız de-fakto sərhəddir. Əvvəldən "atəşkəs xətti" kimi tanınan bu xətt 1972-ci ildə Simla sazişindən sonra "Nəzarət xətti" adlanır. Hindistan tərəfi bu xətt boyunca minlərlə günahsız insanın ölümünə və şikəst olmasına gətirib çıxaran saysız-hesabsız mina basdırmışdır.

Pakistan 1989-cu ildə dünya ictimaiyyətinin diqqətini Kəşmir məsələsinə cəlb etmək üçün fevralın 5-ni Kəşmirlə Həmrəylik Günü elan etdi. Bu tədbirin məqsədi Hindistanın Cammu və Kəşmir administrasiyası altında olan Kəşmir xalqı ilə həmrəylik nümayiş etdirmək, onların öz müqəddəratını təyinetmə hüququ uğrunda mübarizəsini dəstəkləmək və regionda münaqişələrdə həyatını itirən mübarizləri və mülki insanları yad etməkdir.

1999-cu il fevralın 21-də Pakistanın baş naziri Nəvaz Şərif və Hindistanın baş naziri Atal Bihari Vacpayi arasında Lahor Bəyannaməsi imzalandı. Lakin az keçmədi ki, 1999-cu ilin may-iyun aylarında Hindistan və Pakistan vadidə yerləşən Kargil yüksəkliklərində məhdud müharibə aparan zaman Kəşmir yenidən beynəlxalq diqqət mərkəzinə düşdü. 2001-2002-ci illərdə böhranlı vəziyyət yaşandı.

Kəşmir problemi təkcə iki dövlətin təhlükəsizliyinə deyil, bütövlükdə Cənubi Asiya regionunda sabitliyə birbaşa təsir göstərir. Gərginliyin qalması və qarşılıqlı etimadsızlıq Cənubi Asiyanın iki başlıca dövləti arasında yeni silahlı münaqişənin yaranması üçün zəmin yaradır.

Bu gün Kəşmir probleminin ədalətli həlli məsələsində azadlıqsevər Azərbaycan xalqı da dost, qardaş Pakistan xalqının yanındadır. Azərbaycan ictimaiyyəti Kəşmir əhalisinin öz kimliyi, öz müqəddəratını təyin etmək uğrunda apardığı ardıcıl və inamlı, barışmaz mübarizəsini dəstəkləyir. Həmrəylik günü ilə əlaqədar Azərbaycan, Türkiyə və Pakistanın diaspor təşkilatları birgə tədbirlər keçirirlər. Ümumiyyətlə, irqindən və dinindən asılı olmayaraq, bütün insanlar beynəlxalq təşkilatlara müraciət edərək Kəşmir xalqının BMT qətnamələrinə uyğun hüquqlarının təmin olunmasını tələb etməlidirlər. Yalnız Kəşmir probleminin ədalətli həlli Cənubi Asiyada möhkəm sülhün bərqərar olmasına, Hindistan ilə Pakistan arasında mehriban qonşuluq və dostluq münasibətlərinin yaranmasına gətirib çıxara bilər.

***Atamoğlan MƏMMƏDLİ,***
***BDU-nun dosenti***

# 7 FEVRAL PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR

## Qalib xalq Zəfər seçkilərinə inamla gedir

### ABŞ şirkətinin keçirdiyi sosioloji sorğunun nəticəsi bunu bir daha təsdiqləyir

**Fevralın 7-də Azərbaycan xalqı müstəqillik tarixində ilk dəfə olaraq qalib xalqın qalib vətəndaşı kimi prezident seçkilərində iştirak edəcək. Xalq Zəfər Seçkiləri adlandırılan bu seçkilərdə layiqli namizədə etimad mandatı verərək onu özünə lider seçəcək.**

Ən mühüm məqam isə odur ki, illərdən sonra Ağdərədə, Kəlbəcərdə, Laçında, Şuşada, Ağdamda, Füzulidə, Qubadlıda, Zəngilanda, Cəbrayılda, Xocavənddə, Xocalıda, Xankəndidə - yəni Qarabağ və Şərqi Zəngəzurda Zəfər seçkilərinin qüruru yaşanacaq.

Əlbəttə ki, suverenliyimizin təmin edilməsi kimi tarixi şəraitdə ilk dəfə məhz prezident seçkiləri keçirilməsinin özünün də böyük rəmzi mənası var. Bu baxımdan, seçkilərin keçiriləcəyi 7 fevral təqvimi şanlı salnamələrimizə tarixi gün kimi yazılacaq. Çünki Azərbaycan xalqı müstəqillik həyatında ilk dəfə olaraq bu seçkilərə - ərazi bütövlüyümüzün tam bərpası fonunda gedəcək. Bu seçkilərin işğaldan azad edilmiş yurdlarımızda keçirilməsi isə bir ayrı milli qürurumuzdur.

Artıq seçkiyə sayılı günlər qalır. Bütün ölkə üzrə, habelə Qarabağ və Şərqi Zəngəzurda seçki prosesinin tam şəffaf və demokratik şəraitdə keçməsi üçün seçki məntəqələri lazımi texniki vasitə və metodiki vəsaitlərlə, yanğın təhlükəsizliyi, fasiləsiz rabitə və elektrik enerjisi ilə təchiz olunub. Vətəndaşların seçimlərini sərbəst şəkildə etmələri üçün səsvermə kabinələri quraşdırılıb, məntəqələrə seçki qutuları və lazımi inventar avadanlıqlar paylanılıb, seçici siyahıları və məlumat lövhələri asılıb. Seçki məntəqələrinə mürəkkəb və ultrabənövşəyi lampalar və digər zəruri vəsaitlər gətirilib. Komissiyaların katibi və üzvləri, habelə seçkini izləyəcək müşahidəçilər üçün yerlər müəyyənləşdirilib.



Bütün seçkilərdə olduğu kimi, budəfəki prezident seçkiləri ərəfəsində də ölkədə sosioloji sorğu keçirilib. ABŞ-nin "Oracle Advisory Group" təşkilatı və "Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası"nın (VƏHML) birgə keçirdiyi sorğunun əsas məqsədi prezident seçkiləri ərəfəsində əhalinin səsverməyə hazırlığı və onların ölkənin siyasi həyatında iştirak səviyyəsinin, seçkilərlə bağlı ictimai rəyin öyrənilməsi olub.

Sorğuya ümumilikdə Azərbaycanın müxtəlif rayonlarından 3000 nəfər respondent cəlb edilib. Bunlardan 24,1 faizi Bakı şəhərindən, 8,3 faizi digər böyük şəhərlərdən, 21,3 faizi kiçik şəhər və qəsəbələrdən, qalanları isə (46,3 faizi ) kəndlərdən olub. Sorğuda iştirak edənlərin 49,3 faizini (1479 nəfəri) qadınlar, 50,7 faizini (1521 nəfəri) kişilər təşkil edib. Sorğu ölkə əhalisinin yaş statistikası nəzərə alınaraq aparılıb və respondentlərin 36,2 faizi 18-34 yaşarası, 39 faizi 30-54 yaşarası, 24 faizi 55 və daha çox yaşda olan insanlar olublar.

Sosioloji sorğu vərəqindəki suallar "Əhalinin prezident seçkiləri ilə bağlı məlumatlılıq səviyyəsi", "Ölkənin hazırkı vəziyyətinə münasibət", "Əhalinin siyasi fəallıq səviyyəsi", "Ermənistan-Azərbaycan münaqişəsi", "Vətən müharibəsinə dəstək" kimi qruplaşdırılıb. Respondentlərin 34,9 faizi "Əvvəllər Azərbaycanda keçirilən prezident seçkilərində iştirak etmisiniz sualına "Demək olar ki, hər zaman" variantını seçib. Daha 28,4 faizi "Hər zaman", 11,1 faizi isə "Çox vaxt" cavabı verib. Bu isə əhalinin seçkilərdə fəallığının göstəricisidir.

"Azərbaycanın getdiyi yolun ümumi istiqamətini necə qiymətləndirirsiniz?" sualına seçicilərin 81,2 faizi "düzgün istiqamət", 12,3 faizi isə "yanlış istiqamət" cavabını veriblər.

Bundan əlavə, seçicilər Azərbaycanı yaşamaq üçün təhlükəsiz ölkə olduğunu hesab edirlər. Belə ki, "Azərbaycanın digər qeyri-sabit ölkələrdən fərqli olaraq, regionda ən sabit ölkə olması ilə razısınızmı" sualına, sorğuda iştirak edənlərin 85,4 faizi "bəli" cavabını veriblər.

Nəhayət, Qarabağdakı qələbə ictimaiyyət tərəfindən Azərbaycanın böyük uğuru kimi qiymətləndirilir. Respondentlərin 98,50 faizi "Siz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün həyata keçirilən genişmiqyaslı hərbi əməliyyatları dəstəklədinizmi?" sualına müsbət cavab veriblər. Bu rəqəm yüksək milli ruhu nümayiş etdirir.

"Sizcə, Azərbaycanın ərazi bütövlüyünün bərpası ölkənin beynəlxalq aləmdə nüfuzuna necə təsir edib?" sualına respondentlərin əksəriyyəti - 72,5 faizi "müsbət", 2,6 faizi "mənfi", 24,9 faizi "neytral" variantını seçib.

Sorğunun nəticəsinə əsasən ölkə əhalisi fevralın 7-nə təyin edilmiş prezident seçkiləri ilə bağlı məlumatlıdır. Bu, dövlətin həyata keçirdiyi maarifləndirmə və məlumatlandırma işinin yüksək səviyyədə aparılmasından xəbər verir.

Əlbəttə ki, Azərbaycanın seçki təcrübəsi budəfəki seçkilərin beynəlxalq standartlara uyğun, şəffaf və demokratik prinsiplər çərçivəsində keçirilməsinə imkan verir. Ölkədə artıq formalaşmış seçki sistemi, həmçinin 40 mindən yuxarı insanı özündə birləşdirən peşəkar seçki ordusu mövcuddur. Azərbaycanda hələ 2003-cü ildə qəbul olunmuş və zaman-zaman yenilənməklə müfəssəl məlumatları özündə ehtiva edən, mütərəqqi standartlar baxımından təkmilləşdirilmiş Seçki Məcəlləsi var. Mərkəzi Seçki Komissiyası müxtəlif prosesləri tənzimləyən və ictimaiyyət tərəfindən asanlıqla anlaşılan təxminən 47 təlimat, izah və qayda qəbul edib. Bütün bunların fonunda tam səmimi şəkildə deyə bilərik ki, Azərbaycanda Zəfər seçkilərinin keçirilməsi üçün tam hüquqi baza mövcuddur. Bu seçkilər hətta əvvəlki seçkilərdən də daha təkmil olacaq.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Seçkilər vətəndaş fəallığı ilə keçəcək

**Xalqımız müstəqil Azərbaycan tarixinin çox mühüm siyasi hadisəsinə hazırlaşır. Fefralın 7-də Azərbaycan tarixində ilk dəfə bütün ölkə ərazisində seçkilər keçiriləcək. Azərbaycan vətəndaşları Zəfər bayrağımızın dalğalandığı bütün ərazilərimizdə səsvermə hüququndan azad şəkildə istifadə edəcəklər. Seçici aktivliyini təmin etmək, bu mühüm kampaniyanın azad, şəffaf keçirilməsi üçün ciddi tədbirlər görülməkdədir. Müşahidələr nəticəsində gəldiyimiz qənaət budur ki, istər ölkə vətəndaşlarının, istərsə də beynəlxalq təşkilatların fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkisinə münasibəti müsbətdir.**

Vətəndaş cəmiyyəti institutları, siyasi partiyalar, qeyri-hökumət təşkilatları nümayəndələrinin seçkiləri izləmək üçün intensiv müraciət etmələri seçkilərin yüksək vətəndaş fəallığı ilə keçəcəyindən xəbər verir.

Artıq ictimai birlikləri təmsil edən 6045 nəfərə prezident seçkilərini izləmək üçün müşahidəçilik vəsiqəsi verilib. Müqayisə üçün bildirək ki, seçki günü respublikanın bütün ərazisində müşahidə aparacaq QHT-lərin sayı 2018-ci ildə keçirilmiş prezident seçkiləri ilə müqayisədə 4 dəfə artaraq 78 QHT-ni əhatə edir.

Eyni zamnda seçkiləri izləmək üçün Bakı yeddi beynəlxalq və regional təşkilata dəvət göndərib.

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Demokratik Təsisatlar və İnsan Haqları Bürosu, Müstəqil Dövlətlər Birliyi, İslam Əməkdaşlıq Təşkilatı, Şanxay Əməkdaşlıq Təşkilatı, Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat, Türk Dövlətləri Təşkilatı, Qoşulmama Hərəkatının Gənclər Təşkilatı 7 fevralda ölkəmizdə keçiriləcək növbədənkənar prezident seçkilərini müşahidə edəcəklər.

Artıq bu təşkilatlardan DTİHB və MDB-nin müşahidə missiyası Azərbaycanda prezident seçkisinin hazırkı mərhələsinin müşahidəsinə başladıqlarnı bəyan edib. GUAM təşkilatının müşahidəçi qrupu isə fevralın 6-da Azərbaycana gələcəyi və seçki günü müşahidə prosesinə başlayacağı haqqında məlumatlar var. Xatirladaq ki, seçkiləri müşahidə etməyə dəvət olunan beynəlxalq qurumlar arasında ilk dəfə bu missiyanı yerinə yetirəcək bir təşkilat - Qoşulmama Hərəkatının Gənclər Təşkilatı da yer alıb.

Avropa İttifaqında təmsil olunmayan Böyük Britaniya da Azərbaycana müşahidə missiyası göndərəcəyini bildirib.

Xatırladaq ki, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası ABŞ-nin "Oracle Advisory Group" təşkilatına Azərbaycanda fevralın 7-nə təyin edilmiş növbədənkənar prezident seçkilərində "exit-poll" keçirməyə akkreditasiya verib. "Oracle Advisory Group" təşkilatının nümayəndəsi George Birnbaum Şuşada olan mətbuat konfransında təmsil olunduğu təşkilatın prezident seçkilərinə vətəndaşların münasibətini öyrənmək məqsədilə rəy sorğusu keçirdiklərini qeyd edib.

Azərbaycanda keçirilən sosioloji sorğunun əsas məqsədi prezident seçkiləri ərəfəsində əhalinin səsverməyə hazırlığı və onların ölkənin siyasi həyatında iştirak səviyyəsinin, seçkilərlə bağlı ictimai rəyin öyrənilməsidir. Sorğu vərəqində suallar "Əhalinin prezident seçkiləri ilə bağlı məlumatlılıq səviyyəsi", "Ölkənin hazırkı vəziyyətinə münasibət", "Əhalinin siyasi fəallıq səviyyəsi", "Ermənistan-Azərbaycan münaqişəsi", "Vətən müharibəsinə dəstək" kimi qruplaşdırılıb.

George Birnbaum açıqlamasında bildirib ki, "Əvvəllər Azərbaycanda keçirilən prezident seçkilərində iştirak etmisiniz?" sualına 34,9 faiz "Demək olar ki, hər zaman" variantını seçib. Daha 28,4 faizi "Hər zaman", 11,1 faizi isə "Çox vaxt" cavabı verib. Bu isə əhalinin seçkilərdə fəallığının göstəricisidir.

7 fevralda keçiriləcək seçkiləri müşahidə üçün veb-kameraların quraşdırılmasına da xüsusi önəm verilir. Qısa müddət ərzində 6 mindən çox məntəqə dayanıqlı internetlə təmin olunub. Fevralın 7-də 119 seçki dairəsi üzrə 1000 seçki məntəqəsində veb-kamera vasitəsi ilə seçkini izləmək mümkün olacaq. Onu da qeyd edək ki, veb-kamera quraşdırılan məntəqələrin siyahısı ilə MSK-nın saytına keçid edərək tanış olmaq da mümkündür.

Mərkəzi Seçki Komissiyasının "Seçki-2024" Müstəqil Media Mərkəzi fevralın 7-də növbədənkənar prezident seçkisi, onun ayrı-ayrı mərhələləri, səsvermə prosesi, seçki institutlarının, müşahidə missiyalarının, ekzitpol (exit-poll) keçirən təşkilatların fəaliyyəti haqqında dolğun məlumatları Azərbaycan ictimaiyyətinə, yerli və xarici mediaya operativ şəkildə çatdıracaq. Azərbaycan, rus və ingilis dillərində fəaliyyət göstərən saytda seçki prosesi ilə bağlı səlahiyyətli şəxslərin və ekspertlərin rəyləri, açıqlama və bəyanatları veriləcək. Eyni zamanda seçkilərlə bağlı foto və videomateriallar təqdim olunacaq.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## 113 saylı Qax-Şəki Seçki Dairəsi üzrə 2732 seçici ilk dəfə səs verəcək

**Fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkilərinə saylı günlər qalıb. Respublikamızın hər yerində olduğu kimi, 113 sayılı Qax-Şəki seçki dairəsinin məntəqə seçki komissiyalarında da ölkəmizin ictimai-siyasi həyatı üçün mühüm əhəmiyyət daşıyan bu məsul kampaniyaya hazırlıq işləri mütəşəkkil qaydada başa çatıb. Bütün seçki məntəqələri səsvermə gününə tam hazır vəziyyətə gətirilib.**



AZƏRTAC xəbər verir ki, seçki məntəqələrinin hazırlıq vəziyyəti ilə tanış olmaq üçün dairənin bir neçə seçki məntəqəsinə baş çəkilib, məntəqə seçki komissiyalarının fəaliyyəti ilə maraqlanılıb.

Dairə seçki komissiyasından bildirilib ki, dairənin tərkibinə daxil olan 72 seçki məntəqəsinin 59-u Qaxda, 13-ü isə Şəki rayonunda yerləşir. Dəqiqləşdirilmiş son seçici siyahılarına görə, dairə üzrə 54 min 330 seçici qeydə alınıb. Onlardan 2732 nəfəri bu seçkilərdə ilk dəfə səs verəcək. Seçicilərin 937 nəfəri 80-100 yaş arasındadır. Dairə üzrə qeydə alınan ən yaşlı seçici isə Qax rayonunun Əlibəyli kəndində yerləşən 46 saylı seçki məntəqəsində səs verəcək 98 yaşlı Barixaşvili Vera Kostayevnadır. Bütün seçki məntəqələri lazımi avadanlıqla, rabitə və digər texniki vasitələrlə təmin edilib. Səsvermənin gedişini izləmək üçün 10 seçki məntəqəsində veb-kamera quraşdırılıb. İndiyədək 960 yerli müşahidəçi dairədə qeydiyyatdan keçib, 620 seçiciyə qeydiyyatdançıxma vəsiqəsi verilib.

Dairənin tərkibində olan 1 saylı seçki məntəqəsi şəhər 1 nömrəli tam orta məktəbin binasında yerləşir. Məntəqədə prezident seçkilərinin qanunvericiliyin tələblərinə uyğun keçirilməsi üçün hər cür şərait yaradılıb. Seçicilərə səsvermənin tarixi, vaxtı və yeri barədə bildirişlər paylanılıb.

Məntəqə seçki komissiyasının sədri Təranə Əhmədova bildirib ki, məntəqə üzrə 935 seçici qeydə alınıb. Onlardan 40 nəfəri bu seçkilərdə ilk dəfə səs verəcək. Ən yaşlı seçici isə 1933-cü il təvəllüdlü Alakulaşvili İsako Nikolayeviçdir. Dairənin tərkibindəki 9 saylı seçki məntəqəsində də prezident seçkilərinin qanunvericiliyin tələblərinə uyğun keçirilməsi üçün hər cür şərait yaradılıb. Məntəqə Qax şəhərindəki 4 nömrəli tam orta məktəbin binasında yerləşir. Məntəqə seçki komissiyasının sədri Firudin Mustafayevin məlumatına görə, məntəqə üzrə 1210 seçici qeydə alınıb. Onlardan 24 nəfəri seçkilərdə ilk dəfə səs verəcək. Seçicilərin 16 nəfərinin yaşı 80-dən yuxarıdır. Məntəqə üzrə yaşlı və səhhətində problemləri olan seçicilərin də siyahısı çıxarılıb. Müraciət olunarsa, onların evlərinə daşınan seçki qutusu göndəriləcək. Məntəqə üzrə ən yaşlı seçici isə 1935-ci il təvəllüdlü Şahmalıyeva Fətmət Xəlil qızıdır.

## Növbədənkənar prezident seçkilərinə hazırlıq prosesinə beynəlxalq təşkilatlar və xarici KİV böyük maraq göstərirlər

**Azərbaycan müstəqillik illərinin ən əlamətdar seçkilərinə hazırlaşır. Fevralın 7-nə təyin olunmuş növbədənkənar prezident seçkiləri suverinliyini tam bərpa etməyə müvəffəq olmuş ölkəmizdə keçiriləcək. Bu tarixi Zəfərimizin bizə bəxş etdiyi xoşbəxtlikdir. Bir neçə gün sonra Azərbaycan xalqı dövlət başçısını seçmək üçün səs verməyə gedəcək.**

Artıq Vətən torpaqları işğalçı Ermənistan silahlı qüvvələrinin tapdağı altında deyil. Azərbaycanın digər əzəli torpaqları kimi Şuşası, Laçını, Qubadlısı, Zəngilanı, Kəlbəcəri, Ağdamı, Ağdərəsi, Xocalısı, Füzulisi, Xankəndisi də azaddır. Həmin ərazilərdə də fevralın 7-də növbədənkənar prezident seçkilərinin keçirilməsi üçün ciddi işlər həyata keçirilməkdədir.

### Seçki məntəqələrinin əksəriyyəti səsverməyə hazırdır

İşğaldan azad edilmiş bölgələrin əksəriyyəti artıq fevralın 7-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərinə hazırdır. Onlardan ikisini diqqətə çatdıraq.



Şuşa şəhər 1 nömrəli tam orta məktəbin binasındakı 105 saylı seçki məntəqəsində 1189 nəfər seçici qeydə alınıb. "Seçki-2024.az" saytının məlumatına görə, məntəqə üzrə yalnız bir nəfər ilk dəfə səsvermə hüququndan istifadə edəcək. Məntəqə 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd Seçki Dairəsinə daxildir. Seçki məntəqəsi zəruri texniki vasitə və metodiki vəsaitlər ilə təmin edilib. Seçici siyahıları və məlumat lövhələri asılıb. Seçicilərin öz mövqelərini sərbəst şəkildə bildirmələri üçün kabinələr yaradılıb. Seçki məntəqələrində katib və üzvlər, habelə seçkini izləyəcək müşahidəçilər üçün yerlər müəyyənləşdirilib. Seçicilərə səsvermənin keçirilmə tarixi, vaxtı və yeri barədə bildirişlərin paylanması işi də başa çatıb.

Saytdan bildirilib ki, 1464 seçicinin qeydiyyata alındığı 121 saylı Laçın Seçki Dairəsinin 105 saylı seçki məntəqəsi Mərkəzi Seçki Komissiyası tərəfindən bütün lazımi avadanlıqlarla təmin olunub.

Həmin məntəqə üzrə ən yaşlı seçicinin 96 yaşı var. Bu yaşda olan iki nəfər fevralın 7-də səyyar seçki qutusu ilə evlərində səs verə biləcəklər. Seçicilərin tərkibində Laçın şəhəri sakinləri, eyni zamanda altı aydan çox əmək müqaviləsi ilə burada çalışan vətəndaşlar var.

### 1000 seçki məntəqəsində veb-kamera quraşdırılıb

Ölkəmizin ictimai-siyasi həyatında olduqca mühüm əhəmiyyət kəsb edən, ilk dəfə ölkəmizin suverenliyi və ərazi bütövlüyü tam bərpa olunmuş bir şəraitdə, işğaldan azad edilmiş regionlar da daxil olmaqla, hər bir bölgəmizdə keçiriləcək seçki prosesində ən müasir texnoloji imkanlardan istifadə ediləcək. Növbədənkənar prezident seçkilərinə hazırlıq mərhələsinin ilk günlərindən bu məsələlər diqqət mərkəzindədir. Belə ki, seçki məntəqələrində səsvermə günü proseslərin birbaşa izlənilməsi, keyfiyyətli və fasiləsiz yayım imkanlarının təmin edilməsi məqsədilə veb-kameraların tənzimlənməsi və digər texniki parametrlərin gücləndirilməsi diqqətdə saxlanılaraq daha da təkmilləşdirilib. Veb-kameraların müşahidə sistemi tam yenilənərək yeni nəsil müşahidə sistemi tətbiq edilib. Müşahidə sisteminin avadanlıq və proqram təminatı baxımından komponentləri, eləcə də səsvermə günü seçki məntəqələrindəki prosesləri canlı izləmək üçün nəzərdə tutulan internet səhifəsi tam şəkildə yenilənib.

Qeyd edək ki, fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində veb-kameraların tətbiqi layihəsi Mərkəzi Seçki Komissiyasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə sıx əməkdaşlığı şəraitində reallaşdırılıb.

Mərkəzi Seçki Komissiyası növbədənkənar prezident seçkiləri ilə əlaqədar seçki günü səsvermə məntəqələrində proseslərin əvvəldən axıradək, birbaşa və arası kəsilmədən izlənilməsi məqsədilə, keyfiyyətli və fasiləsiz yayım imkanlarının təmin edilməsi üçün zəruri olan texniki və digər şərtlər çərçivəsində 119 seçki dairəsi üzrə 1000 seçki məntəqəsində veb-kameralar quraşdırılmasına qərar verib. Veb-kameralar quraşdırılıb.

Respublikamızda seçici siyahılarının onlayn dərc edilməsi, seçki prosesində rəngsiz mürəkkəbdən istifadə olunması, 1000 seçki məntəqəsində seçki prosesini veb-kameralar vasitəsilə izləmək imkanının yaradılması, eləcə də müşahidə prosesində çoxsaylı yerli və xarici nümayəndələrin yer alması şəffaflığın təminatı baxımından əhəmiyyətlidir. Onu da qeyd edək ki, Azərbaycanda baş tutacaq 7 fevral növbədənkənar prezident seçkilərinə beynəlxalq təşkilatlarla yanaşı, bir çox ölkələrin KİV nümayəndələri də böyük maraq göstərirlər.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Seçkilərdən seçkilərə

# Külək də təbii sərvətimizmiş...

## "Yaşıl enerji" sayılan bu sərvətə indi daha çox ehtiyac var



**Bakını küləklər şəhəri adlandırırlar. Paytaxt sakinləri güclü küləyin onlara bəzən rahatsızlıq gətirdiyini də deyirlər. Küləyə başqa bir rakursdan yanaşdıqda isə o, əslində, böyük bir sərvətdir. Belə ki, bu təbiət hadisəsi həm də elektrik enerjisi mənbələrindən biridir.**

Qlobal Külək Enerjisi Şurasının (Global Wind Energy Council - GWEC) hazırladığı hesabata görə, Azərbaycan offşor zonalarda külək enerjisi potensialına görə dünyada Avstraliyadan sonra 2-ci ölkədir. Azərbaycandan sonra isə bu siyahıda Şri-Lanka və Türkiyənin adı yer alıb.

Dövlətimizin "yaşıl enerji" ilə bağlı xüsusi strategiyasında külək enerjisi istehsalının da önəmli yer tutması təsadüfi deyil. Qiymətləndirmələr göstərir ki, küləyin sürəti saniyədə 3-4 metr olduğu halda elektrik enerjisinin əldə edilməsi mümkündür. Bakıda küləyin orta sürəti saniyədə 11 metrdir. Bundan başqa, işğaldan azad edilmiş Laçın və Kəlbəcər rayonlarında da küləkdən elektrik enerjisi alınması potensialı böyükdür. Kəlbəcər rayonunun dağlıq ərazilərində küləyin orta illik sürəti saniyədə 7-8 metr təşkil edir. Deməli, külək enerjisindən istifadə imkanlarımız genişdir. Odur ki, işğaldan azad olunmuş ərazilərimiz - 10 min kvadratkilometr sahə, eləcə də Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan edilib. Təkcə düşmən tapdağından azad etdiyimiz əraziyə daxil olan bölgələr 7200 meqavat günəş, 2000 meqavat külək enerjisi potensialına malikdir. Ölkəmizin daxili su ehtiyatlarının isə təxminən 25 faizi, yəni illik 2 milyard 560 milyon kubmetri bu ərazilərdə formalaşır.

Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyindən verilən məlumata görə, işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması məqsədilə Azərbaycanın Energetika Nazirliyi ilə Yaponiyanın TEPSCO şirkəti arasında müqavilə imzalanıb. Məlumatda vurğulanır ki, bu ərazilərdə külək enerjisi potensialından səmərəli istifadə olunması üçün enerji idarəetməsində müasir yanaşmalara əsaslanan texnologiyaların hazırlanması planlaşdırılır.

Üstəlik, bizim Xəzər dənizi kimi nəhəng bir enerji mənbəyimiz var. Belə ki, Xəzərdə külək enerjisi potensialı 157 qiqavatdır.

Qeyd edək ki, Azərbaycanın bərpaolunan enerji istehsalı siyasətinin strateji əsasını dövlət tərəfindən müəyyənləşdirilən və 2021-ci ilin fevralında qəbul olunan "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri" təşkil edir. Beş milli prioritetdən biri olan təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi prioriteti qarşıya yeni hədəflər qoyur. Bundan başqa, elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payının 2026-cı ilədək 24 faiz, 2030-cu ilədək isə 30 faizə çatdırılması "Azərbaycan Respublikasının 2022-2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası"nda nəzərdə tutulur.

Ölkəmiz bu hədəflərə doğru inamla irəliləyir. Bu baxımdan tikilməkdə olan "Xızı-Abşeron" külək stansiyası xüsusi əhəmiyyət kəsb edir. Hələ 2020-ci il yanvarın 9-da Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti arasında İcra müqaviləsi imzalanmışdır. Müqaviləyə uyğun olaraq "ACWA Power" şirkəti tərəfindən 240 MVt gücündə külək-elektrik stansiyasının tikintisi ilə bağlı pilot layihənin icra edilməsi nəzərdə tutulmuşdur. Bu istiqamətdə həmin il dekabrın 30-da Energetika Nazirliyi və "Azərenerji" ASC ilə stansiyanın layihəsi üzrə "İnvestisiya müqaviləsi", "Enerji alqı-satqı müqaviləsi" və "Ötürücü şəbəkəyə qoşulma müqaviləsi" imzalanmışdır.

Stansiyanın təməli 2022-ci il yanvarın 13-də Xızı rayonunun ərazisində qoyuldu. Bu, ölkəmizdə xarici sərmayə cəlb edilməklə həyata keçirilən ilk sənaye həcmli bərpaolunan enerji layihəsidir. Eyni zamanda stansiya Azərbaycanda ən böyük külək enerji stansiyası olacaq. Müqayisə üçün qeyd edək ki, hazırda Xızı rayonunun ərazisində yerləşən 50 MVT gücündə "Yeni Yaşma" Külək-Elektrik Stansiyasında 20 külək turbini var və onların hər birinin gücü 2,5 MVT-dır. Bu layihədə isə təxminən 37 külək turbini olacaq və hər biri 6,5 MVT gücündə planlaşdırılıb.

Layihənin investisiya dəyəri 300 milyon dollar həcmində qiymətləndirilir. Təbii ki, belə böyük həcmdə özəl investisiyanın cəlb olunması Azərbaycanda aparılan islahatların məntiqi nəticəsidir. Ölkəmizdə iqtisadi sabitlik və əlverişli investisiya mühiti sərmayədarlarda böyük inam yaradır. Nəticə etibarilə iqtisadiyyatın müxtəlif sahələrinə, o cümlədən bərpaolunan enerji sahəsinə özəl investisiyalar yatırılır.

"Xızı-Abşeron" stansiyasında ildə 1 milyard kilovat/saat elektrik enerjisi istehsalı proqnozlaşdırılır ki, bu da təxminən 300 min evin elektrik enerjisi ilə təmini deməkdir.

Bir sözlə, layihənin müxtəlif istiqamətlərdə üstünlükləri var. Bunlardan biri enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə töhfə kimi qeyd edə bilər. Belə ki, enerji mənbələrinin şaxələndirilməsi enerji təhlükəsizliyinə təkan verən əsas amillərdən biridir. Ölkəmizdə hazırda təbii qaz əsaslı ənənəvi elektrik stansiyaları, su-elektrik stansiyaları və günəş-elektrik stansiyaları fəaliyyət göstərir. 240 MVT-lıq külək-elektrik stansiyası məhz diversifikasiyaya imkan verəcək.

Bu layihənin həyata keçirilməsi ilə ildə atmosferə atılan 400 min tondan artıq karbon qazı emissiyasının qarşısı alınacaq. Bu da təbii ki, ekoloji baxımdan əhəmiyyət daşıyır. Həmçinin ildə 200 milyon kubmetr qaza qənaət ediləcək. Beləliklə, layihə ekoloji faydaları ilə qlobal iqlim hədəflərinə yaxınlaşmağa kömək edəcək.

Layihə həmçinin xarici investorlarla iş təcrübəsinin daha da artırılmasına imkan verir. Sosial üstünlükləri isə odur ki, stansiyanın istər tikinti, istərsə də istismar dövründə yeni iş yerləri açılacaq, yeni istehsal və xidmət sahələri yaradılacaq. Bundan əlavə, layihə sözügedən sahədə yerli ixtisaslı kadr potensialının formalaşmasına da dəstək verəcək.

Gerçəkləşən bərpaolunan enerji layihələri Azərbaycanın "yaşıl enerji"nin təchizatçısına çevrilmək planlarının tərkib hissəsidir. Planlar geniş, işlər çoxşaxəlidir. "Yaşıl dünya naminə həmrəylik ili" ölkəmizi bu sahədə qarşıya qoyduğu hədəflərə çatmağa daha da yaxınlaşdırır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Sərnişin və yükdaşıma fəaliyyəti üzrə vergitutma rejimi tənzimlənib

**Vergi nəzarəti mexanizminin təkmilləşdirilməsi və vergitutma bazasının genişləndirilməsi istiqamətində Vergi Məcəlləsində edilmiş mühüm dəyişikliklərdən biri sərnişin və yükdaşıma fəaliyyəti üzrə vergitutma rejiminin tənzimlənməsi ilə bağlıdır.**

"Trend"in İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə istinadən xəbərinə görə, dəyişiklik ölkədaxili yük daşımalarını həyata keçirən vergi ödəyicilərinin vergi rejiminin sadələşdirilmiş qaydada, əldə edilən gəlirin məbləğindən asılı olmayaraq Vergi Məcəlləsinin 220.5-ci maddəsində müəyyən edilmiş vergi dərəcələri ilə yerinə yetirməsinin ləğvini nəzərdə tutur. Həmin şəxslər vergi öhdəliklərini 2 faiz dərəcə ilə sadələşdirilmiş vergi və ya mənfəət (gəlir) vergisinin ödəyicisi kimi yerinə yetirəcək (rüb ərzində 30 faiz limit nəzərə alınmaqla), eyni zamanda illik dövriyyə 200 min manatı keçdikdə məcburi ƏDV qeydiyyatı öhdəliyi yaranacaq.

Sərnişindaşıma ilə məşğul olanlara münasibətdə isə mövcud vergi rejimi saxlanılır və bu şəxslərə (taksi istisna olmaqla) göstərilən xidmətlərin dəyərini nağdsız qaydada əldə edərsə, könüllü qaydada ƏDV qeydiyyatına durmaqla fəaliyyətlərini mənfəət (gəlir) vergisinin və ƏDV-nin ödəyicisi kimi davam etdirmək hüququ verilir.

Bu istiqamətdə digər dəyişiklik taksi sifarişi operatorları tərəfindən malik olduqları informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən aylıq məlumatların Dövlət Vergi Xidmətinin elektron informasiya sisteminə ötürülməsi və göstərilən məlumatları müəyyən edilən müddətdə təqdim etməyən və ya təhrif olunmuş formada təqdim edən taksi sifarişi operatorlarına 1000 manat məbləğində maliyyə sanksiyasının tətbiq edilməsidir.

## "Rehabus" layihəsi üzrə əlilliyi olan 1250 şəxsə xidmət göstərilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin 2022-ci ildən icrasına başladığı "RehaBus" (Reabilitasiya Avtobusu) layihəsi çərçivəsində əlilliyi olan 1250 şəxsə xidmət göstərilib.**

Layihənin məqsədi Bakı və ətraf ərazilərdə yaşayan əlilliyi olan şəxslərin ambulator və icma əsaslı reabilitasiya xidmətlərinə əlçatanlığını artırmaq, müvafiq müəssisəyə asan, rahat şəkildə çatmasını təmin etməkdir.

Reabilitasiya avtobusları Bakı və Sumqayıt şəhərlərinin, Abşeron rayonunun müxtəlif ərazilərində əvvəlcədən təyin olunmuş gözləmə məntəqələrindən əlilliyi olan uşaqları (onları müşayiət edən yaxınları ilə birgə) götürərək Bakı şəhərindəki 2 saylı Uşaq Reabilitasiya Mərkəzinə çatdırır. Reabilitasiya proseduru bitdikdən sonra isə onları yenidən geri qaytarırlar.

## Dünya Su-Bataqlıq Əraziləri Günü Naxçıvan MR-də qeyd olunub

**Su quşlarının yaşayış yeri olan və beynəlxalq əhəmiyyət daşıyan su-bataqlıq ərazilərindən səmərəli istifadə etmək və onları qorumaq məqsədilə dünyanın bir çox ölkəsində, o cümlədən Azərbaycanda 2 Fevral Ümumdünya Su-Bataqlıq Əraziləri Günü kimi qeyd edilir.**



Naxçıvan MR Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları bu əlamətdar gündə gəncləri köçəri quşların miqrasiya marşrutu üzərində yerləşən xüsusi mühafizə olunan təbiət ərazilərinin əhəmiyyəti, nadir quş növlərinin mühafizəsi və "quşların müşahidəsi" turizminin inkişafı barədə məlumatlandırıb, onlara bu ekoloji təqvim gününün əhəmiyyəti, su-bataqlıq ərazilərinin zəngin bioloji müxtəlifliyi haqqında ətraflı məlumatlar verib.

Daha sonra ziyarətçilər üçün "quşların müşahidəsi" (birdwatching) təşkil edilib, unikal və yaddaqalan mənzərələr yaradan su-bataqlıq quşları izlənilib.

## Startap layihəsi Azərbaycanda qida tullantılarının qarşısını almağı hədəfləyib

**Azərbaycanda dövlət dəstəyi ilə fəaliyyət göstərən startap layihələrindən biri də "SnackPack" MMC-dir. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) mikro və kiçik sahibkarlara vergi güzəştləri verən "Startap" şəhadətnaməsini almış layihənin dəyəri 1,2 milyon dollardır.**

Layihənin bu aydan icrası planlaşdırılır. İstifadəçilər mobil tətbiq vasitəsilə axşam saatlarında kafelərdə qalan satılmamış yeməkləri endirimli qiymətlərlə əldə edə biləcəklər.

Startapın iş prinsipi ilə bağlı AZƏRTAC-a məlumat verən layihə rəhbəri Ramil Tağıyev bildirib ki, yaradılan mobil tətbiq vasitəsilə bu konsepsiya rəqəmsallaşdırılıb.

"Hələlik tərəfdaşlarımız yalnız kafelərdən ibarətdir. Gələcəkdə market şəbəkələri və hotellərlə əməkdaşlıq etməyi planlaşdırırıq. Əvvəllər kitab tövsiyələri və səhiyyə kimi müxtəlif sahələrdə bir neçə başqa layihələrimiz var idi. Həmişə insanların daha sağlam və mütərəqqi olmasını istəmişik. Sonra araşdırmalara başladıq və qida tullantılarının statistikasına rast gəldik. Xeyli sayda təzə yeməklərin atılmasını gördük və yerli "axsam bazarı" anlayışından istifadə edib bu ciddi problemin həlli üçün mobil tətbiq yaratmağa qərar verdik. Sonra mobil proqram, veb-sayt və instaqramda səhifəmizi aktivləşdirərək işə başladıq və indi işimizi qurmaq üzrəyik", - deyə Ramil Tağıyev vurğulayıb.

# Yollar abad, həyat rahat



## Azərbaycan yol infrastrukturuna görə MDB-də 1-ci, dünyada 27-cidir

**Son 20 ildə Azərbaycanın yol infrastrukturu yenilənərək keyfiyyət reytinqində MDB dövlətləri arasında 1-ci, dünyanın 140 ölkəsi arasında 27-ci olub. Bu yüksək reytinq 2003-2023-cü illər ərzində ölkədə 6782,6 kilometr respublika, 11418,7 kilometr yerli əhəmiyyətli, 2454,4 kilometr Bakı və 47,9 kilometr Sumqayıt şəhər yolları olmaqla 20 min 703,6 kilometr uzunluğunda təzə yolların tikilməsi, yenidən qurulması və təmiri hesabına əldə edilib.**

Təkcə 2023-cü ildə ölkə üzrə 881,7 kilometr uzunluğunda avtomobil yolları salınıb və yenidən qurulub. Həmin işlərin 418, 8 kilometri respublika, 418,5 kilometri yerli əhəmiyyətli yollardır. Bakı şəhəri üzrə isə bu göstərici 44,4 kilometr olub. Göründüyü kimi, yol infrastrukturunun yenilənməsi sahəsində görülən işlər daha çox bölgələri əhatə edir. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən dövlət proqramları çərçivəsində respublikanın bütün bölgələrində yeni yollar çəkilib və əsaslı təmir olunub, çoxlu sayda körpülər, yol qovşaqları tikilib, bir sözlə, yol infrastrukturu büsbütün yaxşılaşdırılıb. Hazırda da bölgələrdə yol infrastrukturunun yenilənməsi istiqamətində işlər ardıcıl və intensiv şəkildə davam edir. Üstəlik qarşıdakı dövrdə bütün kənd yollarının təmirinə nail olmaqla bağlı ciddi vəzifə qarşıya qoyulub.

Bölgələrdə görülən işlərdən söz düşəndə Sabirabad şəhəri daxilində uzunluğu 5,9 kilometr olan, Ulu Öndər Heydər Əliyevin adını daşıyan prospektin, Zərdab rayonunda 13 kilometrlik Ağabağı-Kəndəbil-Şıxbağı-Nəzəralılı avtomobil yolunun, eləcə də Xaçmaz (30 kilometr), İmişli (43,5 kilometr), Masallı (38 kilometr), Zaqatala (22,3 kilometr), Beyləqan (26 kilometr), Qax (12,5 kilometr), Siyəzən (27 kilometr) rayonları ərazisində kəndlərarası avtomobil yollarının yenidən qurulmasını, eləcə də Neftçalada 42, Salyanda 33 kilometr avtomobil yollarının əsaslı təmirinə başlanılmasını qeyd etmək yerinə düşərdi.

Yollar çəkilən, yaxud təmir olunarkən onun keyfiyyəti də diqqətdə saxlanılır. Xüsusən qonşu dövlətlərlə sərhəd yollarının keyfiyyətinə daim nəzarət olunur. Bunun nəticəsidir ki, Hacıqabul-Bəhrəmtəpə-Mincivan-Ermənistan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 61,4 kilometrlik hissəsi yüksək keyfiyyətlə əsaslı təmir edilib. Hazırda isə Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun (M-3) 26 kilometrlik hissəsində əsaslı təmir işləri gedir və təbii ki, keyfiyyətlə.

Ötən il həmçinin M-1 Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun 5,3 kilometr hissəsində beton örtük sökülərək asfalt-beton örtüklə əvəz edilib. Paralel olaraq il ərzində həmin yolun 21-ci kilometrində uzunluğu 45, Bakı-Şamaxı-Yevlax avtomobil yolunun 20,2-ci kilometrində uzunluğu 30, Mərdəkan prospektinin Qala-Pirallahı avtomobil yolu ilə kəsişməsində uzunluğu 65,4 və Zuğulba prospektində uzunluğu 65, Zığ-Hövsan avtomobil yolunun 1,8, 2,7 və 4,4-cü kilometrlərində hər birinin uzunluğu 74 metr olan 7 yerüstü piyada keçidinin tikintisi başa çatdırılaraq əhalinin istifadəsinə verilib. Bununla yanaşı, 31 kilometrlik M-5 Yevlax-Zaqatala-Gürcüstanla dövlət sərhədi-Kərimli avtomobil yolu və iki körpü əsaslı təmir olunub.

2023-cü ilin sentyabr ayında yağıntıların normadan artıq, leysan xarakterli, intensiv və güclü olmasından dolayı Xaçmaz rayonunda Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 27-ci kilometrliyindəki Qudyalçay üzərində inşa edilmiş körpü qəzalı vəziyyətə düşmüşdü. Yol işçilərinin səyi nəticəsində körpü qısa müddətdə təmir edildi. Həmin vaxt Astara rayonu ərazisindəki Təngərud çayı və Şiyəkəran, Vaqo kəndlərini əhatə edən Vaqo çayı üzərində tikilmiş körpülər də dağılmışdı. AAYDA tərəfindən bu körpülər də az zamanda bərpa olundu.

Onu da qeyd edək ki, bütün bu işlər daxili və xarici investorların hesabına başa gəlib. Daxili investisiya hesabına yerinə yetirilən respublika əhəmiyyətli layihələr üzrə M-1 Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun 150 kilometrlik hissəsinin tikintisi (150 kilometr, 4 hərəkət zolaqlı) uğurla başa çatdırılıb. Bakının Xətai rayonunda "Ağ şəhər" layihəsi çərçivəsində yolların (I mərhələ) və 8 Noyabr prospektində piyada körpüsünün inşası, Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolunun yenidən qurulması (Ağsu çayı ilə kəsişməsində yeni körpünün tikintisi ilə birlikdə) və piyada keçidlərinin tikintisi də daxili imkanlar hesabına başa gəlib.

Xarici investisiyaya gəldikdə, 2023-cü ildə M-2 magistral avtomobil yolunun Gəncə-Gürcüstan Respublikası ilə dövlət sərhədi hissəsinin 4 zolağa genişləndirilməsi (130,15 kilometr, 4 hərəkət zolaqlı) və M-3 Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun Yenikənd-Salyan-Biləsuvar hissəsinin yenidən qurulması layihələri xarici sərmayə hesabına reallaşıb. M-2 Bakı-Qazax-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun Gəncə-Qazax-Gürcüstan sərhədi hissəsinin 4 zolağa genişləndirilməsi layihəsinin Gəncə şəhərindən Qazaxbəyli kəndinədək olan 102 kilometr hissəsinin tikintisini də xarici investorlar maliyyələşdirib.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Prezidentliyə namizəd Zahid Orucun Seçki Platforması

**➔ Qalib Gələcəyə - HƏ!**
**➔ 4-cü Respublika: Azərbaycanın Qalib Yüz İli!**
**➔ Ən böyük sərvət İnsandır!**




## ➔ Mədəniyyət. Dəyərlər

Qarşıdakı mərhələdə mühüm məsələlərdən biri də kim olduğumuzla yanaşı, daha çox həm də kim olacağımızla bağlıdır. Bizi birləşdirən yalnız keçdiyimiz Zəfər yolu deyil, həm də qarşıdakı hədəflərlə bağlı birgə, həmrəy olmağımızdır.

Şanlı keçmiş də, quracağımız gələcək də xalqımızı birləşdirən dəyərlərdə ifadəsini tapır.

Çoxəsrlik tariximizlə yanaşı, müstəqillik tarixini, Vətən müharibəsinin, I və II Qarabağ müharibələrinin tarixinin yaddaşlara həkk edilməsi hər zaman prioritetlərimizdən biri olacaqdır.

## ➔ Sosial proqramlar

Qalibiyyətlə müharibədən çıxan bir ölkədə sosial sahədə çoxsaylı amillərlə bağlı sistemli problemlərin olması təbiidir. Bəzi hallarda onların obyektiv və ya subyektiv amillərdən yığılması, həll edilməməsi vətəndaşlarımızda icra strukturlarına inamsızlıq yaradır. Bu hallar dövlətimizin davamlı inkişafına mane olur. Çünki ölkəmizin əsasə sərvəti - insanlarımızdır. Hesab edirik ki, burada həm "dövlət vətəndaş üçün", həm də "vətəndaş dövlət üçün" qarşılıqlı yanaşması vəhdət təşkil etməlidir.

Sosial ədalət, ədalətli sosial siyasətin aparılması, təhsilin, sağlamlığın və rifahın təmin edilməsi - bu məsələdə dövlət vətəndaşlar üçün birbaşa cavabdehdir. Ölkənin sosial büdcəsi müstəqillik illərində davamlı olaraq artan xətt üzrə yüksəlib. Uşaq bağçalarının, məktəblərin, xəstəxanaların, mədəniyyət və idman obyektlərinin tikintisinə və müasirləşdirilməsinə, həmçinin ünvanlı yardıma milyonlarla manat vəsait xərclənir. Biz sosial müavinətlərin həcminin məqsədyönlü, nəticəyönümlü artırılmasına çalışacağıq. Əhalinin həssas qruplarını dəstəkləmək, həyat şəraitlərinin yaxşılaşdırılması üçün yeni mexanizmlər tətbiq ediləcək.

## ➔ Gənclər cəmiyyətdə dəyişikliklərin əsas hərəkətverici qüvvəsidir

Bu günün gənc seçiciləri siyasətə biganə olmasa da, onların səsvermə motivasiyası partiyalı siyasəti, yaxud iqtidar-müxalifət mənsubiyyətli namizədlərdən kənardadır.

Quracağımız yeni yüz ilin sabahı da bugünkü gənc nəsildən, onun inkişaf xüsusiyyətlərini müəyyən edən bir çox parametrlərdən: dəyərləri, təşəbbüsləri, özünüreallaşdırma imkanları, dünyagörüşü, ən vacibi qayğı və problemlərinin müəyyən edilməsi və həllindən və s. birmənalı asılıdır. Hər bir ölkədə nəsillərarası estafetdə fəal həyat mövqeyi ilə dövlətin indiki inkişafında mərkəzi yer tutan, gələcək potensialını müəyyən edən aparıcı qüvvə gənclikdir.

Ölkə əhalisinin 2,3 milyon nəfərini, yaxud 22.1%-ni təşkil edən Azərbaycan gəncliyi dövlətçiliyimizin gələcəyi üçün misilsiz insan kapitalı, strateji resursdur.

Xüsusilə də XXI əsrdə gənclik bütün dünyada lokal və qlobal proseslərin, transformasiyaların "sosial mühərriki" hesab edilir. İnsan kapitalının inkişaf etdirilməsi üçün yeni ideyalar, həyata keçirilən fundamental islahatlar, çağırış və təhdidlərə çevik reaksiyaların tələb edildiyi zamanlarda gənclik ölkənin yaradıcı və qurucu enerjisinin daşıyıcısı, strateji resursu hesab edilir. Gənclər siyasəti ilə bağlı bir çox istiqamətdə böyük boşluqlar mövcuddur. Dövlət gənclər siyasətinin strateji və konseptual əsaslarının tamamilə yenidən hazırlanmasına ehtiyac var. Mənəvi-ideoloji istiqamətdə Azərbaycanda gənclər arasında ideoloji tərbiyə işinin aparılmasındakı boşluqlar dövlət başçısı tərəfindən dəfələrlə vurğulanıb.

Gənclərimizin hələ məktəb yaşlarından ziyanlı ideologiyalara cəlb edilməsi meyilləri bu boşluqların düşmən qüvvələr tərəfindən doldurulması cəhdləri ilə bağlıdır. Son 30 ildə radikal dini ideologiyalar məktəb skamyalarına qədər sızmaqda davam edir. Sorğunun nəticələri də dindarlaşma dinamikasının neqativ tendensiyasının yüksəlməsini göstərir. Qarşıdakı 20-30 ildə gənclərin ideoloji manipulyasiyasına fürsət verilməməlidir. Bununla bağlı konkret əks tədbirlər sistemi hazırlanmalıdır.

## ➔ Ekoloji proqram

Müstəqillik illərində Qarabağ mövzusu ilə paralel olaraq, ekoloji problemlərin qoşa addımlaması nadir hadisələrdən olub, təsadüfi deyildi. İstər Topxana meşəsi ilə başlayan proseslər, istərsə də azad edilmiş torpaqlarda təbii sərvətlərin talan edilməsinə qarşı ötən il Xankəndi yolunda keçirilən dinc aksiyanın mühüm nəticələri, Laçın yolunda sərhəd-keçid məntəqəsinin açılması - təkcə bu məsələlər ekoloji gündəmin strateji vacibliyini sübut edir. Azərbaycanın işğal illərində dəymiş ziyanın qiymətləndirilməsi yönündə fəaliyyəti davam edəcək. Hələ ekoloji aksiya zamanı məlum oldu ki, Azərbaycanda milli ekoloji qanunvericiliyin əsaslarına yenidən nəzər salınmasına ehtiyac var.

2024-cü ildə Azərbaycanda dünyanın ən nəhəng ekoloji tədbiri keçiriləcək. Biz bu tədbirə Laçın-Xankəndi yolunda keçirilən aksiyanın dünya tərəfindən etirafı kimi də yanaşa bilərik.

Vətəndaşların sağlamlığına və həyat keyfiyyətinə təsir edən ətraf mühitin vəziyyəti dövlətin prioritetləri sırasındadır. Biz təbii ehtiyatlardan rasional istifadə etməli və ətraf mühiti qorumalı, ətraf mühitin mühafizəsi üçün yeni mexanizmlər tətbiq etməli, təmiz texnologiyalar inkişaf etdirməliyik. Biz cəmiyyətdə ekoloji mədəniyyətin səviyyəsinin yüksəldilməsinə, ətraf mühitə atılan tullantıların azaldılmasına, biomüxtəlifliyin qorunmasını nail olmalıyıq.

Biz təhsilin bütün pillələrində - uşaq bağçalarından tutmuş universitetlərə qədər ekoloji mədəniyyətin formalaşması, ekoloji təhsilin keyfiyyətinin yüksəldilməsi ilə bağlı yanaşmalara köklü şəkildə yenidən baxmalıyıq. Sənaye müəssisələrimizə ekoloji nəzarətin gücləndirilməsi, zərərli tullantıların azaldılması, meşə sahələrinin genişlənməsi, su ehtiyatlarından səmərəli istifadə, onların mühafizəsi və təmizlənməsinə yönəlmiş yeni "Su Məcəlləsi"nin qəbulu gündəlikdədir.

Qısa ifadə edilsə, Azərbaycan ekologiyasının qorunması üçün ən vacib məsələlərdən biri məhz ekoloji şüurun, təbiəti sevən düşüncə ekosisteminin formalaşmasıdır.

## ➔ Rəqəmsal texnologiyalar, süni intellekt və postrəqəmsal əsrin çağırışları

İnformasiya siyasəti həmişə ictimai və ideoloji mahiyyətli olaraq qalmaqdadır. Bu sahədə "ideoloji vakuum" vəziyyəti yolverilməzdir. Əkstəqdirdə "müqəddəs yer boş qalmır" prinsipi ilə kənar qüvvələr tərəfindən zəbt edilir, manipulyasiyaya məruz qalır; Azərbaycanda informasiya siyasətinin ideoloji baza/konsepsiyasının hazırlanması gündəmdə durur.

Qlobal informasiya qarşıdurmasının sərtləşdiyi hazırkı dövrdə qarşıda duran başlıca vəzifə: vətəndaş və dövlət arasında, bütün ölkəboyu, həm "şaquli", həm də "üfüqi" səviyyələrdə, paytaxt və periferiyada bütün nöqtələri əhatə edən, miqyaslı, fasiləsiz və etibarlı informasiya-kommunikasiya siyasətini reallaşdırmaqla milli birliyin və ərazi bütövlüyünün təmin edilməsidir.

## ➔ Əziz seçicilər, qalib xalqımız!

Biz Vətən müharibəsində birləşərək ən ciddi sınaqdan çıxdıq, işğalçıların öhdəsindən gəldik, onları torpaqlarımızdan qovub çıxardıq.

Bu gün qlobal miqyaslı müharibələrin nəticələrini, maliyyə bazarlarının böhranını, artan qlobal ərzaq inflyasiyasını, beynəlxalq münaqişələrin təsirini hər bir ölkə, o cümlədən Azərbaycan da bilavasitə və dolayısı ilə hiss etməkdədir. Ölkəmizdə bütün ehtimal olunan proseslərlə bağlı düşünülmüş fəaliyyət planımız, yaxın gələcək üçün hədəflərimiz, bütün lazımi resurslarımız və ən vacibi heç bir xalqda olmayan Qalib kimliyimiz var.

Bizi birləşdirən Zəfər hissi, qalib kimlik ən böyük sərvətimiz kimi hər birimizin səylərini tələb edir. Hər birimizdən tələb edilən ilk məsələ 7 fevral tarixində seçkilərdə və səsvermədə iştirak etməkdir.

Biz öz seçki proqramımızda bütün əhalimizin həyatını yaxşılaşdıracaq, sosial ədaləti bərqərar edəcək, reallığa söykənən məqsədlər qoymuşuq. Bütün təcrübəmiz, bütün qüvvəmiz sizinlə birgə bu məqsədlərə çatmağa yönəldiləcəkdir.

Birlikdə qarşıya qoyulan vəzifələri - bütün vətəndaşların rifahının və həyat keyfiyyətinin əhəmiyyətli dərəcədə yüksəldilməsini, iqtisadiyyatın, siyasi sistemin köklü islahatlarla yeniləşməsini görəcəyik.

Xalqımız bir olanda misilsiz tarix yazır, bütün dövrlərdə istənilən çətinliyə qalib gəlib, hər dəfə daha da güclənib, müdrikləşib. Mövcud dünya düzəninin tarixə qovuşduğu, yeni xarici və daxili çağırışların ortaya çıxdığı hazırkı dövrdə də xalqımız qarşıda duran bütün ümidləri, məqsədləri reallığa çevirməyə tam qadirdir!

Biz Azərbaycanda yeni dövlətçiliyi, ictimai-siyasi quruculuğu, bütün sahələrdə sistemli islahatları nəzərdə tutan, bununla bağlı gözləntiləri olan, ən vacibi buna nail olmaq üçün bizə qoşulan, səsimizə səs verən, iştirakçılığa hazır olan hamını, hər kəsi dəvət edirik!Biz məhz onları təmsil edirik!

Böyük işlər birlikdə görülür. Biz partiya, birlik, blok, yaxud alyans deyilik. Lakin sizlərin səsi, iştirakı ilə böyük hərəkata çevrilə bilərik! Azərbaycanın ən güclü 100 ilini yarada bilərik! Bu dəfə-100%!

**Fevralın 7-də dövlətçiliyimiz tarixində ən güclü olacaq 4-cü Respublikanın təməllərinin inşasına səs verək.**

**Qalib dövlət adlı gücümüzün nümunəsi ilə yanaşı, nümunəmizin gücü ilə tanınaq!**

**Zəfər estafetini davam etdirək, məşəlini daha etibarlı, daha qətiyyətli gənclərə, Qələbə varislərinə ötürək!**

**Gəlin Zəfər erasını, IV Respublikanı, ƏDALƏTİN ZƏFƏR ÇALDIĞI AZƏRBAYCAN əsrini birgə quraq, yaradaq!**

**2024-cü, IV Respublika başlanğıc ili.**

Prezidentliyə namizədin ödənişsiz təşviqat materialı

# 2024-2031. Yeni inkişaf dövrünün əsas hədəfləri

**2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra cənab İlham Əliyevin rəhbərliyi ilə xalqımız misilsiz nailiyyətlərə imza atmışdır. Son 20 ildə həyata keçirilmiş ardıcıl və məqsədyönlü siyasi kurs ölkəmizin sürətli və dayanıqlı inkişafını, güclü iqtisadi potensialın formalaşmasını, müasir cəmiyyət quruculuğunu, vətəndaşların rifahını, təhlükəsizlik və müasir ordu quruculuğu kimi məsələlərin effektiv həllini təmin etmiş, ölkəmizin beynəlxalq nüfuzu yüksəlmiş, dünyada strateji əhəmiyyəti artmışdır.**

**Bu gün Azərbaycan xalqı formalaşmış yeni reallıqlar mühitində inamla və qürurla öz inkişafının növbəti mərhələsinə qədəm qoymuşdur. Yeni dövrdə qarşıda duran strateji vəzifə müstəqilliyimizi, əldə olunmuş nailiyyətləri daha da möhkəmləndirmək, Azərbaycanı davamlı və dayanıqlı inkişaf edən ölkəyə çevirməkdir.**




## Hər bir vətəndaşın rifahının davamlı yaxşılaşdırılması

- Hər kəsə çəkdiyi zəhmətin daha layiqli dəyərini alması üçün imkanlar yaradılması;
- Dövlətin təqdim etdiyi imkanlardan bərabər faydalanmaq üçün yeni mexanizmlər və innovativ həllərin tətbiq olunması;
- Dayanıqlı və yüksəkgəlirli iş yerlərinin ümumi məşğulluğa töhfəsinin davamlı artırılması;
- Məşğulluqda yüksək bilik və bacarığı olan peşəkarların payının əhəmiyyətli dərəcədə artırılması;
- Hər bir vətəndaşın özəl sektorda biliyinə, bacarığına və marağına uyğun iş seçimi imkanlarının artırılması;
- Cəmiyyətin ehtiyacı olan hər bir üzvünün davamlı və əlçatan qayğı ilə tam əhatə edilməsi, hər bir vətəndaşın sosial xidmətlərə əlçatanlığının davamlı yaxşılaşdırılması;
- Dövlət qayğısı və sosial müdafiə sahəsində ünvanlılığa diqqətin artırılması, əhalinin sosial təminatının gücləndirilməsi və yaşayış şəraitinin yaxşılaşdırılması.

## Qabaqcıl elmə və yüksək texnologiyalara əsaslanan dayanıqlı iqtisadi artım

- Sosial-iqtisadi modelin məzmununu və strukturunu keyfiyyətcə yeni prinsiplər əsasında qurmaqla iqtisadiyyatın sürətli və dayanıqlı artımının təmin edilməsi;
- İqtisadi idarəetmənin müasirləşdirilməsi, inkişafın hərəkətverici qüvvəsi olan yaradıcı, rəqabətqabiliyyətli və məhsuldar sahibkar sinfinin gücləndirilməsi, yeni bilik və texnologiya gətirən özəl təşəbbüslərin, o cümlədən birbaşa xarici investisiyaların təşviq olunması;
- Daha sağlam rəqabətə əsaslanan, maneəsiz, tam şəffaf və sağlam biznesin inkişafına hərtərəfli dəstək göstərilməsi, dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsi;
- İqtisadiyyatın müxtəlif sektorları, o cümlədən kənd təsərrüfatının, emal sənayesinin, bərpaolunan energetikanın, tibbin və turizmin müqayisəli üstünlüyə malik sahələrində dəyər zəncirinin formalaşdırılması;
- Ölkənin "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirakının və bu əsasda tranzit-logistika potensialının genişləndirilməsi;
- Kosmik sənayenin inkişafının davam etdirilməsi, yeni peykin orbitə çıxarılması;
- İnnovasiyayönümlü ideyaların təşviqi üçün dövlət dəstəyinin gücləndirilməsi;
- Əhalinin bütün dövlət xidmətlərinə çıxışının asanlaşdırılması və xidmətlərin səmərəliliyinin yüksəldilməsi məqsədilə rəqəmsal texnologiyaların tətbiqinin genişləndirilməsi;
- Ölkədə su ilə təminat səviyyəsinin yaxşılaşdırılması və içməli suya əlçatanlığın artırılması tədbirlərinin davam etdirilməsi;
- Ekoloji tarazlığın qorunması, bu məqsədə xidmət edən təşəbbüslərin dəstəklənməsi, ekoloji təmiz iqtisadi fəaliyyətin təşviq edilməsi.

## İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış

- Ərazilərin minalardan təmizlənməsinin davam etdirilməsi;
- Təhlükəsiz yaşayışın və dövlət idarəetməsinin təşkili;
- Ərazilərdə müasir yaşayış məntəqələrinin - şəhər, qəsəbə və kəndlərin tikintisi;
- Ərazilərin inkişafına və reinteqrasiyasına dəstək göstərən strateji əhəmiyyətli və əhatəli infrastrukturun qurulması;
- Əhalinin geri qayıdışının və dayanıqlı məskunlaşmanın təmin edilməsi, bu məqsədlə ərazilərin iqtisadiyyatının yerli və xarici dəyər zəncirinə inteqrasiyası;
- Ərazilərdə Azərbaycan xalqının milli-mədəni irsinin bərpası;
- Ərazilərdə ekoloji mühitin yaxşılaşdırılması və ekoloji təmiz texnologiyaların tətbiqi.

## Milli maraqlara söykənən müstəqil xarici siyasət

- Milli maraqlara və beynəlxalq hüquqa söykənən müstəqil və prinsipial xarici siyasətin davam etdirilməsi;
- Azərbaycan tərəfindən irəli sürülmüş 5 əsas prinsip əsasında Ermənistanla sülh müqaviləsinin imzalanması;
- Cənubi Qafqazda davamlı sülhün bərqərar olması və onun dayanıqlı inkişaf bölgəsinə çevrilməsi ilə bağlı səylərin davam etdirilməsi;
- Azərbaycanın beynəlxalq mövqelərinin daha da möhkəmləndirilməsində, beynəlxalq təhlükəsizlik arxitekturasının formalaşdırılmasında və qlobal problemlərin həllində rolunun artırılması;
- Azərbaycanın geosiyasi təhlükələrdən və hibrid təhdidlərdən qorunması;
- Azərbaycanın qeyri-münaqişə gündəliyinin formalaşdırılması;
- Qonşu ölkələrlə ikitərəfli münasibətlərin möhkəmləndirilməsi;
- Türk dövlətləri ilə əlaqələrin və Türk Dövlətləri Təşkilatının daha da gücləndirilməsi;
- Strateji tərəfdaşların və müttəfiqlərin sayının artırılması;
- Azərbaycanın iqtisadi və enerji diplomatiyasının inkişaf etdirilməsi;
- Alternativ və bərpaolunan enerji növlərinin artırılması hesabına "Yaşıl enerji" gündəliyinin irəli aparılması və iqlim dəyişikliyinə qarşı qlobal mübarizəyə töhfənin davam etdirilməsi;
- Azərbaycanın nəqliyyat və logistika mərkəzi rolunun daha da gücləndirilməsi;
- Beynəlxalq təşkilatlarda fəal iştirakın təmin edilməsi;
- Multikulturalizm və tolerantlıq kimi dəyərlərə sadiq qalaraq, dünyada hökm sürən islamofobiya və neokolonializm meyillərinə qarşı mübarizə aparılması.

## Milli təhlükəsizlik və müasir ordu quruculuğu

- Azərbaycanın bütün sahələrdə təhlükəsizliyinin, suverenliyinin, ərazi bütövlüyünün və konstitusiya quruluşunun hər cür təsirlərdən qorunması;
- Müasir müdafiə sənayesi və infrastrukturun davamlı inkişaf etdirilməsi, milli təhlükəsizlik potensialının artırılması, dövlətin müdafiə qabiliyyətinin daha da gücləndirilməsi;
- Hərbi quruculuq işlərinin və müasir ordu quruculuğu prosesinin davam etdirilməsi;
- Ölkədə ictimai-siyasi sabitliyin, qanunun aliliyinin, vətəndaşların hüquq və azadlıqlarının, qanuni mənafelərinin hər cür təsirlərdən qorunması;
- Təhlükəsiz informasiya məkanının inkişaf etdirilməsi, ölkənin kibertəhlükəsizlik potensialının gücləndirilməsi;
- Regionda sülhün və təhlükəsizliyin təmin olunması ilə bağlı tədbirlərin davam etdirilməsi və bu istiqamətdə səylərin dəstəklənməsi.

## İnnovativ və müasir təhsil, qabaqcıl səhiyyə

- Hər bir vətəndaşın innovativ, müasir təhsilə və elmə çıxışı üçün dövlət dəstəyinin artırılması;
- Ölkədə bütün növ təhsil infrastrukturunun və kadr bazasının gücləndirilməsi, bu əsasda təhsil xidmətləri ixracının dəstəklənməsi;
- Bütün təhsil ocaqlarında tədqiqat mühitinin gücləndirilməsi, tədqiqat sahəsində nəşrlərin nüfuzunun artırılması;
- Elmi kəşflərin sənayeləşdirilməsinin təşviqi, məhsul və xidmətlər ixracında texnologiyanın tam milliləşdirilməsinə nail olunması;
- Təhsilin bütün səviyyələrində təhsilalanlara rəqəmsal biliklərin aşılanması, təhsil müəssisələrində İKT əsaslı infrastrukturun inkişaf etdirilməsi;
- Azərbaycanın müasir tibbi xidmətlər göstərən, keyfiyyətli dərman və tibbi texnologiyalar istehsal edən ölkələr sırasına daxil olması;
- Tibb elminin müxtəlif sahələrində müasir tədqiqatlar aparılmasının və tibbi yeniliklər əldə edilməsinin təşviqi;
- Müasir xəstəxana infrastrukturunun gücləndirilməsi, həkimlərin peşəkarlığının və motivasiyasının artırılması, bütün bölgələrdə eyni keyfiyyətli və əlçatan tibbi xidmətlərin inkişaf etdirilməsi.

## Müasir, milli köklərə bağlı, vətənpərvər gəncliyin inkişafı

- Gənclər və idman sahəsində infrastrukturun daha da təkmilləşdirilməsi;
- Gənclərin elmə və təhsilə həvəsləndirilməsi;
- Gənclərin idmana və sağlam həyat tərzinə bağlılığının artırılması;
- Gənclərin sahibkarlıq bacarıqlarının daha da inkişaf etdirilməsi;
- Gənclərin ölkənin ictimai-siyasi həyatında rolunun artırılması;
- Könüllülük hərəkatının bütün ölkəni, o cümlədən işğaldan azad olunmuş əraziləri və orada yaşayan gəncləri əhatə etməsi.

## Demokratik inkişaf, insan hüquq və azadlıqlarının təmin edilməsi

- İnsan hüquq və azadlıqlarının təmin edilməsi və qorunması sahəsində fəaliyyətin davamlı olaraq inkişaf etdirilməsi;
- İnsan hüquqlarının təşviqi, hüquqi maarifləndirmə işinin genişləndirilməsi;
- Dövlət orqanlarının fəaliyyətində insan hüquqlarının təminatının gücləndirilməsi;
- Vətəndaş cəmiyyəti təsisatlarının fəaliyyətinə dövlət dəstəyinin davam etdirilməsi;
- Keçmiş məcburi köçkünlərin işğaldan azad edilmiş doğma yurdlarına təhlükəsiz və ləyaqətlə qayıtmaq hüququnun təmin olunması;
- Tolerantlıq və multikulturalizm dəyərlərinin təşviqi;
- Sosial cəhətdən həssas əhali qruplarının hüquqlarının müdafiəsi və inklüzivliyin təmin olunması;
- Hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququnun milli səviyyədə təmin edilməsi.

**Hörmətli seçici!**

**Yeni Azərbaycan Partiyası növbəti yeddi ilə cənab İlham Əliyevin Azərbaycan Respublikasının prezidentliyinə namizədliyini irəli sürmüş, bu təşəbbüs ölkəmizdə fəaliyyət göstərən çoxsaylı ictimai təşkilatlar tərəfindən dəstəklənmişdir.**

**İnanırıq ki, yaranmış yeni reallıqlar fonunda bu mürəkkəb missiyanın həyata keçirilməsi üçün siz cənab İlham Əliyevi dəstəkləyəcək, bununla da gələcək tərəqqi və rifahımıza dəyərli töhfənizi verəcəksiniz.**

Prezidentliyə namizədin ödənişsiz təşviqat materialı

# 7 fevral 2024

# VARLI VƏTƏNDAŞ VARLI ÖLKƏ!



## Prezidentliyə müstəqil namizəd Əliyev Fuad Ağasi oğluna SƏS VER!

**Hörmətli Azərbaycan Respublikasının vətəndaşları!**
**Əziz seçicilər!**

7 fevral 2024-cü il tarixi Azərbaycan dövlətçilik tarixində yeni mərhələnin başlanğıcı kimi əlamətdar olacaqdır.

Bu günü Azərbaycan tarixinə qızıl hərflərlə yazmaq, gələcək nəsillər üçün suveren Azərbaycanı qoruyub yaşatmaq, ata-babalarımızdan bizə əmanət qalan dövlətçiliyimizi əmin dövlət başçısına etibar etmək Sizin əlinizdə olacaqdır. Müstəqil ölkənin müstəqil vətəndaşları olaraq seçkiyə gəlmək və layiq bildiyiniz namizədə səs vermək seçki günü ölkəmiz adına görə biləcəyiniz ən şərəfli iş və böyük vəzifədir.

"Vətəndaş Birliyi" seçki qərargahı vətəndaşlarımızın gələcək rifahı, dövlətimizin əbədi müstəqilliyi və suverenliyimizin qorunması üçün təsis olunmuş və prezident seçkilərində mənim namizədliyimi irəli sürmüşdür. Vətəndaşlarımızın şəxsimə olan etimadını və inamını doğrultmaq üçün prezident seçkilərində namizəd olmağı qəbul etmiş və bu məsuliyyəti dərindən dərk edərək seçkilərdə iştirakı şərəfli vəzifə hesab etmişəm.

Bu gün nəinki bizim dostlarımız, hətta bizi sevməyən bədxahlar belə ölkəmizin qazandığı uğurlardan və qələbələrdən heyranlıqla bəhs edirlər. Azərbaycanın bugünkü inkişafının davamlılığını təmin etmək, onu məkrli təsirlərdən qorumaq hər bir vətəndaşın və dövlətə rəhbərlik edən şəxsin çiyinlərinə ali və böyük məsuliyyət qoyur.

Bu böyük missiya və şərəfli işi davam etdirmək üçün qatıldığım prezident seçkilərində mənə güvənəcəyinizə əminliyimi ifadə edirəm.

"Vətəndaş Birliyi" seçki qərargahının müəyyənləşdirdiyi və namizəd kimi rəhbər tutduğum prinsipial tezislər:

- ✓ MİLLİ BARIŞ, MƏSULİYYƏTLİ HAKİMİYYƏT.
- ✓ PREZİDENT XALQIN XİDMƏTİNDƏ OLMALIDIR!
- ✓ NEYTRAL AZƏRBAYCAN.
- ✓ İNSAN ZƏKASI NEFT VƏ QAZDAN DAHA ƏHƏMİYYƏTLİDİR.
- ✓ KORRUPSİYA YOX, YÜKSƏK QİYMƏTLƏRƏ YOX, İNHİSARÇILIĞA YOX.
- ✓ AŞAĞI VERGİ, DÖVLƏT QAYĞISI, LAYİQLİ MAAŞ.
- ✓ VARLI VƏTƏNDAŞ - VARLI ÖLKƏ.

## "Vətəndaş Birliyi" seçki qərargahının namizədi Fuad Əliyevin SEÇKİ PROQRAMI:

### İdarəetmədə islahatlar:

- ❖ Azərbaycanda dövlət idarəetməsində vətəndaş cəmiyyətlərinin iştirakının gücləndirilməsi;
- ❖ Ölkənin ərazi idarəetməsində islahatlar aparılması. Prezidentin 7 region üzrə nümayəndəliyinin formalaşdırılması. Mövcud icra hakimiyyətlərinin səlahiyyətlərinin bələdiyyələrə verilməsi;
- ❖ Nazirlər Kabinetinin səlahiyyətlərinin vitse-prezidentlik institutu ilə əvəz edilməsi;
- ❖ İdarəçilik sistemində bürokratiyanın qarşısını almaq məqsədilə dövlət idarələrinin təmərküzləşdirilməsi;
- ❖ Ordu quruculuğunda çağırış sistemindən imtina edilməsi, peşəkar döyüş qabiliyyətli ordunun qurulması.

### Sosial-iqtisadi hədəflər:

- ❖ Əhali üçün yanacaq və elektrik enerjisi qiymətlərinin 2024-cü il aprelin 1-dən aşağı salınması;
- ❖ Azərbaycanda yaşayış minimumunun, habelə sosial müavinət və pensiyaların artırılması. İnflyasiya göstəricilərini nəzərə alaraq minimum aylıq əməkhaqqının 500 manata qədər artırılması. Pensiya yaşının kişilər üçün 62, qadınlar üçün 59 yaş həddində müəyyən edilməsi.
- ❖ Müəllimlərin və həkimlərin maaşlarının artırılması ilə təhsil sistemində və tibdə korrupsiyaya qarşı ünvanlı islahatların aparılması. Həkim və müəllimlərin 5 ildən bir əlavə sertifikasiya imtahanlarının ləğv olunması;
- ❖ Ali təhsil sistemində rəqəmsal, habelə innovativ və nanotexnologiyalar üzrə mütəxəssislərin hazırlanmasına xüsusi diqqətin ayrılması. Mühəndislik və informasiya texnologiyaları kimi ixtisasların populyarlaşdırılması;
- ❖ Azərbaycan təhsilində 1985-ci ildən əvvəl dünyada ən yaxşı hesab edilən orta məktəb təhsili ənənələrinin bərpa edilməsi. Kurikulumdan imtina edilməsi;
- ❖ Vətəndaşların ödədiyi vergilərin azaldılması;
- ❖ Çörək istehsalının satışına və qiymətlərinə nəzarətin dövlətin inhisarçılığında olması;
- ❖ Bakı şəhəri və digər böyük şəhərlərdə 7 mərtəbədən yüksək binaların tikilməsinə rəsmi qadağa qoyulması.

### Beynəlxalq fəaliyyət:

- ❖ Azərbaycanın neytral ölkə statusunun rəsmi elan edilməsi;
- ❖ NATO və KTMT-yə bitərəf münasibətin saxlanması;
- ❖ Şanxay Əməkdaşlıq Təşkilatına və Avrasiya İqtisadi Birliyinə qoşulmaq istiqamətində fəaliyyət göstərilməsi və türkdilli dövlətlərlə əməkdaşlığın gücləndirilməsi. Ölkəmizin GUAM təşkilatından çıxması;
- ❖ Qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə ata-baba torpaqlarına qayıdışının beynəlxalq müstəvidə ədalətli həllinə nail olunması.

**Əziz seçicilər,**
**seçkiyə gəlin və gələcəyinizə səs verin!**
**Layiqli həyatınızı FUAD ƏLİYEV ilə qazanın!**

Prezidentliyə namizədin ödənişsiz təşviqat materialı

## Əziz seçicilər!

7 fevral 2024-cü il tarixində Azərbaycan Respublikasının vətəndaşları prezident seçkilərində iştirak edəcək və öz konstitusion hüquqlarından istifadə edərək ölkənin gələcək rəhbərini müəyyənləşdirəcəklər.

Bu seçki ilk dəfə Xalq-Ordu birliyi nəticəsində ərazi bütövlüyü və suverenliyi təmin olunmuş ölkəmizin bütün ərazisini əhatə edəcəkdir. Uşaqdan-böyüyə şanlı Vətən müharibəsi Zəfərində payı olan qalib vətəndaşlarımız bu seçkidə yeni qalibiyyət dastanı yazacaqlar.

Azərbaycanın sərhədlərinin tamlığı, suverenliyi, dünya birliyində layiqli yerini tutması, ölkədə demokratiyanın daha da inkişaf etməsi və vətəndaşlarımızın layiqli həyat səviyyəsinin təmin olunması üçün siyasi proseslərdə təmsil olunan Böyük Azərbaycan Partiyası bu seçkilərdə mənim namizədliyimi irəli sürmüşdür.

Bu böyük məsuliyyət və vəzifəni dərk edərək prezident seçkilərində iştirak edirəm. Namizədliyim üçün mənə dəstək göstərmiş minlərlə partiya üzvümüz və vətəndaşlarımızın etimadını doğrultmaq ən böyük amalımdır. Seçki Platforması ilə tanış olduqdan sonra bu seçkilərdə mənə etimad göstərəcəyinizə inanıram.

Sizləri seçkilərdə fəal iştirak etməyə dəvət edirəm.




### Böyük Azərbaycan Partiyasının Azərbaycan Respublikası prezidentliyinə namizədi

# Elşad Musayevin Seçki Platforması

# Böyük və Güclü Azərbaycan Naminə!

## Dövlətçilik və qanunçuluq

- Dövlətin vətəndaşlar qarşısında vəzifə qoymaqla yanaşı, həm də vətəndaşın hüquqlarının layiqli təminatçısına çevrilməsi;
- Demokratik hüquqi bazanın təkmilləşdirilməsi, daha demokratik və qanuni prinsiplər əsasında idarəçiliyin həyata keçirilməsi;
- Dövlətin bütün vətəndaşlar qarşısında bərabər imkanlar yaratması və hər kəsin savadı, qabiliyyəti müqabilində cəmiyyətdə mövqe qazanmasına nail olunması;
- Qanunların icra mexanizmlərinin təkmilləşdirilməsi;
- Tutduğu vəzifədən asılı olmayaraq, hamının qanun qarşısında bərabərliyinin ədalətli təmin olunması;
- Məhkəmələrdə və digər hüquq-mühafizə orqanlarında yalnız qanunlara əsaslanan qərarların verilməsinə nail olunması.

## Azərbaycanın milli təhlükəsizliyi və ordu quruculuğu

- Ölkənin milli təhlükəsizliyinin bütün sferalarda layiqli təminatı;
- Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyasının uğurla həyata keçirilməsi;
- Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsinin milli ideya kimi gündəmdə saxlanması;
- Qazax rayonuna aid 7 kəndin və Kərki kəndinin işğaldan azad olunması;
- Ermənistanın sülhə məcbur edilməsi, delimitasiya və demarkasiya proseslərinin həyata keçirilməsi;
- Zəngəzur dəhlizinin açılması, tarixi torpaqlarımızla, Qərbi Azərbaycandan deportasiya edilmiş soydaşlarımızın pozulmuş hüquqları ilə bağlı məsələlərin gündəmdə saxlanılaraq həll olunması;
- İşğaldan azad olunmuş ərazilərimizin bərpası və yenidən qurulması;
- Böyük Qayıdışın təmin olunması;
- Azərbaycanda güclü ordu quruculuğunun davam etdirilməsi, müasir silahlı qüvvələrin formalaşdırılması, Azərbaycan Ordusunun dünyanın ən güclü orduları siyahısında mövqeyinin möhkəmləndirilməsi;
- Silahlı Qüvvələrin maddi-texniki təminatının ən müasir silahlarla daha da gücləndirilməsi;
- Azərbaycanın silah-sursat istehsalının təkmilləşdirilməsi və genişləndirilməsi.

## Sosial-iqtisadi inkişaf

- İşsizliyin aradan qaldırılması, yüksək əməkhaqqı, pensiya, müavinətlər, uşaq pulu vermək üçün ölkənin daha güclü iqtisadi inkişafına nail olunması;
- Neft-qaz strategiyasının uğurla davam etdirilməsi;
- Qeyri-neft sektorunun inkişaf etdirilməsi, xırda və orta biznesin stimullaşdırılması;
- Alternativ enerji resurslarının inkişaf etdirilməsi, "yaşıl enerji" strategiyasının reallaşdırılması;
- İnvestisiyaların təşviqi, sahibkarlığın inkişaf etdirilməsi, əlverişli biznes mühitinin təmin edilməsi;
- Xüsusi mülkiyyətin toxunulmazlığına təminat verilməsi;
- Kənd təsərrüfatının inkişaf etdirilməsi üçün dövlətin maliyyə dəstəyinin təmin edilməsi, kənd təsərrüfatı infrastrukturunun yenidən yaradılması;
- Turizmin inkişaf etdirilməsi;
- Regionların sosial-iqtisadi inkişafına nail olmaq üçün infrastrukturun yenilənməsi, yeni xidmətlər və istehsal sahələrinin, yeni iş yerlərinin yaradılması, yerli səviyyədə büdcələrin formalaşdırılması;
- Yoxsulluğun aradan qaldırılması üçün dövlət siyasətinin dərinləşdirilməsi;
- Dövlətin sosial müdafiə və sosial təminat xərclərinin artırılması, əməkhaqlarının və sosial ödənişlərin artım dinamikasına nail olunması;
- Şəhid ailələrinə, əlillərə, müharibə veteranlarına, aztəminatlı vətəndaşlara, uşaqlara, tələbələrə güclü dövlət dəstəyinin təmin edilməsi;
- Uşaqların daha yaxşı qidalanması, maddi və tibbi ehtiyaclarının təmin edilməsi, anaların sosial hüquqlarının genişləndirilməsi, çoxuşaqlı ailələrə dövlət dəstəyinin artırılmasına nail olunması.

## Təhsil, səhiyyə və mədəniyyət

- Azərbaycanda müasir təhsil infrastrukturunun formalaşdırılması, təhsilin maddi-texniki bazasının gücləndirilməsi, müəllimlərin əməkhaqqının artırılması;
- Dövlət büdcəsindən təhsilə ayrılan xərclərin kəskin artırılması;
- Gənclərin xaricdə təhsil almaları üçün dövlət proqramlarının genişləndirilməsi;
- Rəqəmsal transformasiya, süni intellekt, müasir texnologiyalar kimi dövrün çağırışlarına gəncliyin cəlb olunması;
- Müasir texnologiyaların tətbiq olunmasında gəncliyin rolunun artırılması və stimullaşdırılması;
- Vətəndaşların sağlamlığının qorunması, göstərilən tibbi xidmətlərin səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi;
- Əhalinin bütün tibbi xidmətlərə və dərmanlara əlverişli şərtlərlə çıxışının təmin edilməsi;
- Səhiyyə infrastrukturunun müasir tələblərə uyğun yenidən qurulması;
- Əhalinin ödənişsiz dispanserizasiyasının davamlı təşkil edilməsi;
- İcbari tibbi sığorta sisteminin inkişafı və əhatə dairəsinin, xidmətlər zərfinin genişləndirilməsi;
- Azərbaycan mədəni irsinin qorunması üçün yeni proqramların başladılması;
- Ölkəmizin mədəniyyət infrastrukturunun davamlı inkişaf etdirilməsi;
- Kino və teatr sənətinin inkişafı üçün dövlət proqramlarının hazırlanması və tətbiqi;
- İşğaldan azad olunmuş ərazilərdə Azərbaycan xalqına məxsus mədəni irsin bərpasının davam etdirilməsi və bu irsin dünyada tanıdılması.

## Gənclər və idman

- Gənclərin cəmiyyətdə rolunun artırılması, milli ruhda tərbiyə alması, intellektual inkişafı, cəmiyyət həyatına inteqrasiyası, dövlət idarəçiliyinə cəlb olunması üçün dövlət dəstəyinin artırılması;
- Gənclərin məşğulluğu, biznes fəaliyyətinin təşkili, karyera quruculuğu üçün dövlətin diqqəti və dəstəyinin artırılması;
- Vətən müharibəsindəki şanlı Zəfərin əldə edilməsində Azərbaycan gənclərinin möhtəşəm rolu nəzərə alınmaqla vətənpərvərlik hisslərinin daha da gücləndirilməsi üçün xüsusi proqramlar həyata keçirilməsi;
- Gənclər arasında sağlam həyat tərzinin təşviqi, onların zərərli vərdişlərdən, kənar təsir və ideologiyalardan qorunması üçün proqramlar həyata keçirilməsi;
- Azərbaycan idmanına dövlət dəstəyinin daha da artırılması.

## Dövlət və ictimai münasibətlər

- Ölkədə mövcud siyasi dialoqun daha da dərinləşdirilməsi;
- Ölkənin taleyi və milli maraqlarla bağlı məsələlərdə ölkədaxili siyasi qüvvələrlə məsləhətləşmələrin aparılması;
- Kənar qüvvələrin hakimiyyətlə müxalifət, siyasi qüvvələr arasındakı münasibətlərə müdaxilə etmə cəhdlərinin qarşısının alınması;
- Ölkəmizə qarşı aparılan qərəzli və çirkin kampaniyalara qarşı iqtidar və müxalifətin birgə fəaliyyətinin təmin edilməsi.

## Xarici siyasət

- Azərbaycanın milli maraqlarına və beynəlxalq hüquqa əsaslanan müstəqil, prinsipial və təşəbbüskar xarici siyasət aparılması;
- Vətən müharibəsindən sonra ölkəmizin xeyrinə yaranmış yeni reallığın beynəlxalq müstəvidə qəbul etdirilməsi;
- Ermənistanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyini tanımağa, eyni zamanda sülh müqaviləsi bağlamağa məcbur edilməsi;
- Vətən müharibəsi dövründə və sonra Azərbaycan diplomatiyasının uğurlu fəaliyyətinin davam etdirilməsi;
- Vətən müharibəsindən sonra bəzi xarici ölkələr və beynəlxalq təşkilatlar tərəfindən Azərbaycana qarşı aparılan qərəzli və çirkin kampaniyanın qarşısının alınması üçün tədbirlər görülməsi;
- Azərbaycanın dünyanın aparıcı təşkilatlarında və tədbirlərində təmsil olunmasının, beynəlxalq təşkilatlara rəhbərlik etməsinin təmin olunması;
- Qardaş Türkiyə ilə strateji müttəfiqlik əlaqələrinin daha da dərinləşməsinin təmin olunması;
- Türk Dövlətləri Təşkilatının gücləndirilməsi üçün ölkəmizin səylərinin daha da artırılması;
- Vətən müharibəsi dövründə Azərbaycana dəstək verən ölkələrlə münasibətlərin daha da dərinləşdirilməsi;
- Azərbaycanın islam həmrəyliyi prinsipinə və müsəlman ölkələrinin legitim maraqlarına dəstək verməsi;
- Azərbaycanın mədəniyyətlərarası və dinlərarası dialoqa verdiyi dəstəyin davam etdirilməsi.

**Əziz seçici,**
**Böyük və Güclü Azərbaycan Naminə**
**ELŞAD MUSAYEVƏ**
**səs ver!**

Prezidentliyə namizədin ödənişsiz təşviqat materialı

# Böyük Quruluş Partiyasından Azərbaycan Respublikası prezidentliyinə namizəd FAZİL MUSTAFANIN SEÇKİ PLATFORMASI

(1 həyati + 50 vacib MƏSƏLƏ)

## Müavinət və pensiya sistemində irəliləyiş üçün daha nələr etmək olar?

Bizdə son illərdə sosial yardım institutunun qanunvericilikdə təkmilləşdirilməsi üçün xeyli faydalı işlər görülüb. Praktikada qarşıya çıxan boşluqdar daha çox COVID-19 pandemiyası dövründə bu mövzuda düşünməyə xeyli əsaslar verdi. Fikrimizcə, sosial yardımların məqsədi yoxsulluq göstəricilərini azaltmaq deyil, təqaüdçülər, şəhid ailələri, müharibə veteranları, tələbələr kimi həqiqətən sosial müavinətlərə ehtiyacı olan təbəqələrin insanca yaşamasını təmin etmək olmalıdır.

İş yerlərində yeni doğulmuş 3 yaşınadək uşağa qulluğa görə ödənişli sosial məzuniyyətə gedən xanımlar sosial müavinətin məbləğinin az olması səbəbi ilə uşağın 3 yaşını gözləmədən uşaq bağçasının himayəsinə verərək işləmək üçün geri dönürlər. Bir neçə illərdir ki, digər müavinətlər artırılsa da, bu müavinət növü artırılmır. Uşağa 1 yaş 6 aylığınadək 44 manat, 3 yaşınadək isə 28 manat müavinət verilir. Bu rəqəm reallıqda uşağın bir neçə günlük ehtiyacını ödəyəcək səviyyədə deyil.

Yaşa görə əmək pensiyası təyin olunan şəxslər pensiya təyin olunduqdan sonra işləməyə davam edərlərsə, ödənilən məcburi dövlət sosial sığorta haqları əlavə pensiya kapitalı formasında fərdi şəxsi hesablarda toplanır və yenidən hesablanması üçün pensiyanın üzərinə gələrək artıma səbəb olur. Ancaq tələb olunan staj və pensiya kapitalı olmayan şəxslərə yaşa görə 220 manat sosial müavinət təyin olunur və onlar təyinat aparıldıqdan sonra hər hansı fəaliyyətlə məşğul olarlarsa və ya adlarına aktiv VÖEN olarsa, sosial müavinət dayandırılır. Əgər müavinət aldığı dövrdə hər hansı fəaliyyəti olursa, həmin dövrdə aldığı müavinətin məbləği ondan tutulur, bu da sosial həssas vətəndaşların haqlı narazılığına səbəb olur.

Hərbçilər arasında müharibə ilə əlaqədar orqanizmin funksiyalarının 81-100% pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslər olarsa, onlara əlilliyə görə əmək pensiyası təyin olunur. Ancaq şəxsin orqanizminin funksiyası 31-81% pozularsa, onlara pensiya əvəzinə əlilliyə görə müavinət təyin olunur. Bu da öz növbəsində aldıqları məbləğin həcmində böyük fərq edir və narazılığa səbəb olur.

Eyni zamanda pensiyaçılara bayramlar münasibəti ilə minimum pensiya həcmində əlavə müavinət ayrılmalıdır.

Ən vacib məsələlərdən biri də pensiya yaşına çatmadan vəfat etmiş pensiyaçının sığorta fonduna yığılmış vəsaitinin inkişaf etmiş ölkələrdə olduğu kimi onun qanuni varislərinə verilməsidir. Bu problem də yaxın zamanlarda öz həllini tapmalıdır.

## Əlillərə diqqət artırılmalıdır!

Azərbaycanda əlillik əhalinin 4,3%-ni təşkil edir. Dünya əhalisi ilə müqayisədə, həm də real durumu nəzərə aldıqda çox azdır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, ölkə əhalisinin 15%-i əlil hesab edilə bilər. Əlilliyin artmasına təsir edən amillər aşağıdakılardır:

- **Tibbi amillər: Xəstəliklərin yeni tibbi üsullarla müalicəsi, müasir avadanlıqlarla xəstəliklərin diaqnostikasıdır. Bu da əvvəlki müəyyənləşdirilə bilməyən xəstəliklərin tez bir zamanada müəyyənləşməsinə, bu xəstəliklərdə yaşama faizinin yüksəlməsinə və əlillik əlamətlərinin saxlanmasına gətirib çıxarır.**
- **Demoqrafik amillər: Əhali sayının artmasıdır.**




- **Sosial amillər: Dünya ölkələrində gedən sürətli sosial-iqtisadi inkişaf nəticəsində avtomobillərin və digər mexanizmlərin sürətlə artması, travmaların sayının artmasına gətirib çıxarır. Travmadan başqa, şəhərləşmə (urbanizasiya) nəticəsində stress faktorları həddən artıq yüksək olur ki, bu da xəstəliklərin artımına səbəb olur. Həmçinin oturaq həyat tərzi, dayaq hərəkət sistemi xüsusilə onurğa xəstəliklərinin artmasına səbəb olur. Eyni zamanda müharibə və silahlı münaqişələr də xəstəliyin tezliyinin və sonda əlilliyin artmasına gətirib çıxarır.**
- **Təbii amillər: Dünyada baş verən iqlim dəyişikliyi, təbii fəlakətlər və ekoloji şərait xəstəliklərin, travmaların, nəticədə əlilliyin artmasına birbaşa təsir göstərir. Beynəlxalq təşkilatların məlumatlarına görə, dünya ölkələrində, eləcə də ölkəmizdə əlilliyin cavanlaşması və orta ömür uzunluğunun artması prosesi gedir ki, bu da əlillərin əlillik vəziyyətində olma dövrünün artmasına və nəticədə əlilliyin sayına öz təsirini göstərir.**

Əlilliyin qiymətləndirilməsindəki qüsurlar aşağıdakılardır:

- **İlkin və təkrar əlilliyin qiymətləndirilməsi üçün on iş günü ərzində cavab verilməli olduğu halda aylarla cavab verilmir. Bu müddət bəzən 1 ilə qədər uzanır. Bu da iki səbəbdən olur. Birincisi, yerlərdə TSEK-lərin formalaşmaması, formalaşmış TSEK-lərdə tam tərkib olmamasıdır. Bu da TSEK-lərin iş yükünü artırır və qiymətləndirmə gecikir. İkincisi, təkrar əlilliyin qiymətləndirilməsindədir. Qanuna görə, əlillik müddəti bitdikdən 6 ay ərzində əlillik bərpa olunarsa, pulu ödənilir. TSEK-lər də qəsdən əlilliyi 6 aydan artıq müddətə qiymətləndirirlər ki, əlil həmin imkandan məhrum olsun, bu da əlil vətəndaşlar arasında haqlı narazılıq yaradır.**

Əlilliyin təyin olunması üçün əyani müayinənin olması vacibdir. Kompüter üsulu ilə əlilliyin təyin olunmasını mütərəqqi üsul adlandırsalar da, qeyri-rəsmi olaraq əyani üsulla müayinəyə üstünlük verirlər. Bu da TSEK-lərin azlığından və iş yükünün çoxluğundan asılı olaraq şikayətlərə vaxtında baxılmadığına görə haqlı narazılıqlar yaradır. Bunun üçün rayonlarda TSEK-lərin sayını artırmaq və lazımi kadr və avadanlıqlarla komplektləşdirmək, əlilləri əyani müayinəyə cəlb edərək şikayətin qarşısını almaq olar.

## Şəhid ailələri və qazilər həmişə ölkənin ən imtiyazlı insanları olmalıdır!

Şəhid ailələrinə və qazilərə dövlət əhəmiyyətli səviyyədə dəstək mexanizmləri yaradıb və bütün sahələrdə bu dəstək gerçəkləşdirilir. Onların ailə üzvləri işlə, mənzillə təmin olunmuş, birdəfəlik müavinətlər almışlar. Bunlarla yanaşı, aşağıda qeyd olunan bir sıra addımların da atılması zəruridir:

- **Şəhid anası medalı təsis edilsin.**
- **Bütün şəhid ailələrinə yaşayış sahəsinin ölçüsündən asılı olmayaraq mənzil verilsin.**
- **Şəhid övladlarının təhsil güzəştinə yaş məhdudiyyəti götürülsün.**
- **Şəhid ailələri və Qarabağ əlillərinin, müharibə veteranlarının sosial məişət problemlərinin həlli üçün bir dövlət qurumu müəyyənləşməlidir, çünki təcrübə göstərdi ki, "Yaşat" fondu bu işin öhdəsindən gəlməkdə yetərsiz qalır.**
- **Müharibə şəraitində və ya döyüş tapşırığını yerinə yetirərkən ağır yaralanaraq müəyyən müalicədən sonra dünyasını dəyişən vətəndaşlara şəhid statusunun şamil edilməsi zəruridir.**
- **Qazilərin müalicəsi və ləyaqətli işlə təmin olunması dövlətin ən vacib prioriteti sayılmalıdır.**

## Sağlam ailə necə dəstəklənə bilər?

Ailə institutu ciddi böhran içindədir. İntiharların və boşanmaların sayının ilbəil artması bu sahədə siyasətə yenidən baxılmasını tələb edir. Burada aşağıdakı addımların atılmasını zəruri hesab edirik:

- **Çoxuşaqlı ailə anlayışına yenidən baxılsın və bu say 5-dən 3-ə endirilsin.**
- **5 yaşadək uşaqlar şəhərdaxili ictimai nəqliyyatdan pulsuz istifadə etsinlər.**
- **3 və daha çox uşağı olanlara güzəştli ipoteka şamil olunsun.**

Qadınların orta əməkhaqqı kişilərə nisbətən 60% təşkil edir. Bu səbəbdən onların pensiya kapitalı da az olur. Qadınların pensiya kapitalına əmsal tətbiq edilsin və bu əmsal uşaqların sayına görə diferensiallaşsın.

- **Dəmir çatışmazlığını kütləvi şəkildə aradan qaldırmaq üçün onun zənginləşdirilməsi proqramı tətbiq edilsin;**
- **Uşaq bezləri və uşaq yeməkləri gömrük rüsumundan və əlavə dəyər vergisindən azad olunsun;**
- **1-4-cü sinif şagirdlərinə dövlət məktəblərində isti yemək verilsin;**
- **2 yaşadək uşaq əmizdirən analara müavinət verilsin;**
- **Qız uşaqlarının təhsil haqqı dövlət büdcəsindən ödənilsin;**
- **Autizmi olan uşaqlar üçün reabilitasiya mərkəzləri yaradılsın, analarına uşaqlar 7 yaşa çatana qədər sosial məzuniyyət verilsin;**
- **Özəl idman salonlarında uşaqlar üçün 50%-lik güzəşt tətbiq edilsin;**
- **Selektiv abortların qarşısının alınması və demoqrafik artımın stimullaşdırılması üçün hər doğulan 2-ci qız uşağına görə 10 min, 3-cü və sonrakı hər qız uşağına görə 15 min manat birdəfəlik müavinət verilsin.**

Uşaqpulu müavinəti valideynlərin biri əmək müqaviləsi ilə çalışan muzdlu işçi olduğu halda gəlir vergisindən azad edilmə şəklində verilə bilər. Yəni 1-ci uşağa görə 1%, 2-ci uşağa görə 2%, 3-cü uşağa görə 3% olmaqla gəlir vergisindən (14%) azaldılma şəklində ailənin gəliri artırıla bilər. 4 və daha çox uşağı olanlar isə tamamilə gəlir vergisindən azad edilə bilər.

Prezidentliyə namizədin ödənişsiz təşviqat materialı




Azərbaycan Respublikası prezidentliyinə namizəd, Milli Cəbhə Partiyasının sədri, deputat

# Razi Nurullayevin Seçki Platforması

***Azərbaycan yeni seçkilərə öz suverenliyini və sərhədlərini tam bərpa edən bir ölkə kimi gedir. İkinci Qarabağ müharibəsində qazanılan tam zəfər ölkənin sosial dövlət olaraq inkişafını zəruri edir. Bu inkişaf xalqımızı dünyanın ən varlı və xoşbəxt xalqlarından biri etmək missiyası daşımalıdır. Bunu əsas götürərək, Milli Cəbhə Partiyası və onun prezidentliyə namizədi Razi Nurullayev Azərbaycanın sosial dövlət olaraq inkişafını və sosial demokratiyanın cəmiyyətdə bərqərar olmasını vacib hesab edir.***

***Azərbaycan Respublikasının prezidentliyinə namizəd olaraq Razi Nurullayev inanır ki, ölkənin gələcəyi və inkişafı, sosial layihələrin həyata keçirilməsi indi qarşımızda duran əsas vəzifədir. İnsan ləyaqətinin uca tutulması, yüksək təhsil, əhalinin yaşlı təbəqəsinin sosial hüquqlarının qorunması və sosial təminatının artırılması, gənclərin iş və sosial həyatının təminatı, asudə vaxtının səmərəli təşkili bizim üçün əsas prioritetdir. Biz bununla sosial-demokratiya ideyasını ölkədə gerçəkləşdirəcək, savadlı, sosial hüquqları qorunan və təminatı olan cəmiyyət formalaşdıracağıq. Bunun üçün kompleks islahatlar aparılmasını zəruri hesab edirik.***

***Azərbaycanın inkişafı və perspektivləri ideoloji prinsiplərin təbliği, sosial dövlətin inkişafı, təhsil, sosial təminatlar, biznes mühitinin keyfiyyətinin yaxşılaşdırılmasından keçir.***

## 10. Turizm sahəsində

Qarabağda geniş quruculuq, abadlıq işləri, müasir standartlara cavab verən infratsruktur yaradılır.

- Bununla yanaşı, dünya standartlarına cavab verən turizm infrastrukturunun yaradılması ilə həm dövlətin gəlirlərini artırmaq, həm də Qarabağla bağlı təbliğat informasiya sistemi qurmaq mümkün olacaq.
- Siyəzən ərazisində yeni bir turizm kompleksi - Azərbaycanın Antaliyasını yaratmaq turizmin inkişafına böyük töhfə olacaqdır. Sumqayıtdan başlayaraq Şabrana, oradan Nabrana qədər Xəzərsahili ərazi turizmin inkişafı üçün çox əlverişlidir. Sahələr su, işıq, qaz və kanalizasiya sistemini özündə birləşdirən turizm infrastrukturu ilə hazır paket şəklində simvolik - 1 ABŞ dolları məbləğində sərmayəçilərə təqdim ediləcək və onlar heç bir idarənin qapısını döyməyəcəklər. Ən azı 100 (yüz) min iş yeri yaradılacaq və dövlət böyük gəlir əldə edəcək.
- Bütün rayon və şəhərlərdə mövcud müalicə-istirahət mərkəzlərinin bərpası və hər bir inzibati rayon ərazisində yenilərinin yaradılması proqramımıza daxildir. Sanatoriyaların bərpası və yenilərinin yaradılması hər il iki milyondan çox vətəndaşımızın xarici sanatoriyalara getməsinin qarşısını alacaq, o cümlədən yaxın yeddi il ərzində, əlavə olaraq yarım milyondan çox əcnəbinin də ölkəmizə gəlməsinə imkan yaradacaqdır. İlk ilin prioritetlərinə Bakının Pirşağı qəsəbəsindəki "Qızıl-qum" sanatoriyası, Kürdəmir rayonunda yerləşən Mollakənd Ulusu sanatoriyası, Masallıda yerləşən və hazırda cəmi 200 nəfərə xidmət göstərə bilən İstisu "Fatimeyi-Zəhra" Şəfa Sanatoriyasının tutumunun 10 (on) min nəfər turistə çatdırılması, Qubanın son yaşayış məntəqəsi olan Xaltan kəndi yaxınlığındakı meşəlikdə, Çarxaçu çayı dərəsində istisu sanatoriyasının tikintisi və infrastrukturun yaradılması daxildir. Hər il Xaltan kəndinə 3 minə qədər insan axışır. Heç bir şəraiti və avtomobil yolu olmayan, cəmi iki təbii vannaya malik bu yerə 3-4 mindən çox adam axışırsa, sanatoriya tikilərsə, 50 minə qədər insanın burada müalicəyə gələcəyi şübhəsizdir.
- Normal infrastrukturla Nabrana bir il ərzində ən azı əlavə 200 min xarici turist cəlb etmək mümkündür. Növbəti illər ərzində bu rəqəm yarım milyon turistə də çata bilər. Bunun üçün proqramımıza Nabranın abadlaşdırılması, onun dənizkənarı bataqlıqdan, qamışlıqdan və çirkab sulardan təmizlənməsi daxildir. Özəl sektor xüsusi vergi və güzəştlərdən faydalanaraq turizm obyektləri tikəcək. Nabranda turizmin inkişafı ilə əlaqədar 50 (əlli) min iş yerinin yaradılması hədəfimizdir.

## 11. Vətəndaşların asudə vaxtlarının səmərəli təşkili və yaradıcılıq imkanlarının artırılması

Azərbaycan vətəndaşı rahat və xoşbəxt yaşamağa, istirahət etməyə layiqdir. Ölkəmizin iqtisadi inkişafı və gəlirləri imkan verir ki, dövlət öz vətəndaşının istirahətini təşkil etsin. Vətəndaşların asudə vaxtlarının səmərəli təşkili və yaradıcılıq imkanlarının artırılması ilə onların layiq olduqları istirahət təmin ediləcək.

- Azərbaycanın hər bir rayon və şəhərində 10-15 hektar ərazidə sənətkarlıq və yaradıcılıq güşələri salınacaq. Burada şairlər, yazarlar üçün yaradıcılıq evləri, rəssamlıq və sənətkarlıq emalatxanaları, ixtira evləri, sərbəst çıxışlar məkanı, kinozal və sinema klublar, kulinariya məkanları, musiqi evləri, rəqs klubları, yaşlıların təhsili mərkəzləri, xarici dil öyrənmə mərkəzləri və digər xidmətlər yerləşdiriləcək.
- Fiziki məhdudiyyətli insanlar da bizim proqramımızda xüsusi yer tutur. Azərbaycan Əlillər Cəmiyyəti nəzdində xidmətlər şəbəkəsinin yaradılmasını nəzərdə tuturuq. Bunun üçün Azərbaycanın hər bir rayonunda və şəhərində özəl sektorun iştirakı və payçılığı ilə ancaq əlillərin çalışacağı restoran, kafelər və bir sıra turizm obyektləri yaradılacaq.

## 12. Əhalinin informasiya, oxuma və rəsmi məlumatandırma imkanlarının əlçatanlığının təminatı üçün

Azərbaycan xalqının dəqiq informasiya təminatı, oxuma mədəniyyətinin qorunub-saxlanması üçün onun mütaliə etməsi vacibdir. Bunun üçün iki tətbiq nəzərdə tuturuq.

- Ən ucqar kəndlərdə belə 7 il ərzində kitabxanalar müasir texnoloji üsullarla bərpa ediləcək və yeni kitablarla təmin olunacaq.
- Dövlət qəzetlərindən birinin tirajının artırılması yolu ilə hər bir Azərbaycan ailəsinə günaşırı nəşr olunan qəzetin çatdırılması təşkil ediləcək. Bu nəşrin içərisində ədəbiyyat, mədəniyyət, siyasət, sosial həyat, qanunlar, hüquqi məsləhətlər, dövlət siyasəti, sağlamlıq və sair bölmələr olacaq.

Bu xidmət vasitəsilə 10 000-ə yaxın iş yeri açılacaq.

## 13. Struktur islahatları

Hökumətdə çevik idarəetmənin formalaşması üçün struktur islahatlarının aparılması zəruridir. Dövlət qurumlarının ayrı-ayrı formalarda eyni xidməti yerinə yetirməsi, səlahiyyətlərdəki kəsişmələr səmərəli fəaliyyətə imkan vermir. Vətəndaş nə vaxt hansı quruma müraciət etməli olduğunu bilmir.

Dövlət qurumlarının sayının azaldılması, səlahiyyətlərindəki təkrarçılıq və kəsişmələrin aradan qaldırılması ilə struktur islahatları aparılacaq və yeni, çevik idarəetmə sistemi yaradılacaq.

## 14. İnnovasiyaların və yeni texnologiyaların inkişafı

İnnovasiyalar və İxtiraçılıq İnstitutunun yaradılması və mövcud mərkəzlərin və digər qurumların bu çətir altında birləşdirilməsi vacibdir.

Əlavə olaraq texnologiya sahəsində ən yaxşı şirkətlər, laboratoriya, universitetlər və ölkəboyu yaradılmış sənaye və texnologiya parkları ilə də birgə konsorsiumlar yaradılaraq bu və ya digər texnoloji brendin yaradılması və istehsalı üzərində iş aparılması günün tələbidir.

Məqsəd rəqabətədavamlı və yüksək texnologiyalara əsaslanan məhsulların Azərbaycan brendi altında dünya bazarına çıxarılmasıdır.

Problemin həllinə gedən yollardan biri kimi adıçəkilən institutun yaradılmasını və bu işə müxtəlif ölkələrdən xarici mütəxəssislərin də cəlb edilməsini həyata keçirəcəyik.

## 15. Özəlləşdirmə çeklərinin yenidən dövriyyəyə daxil edilməsi

Özəlləşdirmə çekləri 1996-cı ildə mərhum Prezident Heydər Əliyev tərəfindən 450 nömrəli fərman ilə 1997-ci ilədək anadan olmuş bütün ölkə vətəndaşlarına əmlak payı olaraq verilib.

Hardasa 1 milyon 600 mindən çox özəlləşdirmə çeki ayrı-ayrı vətəndaşlarda saxlanılır. Özəlləşmənin məqsədi vətəndaşları da mülkiyyət, müxtəlif müəssisələrdə payçı etmək idi. Özəlləşmə prosesi tam olaraq ayrı-ayrı şəxslərin müxtəlif maxinasiyalarla birdən-birə varlanmasına səbəb oldu.

Hakimiyyətimiz tərəfindən özəlləşdirmə çekləri yenidən dövriyyəyə buraxılacaq və əlində çekləri olan hər bir şəxs müxtəlif müəssisələrdə payçılara çevriləcəklər.

## 16. Yerli avtomobil brendi

Bu gün Azərbaycanda avtomobil istehsalı sadəcə xaricdən gətirilən komponentlər hesabına yığılır və istehsal olunan avtomobillər Azərbaycan brendi sayılmır. Hazır komponentlərdən yığıldığı üçün də işçi qüvvəsi azdır.

Buna görə də tam Azərbaycan brendi olan və keyfiyyəti ilə xarici analoqlarından geri qalmayan avtomobil brendinin yaradılması üçün bütün yerli və xarici qüvvələr səfərbər ediləcək. Sonrakı mərhələdə isə yerli brend olan elektrik avtomobillərinin, yük maşınlarının, kənd təsərrüfatı texnikasının və minik avtobuslarının istehsalı həyata keçiriləcək.

Əlavə olaraq bu sahədə dəyər yaratmaq istəyən hər bir iş adamına dövlət tərəfindən maliyyə daxil olmaqla bütün köməkliklər göstəriləcəkdir.

Prezidentliyə namizədin ödənişsiz təşviqat materialı

# ƏDALƏT, HÜQUQ, DEMOKRATİYA



## HƏSƏNQULİYEV QÜDRƏT MÜZƏFFƏR OĞLU

# ƏHDİMİZ ƏDALƏT, HÜQUQ, DEMOKRATİYADIR

**Əziz həmvətənlər,**
**Dəyərli seçicilər,**

*Azərbaycan Respublikasının prezidentliyinə qeydə alınmış namizəd Qüdrət Müzəffər oğlu Həsənquliyevin "Böyük dəyişikliklər" adlanan seçki platformasının dövlət quruculuğu ilə bağlı hissəsini müzakirənizə təqdim edirik:*

## Din və vicdan azadlığı sahəsində:

- Din və vicdan azadlığının tam təmin olunması, dini icmaların özlərinə lider seçmək hüququnun tanınması, onların qanunla qadağan olunmayan fəaliyyətinə dövlətin müdaxiləsinə yol verilməməsi;
- Dinin siyasiləşdirilməsinin qarşısının alınması, dini fanatizmə və ekstremizmə qarşı mübarizənin və dini maarifçiliyin gücləndirilməsi, cəmiyyətdə sosial ədalətin təmin edilməsi;
- Bütün dövlət idarə, müəssisə və təşkilatlarında dini fəaliyyətin qadağan olunması;
- Ailə, milli-mənəvi və dini dəyərlərin qorunması istiqamətində kompleks qərarların qəbulu.

## İqtisadiyyat və sosial siyasət sahəsində:

- Ciddi iqtisadi islahatların həyata keçirilməsi, bu məqsədlə xaricdən yüksəkixtisaslı məsləhətçilərin dəvət olunması;
- Dövlətin nəzarət etdiyi iqtisadiyyatdan azad bazar iqtisadiyyatı modelinə keçidin təmin edilməsi;
- Dövlətin sahibkarlıq fəaliyyəti ilə məşğul olmasına yol verilməməsi, iqtisadiyyatda yalnız tənzimləyici rol oynaması;
- Sahibkarlığın inkişafına daha əlverişli şəraitin yaradılması, sahibkarlıq fəaliyyətinə əsassız, kənar müdaxilələrin tamamilə aradan qaldırılması, sahibkarların hüquqlarının qorunması;
- Xidmət sahələrinin, "Azərsu", "Azəristilik", "Azərişıq" və "Azəriqaz" səhmdar cəmiyyətlərinin bu sahədə böyük təcrübəyə malik özəl şirkətlərə uzunmüddətli idarəetməyə verilməsi, yaxud özəlləşdirilməsi;
- Dövlət müəssisələrinin özəlləşdirilməsi və ya uzunmüddətli idarəçiliyə verilməsi, inhisarçılığa son qoyulması;
- 2027-ci ildən başlayaraq hər il Bakı şəhərində 10 yeni metro stansiyasının istifadəyə verilməsi, Bakı kəndlərinə, hava limanına və Sumqayıt şəhərinə tramvay xətlərinin çəkilməsi, bu məqsədlə xarici investorlarla danışıqlara başlanılması;
- Bakı-Tbilisi-Ankara -İstanbul sürət qatarının tikintisi üçün Türkiyə ilə (maglev) dəmiryol xəttinin çəkilməsinə dair danışıqlara başlanılması;
- Bütün qeydiyyatsız evlərin bir il ərzində sənədləşdirilməsi.Təhlükəli ərazilərdə yerləşən evlər üçün dövlət tərəfindən kompensasiya ödənilməsi;
- Kənd təsərrüfatının inkişafına dövlət yardımının genişləndirilməsi, bu istiqamətdə şəffaflığın təmin edilməsi;
- Mülkiyyətin toxunulmazlığının təmin olunması;
- İqtisadiyyatın və dövlət büdcəsinin gəlirlərinin neft amilindən asılılığının azaldılması üçün məqsədyönlü proqramların qəbul edilməsi;
- Tədricən sərbəst (üzən) məzənnəyə keçilməsi, xarici bankların Azərbaycana dəvət olunması;
- Azərbaycanın bütün rayon və kəndlərinə təbii qaz verilməsinin təmin edilməsi;
- Dövlət Neft Fondunun (DNF) fəaliyyətində şəffaflığın və fondun vəsaitlərindən səmərəli istifadənin təmin olunması;
- DNF-nin Müşahidə Şurasının tərkibinin yarısının parlamentdə təmsil olunan müxalifət partiyalarının təqdim etdiyi şəxslərdən təşkil olunması;
- Ölkənin daxili siyasətinə xarici təsirlərin qarşısının alınması üçün, həmçinin inhisarçılığa yol verməmək məqsədilə Dövlət Neft Şirkətinin və AZAL-ın ən azı 3 hissəyə bölünərək özəlləşdirilməsi;
- Sahibkarlarla məmurların təmasını minimuma endirmək üçün elektron əlaqə sisteminin inkişaf etdirilməsi;
- Xarici investisiyaların qeyri-neft sektoruna cəlb olunması;
- Gəlirlərin leqallaşdırılması barədə qanunun qəbul olunması;
- Kölgə iqtisadiyyatına son qoymaq məqsədilə hər bir vətəndaşa qanunun qüvvəyə minməsindən keçən 6 ay ərzində öz gəlirlərinin və əmlaklarının mənşəyini göstərmədən onların məbləği barədə müvafiq dövlət qurumlarına məlumat vermək hüququnun tanınması;
- Əmlakı və gəlirləri barədə hesabat verməyən vətəndaşların qanunla məsuliyyətə cəlb olunması;
- Kənd rayonlarında istehsal və emal müəssisələrinə yatırılan investisiya geri götürülənədək həmin müəssisələrin vergilərdən tam azad edilməsi, növbəti 5 ildə isə 50%-dək vergi güzəştlərinin tətbiq olunması;
- Turizmin inkişafına dair proqramların həyata keçirilməsi;
- Ölkənin ərzaq təhlükəsizliyi üçün yerli istehsalın stimullaşdırılması, xaricdən idxal olunan məhsulların keyfiyyətinə nəzarətin gücləndirilməsi;
- Daxili bazarın və milli istehsalçıların mənafelərinin qorunması;
- Korrupsiya və rüşvətxorluğa qarşı ciddi və sistemli mübarizənin aparılması;
- Vergi intizamının gücləndirilməsi;
- Kiçik sahibkarlar üçün 5% gəlir vergisinin nəzərdə tutulması;
- Dövlət qulluqçularının əməkhaqlarının onların layiqli həyatını təmin edə biləcək səviyyəyə çatdırılması;
- Pensiyaların minimum həddinin orta aylıq əməkhaqqının 80%-nə çatdırılması;
- Qadınlar üçün pensiya yaşının 59-a, kişilər üçün 61-ə endirilməsi;
- Pensiya yaşına çatmış şəxslər vəfat etdikdə onların pensiya fondunda toplanmış vəsaitlərinin varislərinə verilməsi;
- Əhalinin mənzil probleminin həlli üçün dövlət səviyyəsində proqramların həyata keçirilməsi;
- İpoteka kreditləşməsi üçün hər il dövlət büdcəsindən ayrılan vəsaitin artırılması;
- Sosial müdafiəyə ehtiyacı olan müxtəlif təbəqələrə (qaçqın və köçkünlərə, evsiz insanlara, əlillərə, kimsəsiz uşaqlara və s.) dövlət qayğısının artırılması, uşaqlara "uşaqpulu" adlanan müavinətlərin verilməsi;
- Əhalinin qaz, su və elektrik enerjisi ilə normal qaydada təmin edilməsi və onların qiymətlərinin əhalinin alıcılıq qabiliyyətinə uyğunlaşdırılması;
- 15 yaşınadək uşaqlar üçün geyim əşyalarının və digər ləvazimatların, o cümlədən uşaq qidalarının vergidən və gömrük rüsumundan azad edilməsi, bu tip məhsulları istehsal edən müəssisələrə vergi güzəştlərinin müəyyən olunması.

## Ekologiya sahəsində:

- Ekologiya və ətraf mühitin qorunması ilə bağlı xüsusi dövlət proqramı qəbul edilməsi və həyata keçirilməsi;
- Ermənistanda yerləşən "Metsamor" Atom-Elektrik Stansiyasının fəaliyyətinin dayandırılması üçün bütün diplomatik vasitələrdən istifadə edilməsi;
- Bakı şəhərində standartlara uyğun gəlməyən yaşayış məskənlərinin sakinlərinin elan olunmuş müsabiqədə qalib gələn şirkətlər tərəfindən mənzillərlə təmin olunması, həmin ərazilərdə yaşayiş evlərinin, parkların, istirahət guşələrinin və yaşıllıq zolaqlarının salınması, sadalanan işləri həyata keçirən şirkətlərə güzəştli kreditlərin verilməsi;
- Ölkənin müxtəlif bölgələrində məhv edilmiş meşələrin və yaşıllıq zolaqlarının bərpa edilməsi və yenilərinin salınması;
- Dövlət Neft Şirkətinə məxsus olan istismarı dayandırılmış neft quyularının yerləşdiyi ərazilərin təmizlənməsi və abadlaşdırılması;
- Neftayırma zavodunun, ətraf mühiti zəhərləyən digər müəssisələrin Bakı şəhərinin mərkəzindən kənara çıxarılması.

## Beynəlxalq əlaqələr və xarici siyasət sahəsində:

- Azərbaycanın qonşu və region dövlətləri ilə bərabərhüquqlu münasibətlərinin qorunması və inkişaf etdirilməsi;
- Qərbin siyasi dəyərlərinin və hüquq sisteminin mənimsənilməsinin təmin edilməsi;
- Beynəlxalq (Ümumdünya Ticarət Təşkilatı) və regional iqtisadi təşkilatlara üzv olmaq;
- Avropa İttifaqı modelində Türk-Slavyan Respublikaları İttifaqı ideyasının genişləndirilməsi, bu ittifaqa keçmiş sovet respublikalarının və İranın daxil olmasının mümkünlüyünün təbliği;
- Azərbaycan Respublikasının Rusiya Federasiyası, eləcə də Rusiyanın sərhədyanı subyektləri, o cümlədən türk respublikaları ilə birbaşa əlaqələrinin inkişaf etdirilməsi, bu respublikalarda yaşayan xalqlarla dostluq münasibətlərinin qorunub saxlanılması və inkişaf etdirilməsi;
- Azərbaycandan kənarda yaşayan vətəndaşlarımızın haqlarının beynəlxalq hüquq normaları çərçivəsində qorunmasının təmin edilməsi;
- İranla münasibətlərdə Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın öz dilləriində yazıb-oxumaq və mədəniyyətlərini inkişaf etdirmək hüququnun daim gündəmdə saxlanılması;
- Azərbaycanın Türkiyə və digər türk dövlətləri, eləcə də türk toplum və qurumları ilə siyasi, hərbi, elmi, mədəni, iqtisadi əlaqələrinin genişləndirilməsi;
- Türkiyə ilə ümumi bazara keçidlə bağlı danışıqlara başlanılması;
- Təhlükəsizlik sahəsində Türkiyə, Rusiya, İsrail, Pakistan və region ölkələri ilə əməkdaşlığın genişləndirilməsi.

Prezidentliyə namizədin ödənişsiz təşviqat materialı

# Respublikaçılar seçkilərdə Trampa alternativ görmürlər

**ABŞ-də Respublikaçılar Partiyasının nümayəndələri keçmiş dövlət başçısı Donald Trampı 2024-cü il prezident seçkilərində partiyanın rəqabətsiz namizədi kimi tanıyıblar. Bu barədə NBC News telekanalı xəbər verir.**




Partiyanın Milli Komitəsinin üzvü Morton Blekvell bununla bağlı deyib: "Qaydalar dəyişdirilə bilər, lakin bu, yəqin ki, ədalətli olmayacaq və bunun baş verəcəyini düşünmürəm".

O əlavə edib ki, hətta məhkəmə də Trampın prezidentlik yarışında qalib gəlməsinə mane ola bilməz.

Keçmiş prezidentin sabiq rəqibi Ron Desantis ilə yaxın vaxtlara qədər işləmiş Ken Kuççinelli isə bildirib ki, Trampı respublikaçı namizəd kimi vəzifədən salmaq faktiki olaraq mümkün deyil.

Bundan əvvəl Trampın Respublikaçılar Partiyasından əsas rəqibi Niki Heyli prezidentlik yarışını tərk etmək fikrində olmadığını və "son seçki məntəqəsi bağlanana qədər" mübarizə aparmaq niyyətində olduğunu vurğulayıb.

## Məhkəmə Kapitoliyə hücumla bağlı işin baxılmasını təxirə salıb

Kolumbiya dairəsinin federal məhkəməsi Donald Trampın 2021-ci ilin yanvarında prezident seçkilərində uduzmasına baxmayaraq, hakimiyyəti saxlamaq cəhdi ilə bağlı işin mahiyyəti üzrə əvvəllər martın 4-nə təyin edilmiş məhkəməni təxirə salıb. Bu barədə hakim Tanya Çatkenin yaydığı yazılı açıqlamada deyilir. Məhkəmə yeni tarixlər təyin edəcək.

O, məhkəmənin yeni tarixlərinin nə vaxt açıqlanacağını dəqiqləşdirməyib. Hakim də niyə belə qərar verdiyinin səbəbini bildirməyib.

Xatırladaq ki, 2023-cü il avqustun sonunda Çatken dinləmə tarixini 4 mart 2024-cü il təyin etmişdi.

"The Washington Post" qəzetinin qeyd etdiyi kimi, qərar apellyasiya məhkəməsinin Trampın prezident kimi etdiyi hərəkətlərə görə qanuni təqibdən immunitetinin olub-olmaması məsələsinə baxması ilə bağlıdır. Siyasətçinin 2021-ci ilin yanvarında Kapitoli təpəsində baş verən iğtişaşlarla bağlı müdafiəsi onun belə toxunulmazlığa malik olduğunu israr edir.

Paytaxt məhkəməsində respublikaçı namizəd 2020-ci ilin noyabrında keçirilən seçkilərdə uduzmasına baxmayaraq, faktiki olaraq qanunsuz hərəkətlərlə hakimiyyəti saxlamaq cəhdində ittiham olunur. Tramp əvvəllər heç bir ittiham üzrə təqsirli olduğunu etiraf etməyib.

"Rolling Stone" jurnalının qeyd etdiyi kimi, eks-prezidentə qarşı 44-ü federal, 47-si isə ştat səviyyəsində olmaqla ümumilikdə 91 ittiham irəli sürülüb.

Tramp 2024-cü ildə keçiriləcək prezident seçkilərində iştirak etmək niyyətindədir. Rəy sorğularının nəticələrinə görə, onun Respublikaçılar Partiyasından ən yüksək hökumət vəzifəsinə rəsmi namizəd olmaq şansı böyükdür.

## Trampın Nobel Sülh Mükafatına namizədliyi irəli sürülüb

Bu arada ABŞ-nin keçmiş prezidenti Donald Tramp "İbrahim sazişləri"nin imzalanmasına kömək etdiyinə görə Nobel Sülh Mükafatına namizəd olub. Bu barədə "Fox News" telekanalı məlumat yayıb.

Sabiq prezidentin namizədliyi Nümayəndələr Palatasının üzvü Klaudiya Tenni tərəfindən irəli sürülüb.

Tenninin dediyinə görə, Donald Tramp təxminən 30 ildə Yaxın Şərqdə ilk yeni sülh sazişlərinin imzalanmasında vasitəçilik etməkdə mühüm rol oynayıb.

2020-ci ilin sentyabrında Vaşinqtonda ABŞ-nin vasitəçiliyilə İsraillə Bəhreyn və BƏƏ arasında münasibətlərin normallaşmasına dair sənədlər imzalanıb. Razılaşma, islam, xristianlıq və yəhudilik də daxil olmaqla, bütün İbrahim dinlərinin möminlərinin mənəvi əcdadı sayılan peyğəmbərə istinad edərək, "İbrahim Sazişləri" adlandırılıb.

Həmin il Norveç Stortinqinin (parlament) üzvü Kristian Tybrinq-Çjedde 2021-ci ildə Nobel Sülh Mükafatının Trampa verilməsini təklif edib.

O vaxt deputat həmçinin qeyd edib ki, İsrail ilə BƏƏ arasında diplomatik münasibətlərin qurulmasında həlledici rolu Tramp administrasiyası oynayıb.

Norveçli siyasətçi həm də vurğulayıb ki, Tramp Kəşmirdə Hindistan və Pakistan arasında, habelə Koreya yarımadasında münaqişənin gərginləşməsini azaltmağa kömək edib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Hayastan ordusunda "dedovşina" kabusu

## Məğlub ölkənin müdafiə naziri silahlı qüvvələrin son durumu ilə bağlı həyəcan təbili çalır



**Postmüharibə dövründə erməni ordusunda yaşanan xaos getdikcə daha da artır. Müharibədən sonra baş verənlər də bunu sübut edir. Orduda baş alıb gedən qanunsuzluqlar səbəbindən son vaxtlar hərbi qulluqçular arasında nizamnamədən kənar münasibətlər zəminində cinayət hallarının sayı çoxalır.**

Ekspertlər qeyd edirlər ki, bu gün Hayastanın siyasi həyatında yaşanan gərginlik orduya da sirayət edir. Bu fonda ordunun döyüş qabiliyyəti, demək olar ki, bərbad haldadır. Əsgərlərin təminatı olduqca aşağı səviyyədədir. "Dedovşina", əsgərlərin alçaldılması və digər başıpozuq davranışlar adi hal alıb. Bunu ölkənin müdafiə naziri Suren Papikyan da etiraf edib. O deyib ki, ölkənin silahlı qüvvələrində əsas problem intihar, intihar həddinə çatdırma və qətllərdir. Nazirin istinad etdiyi statistik məlumatlara görə, 2022-ci ildə ölkə üzrə yol qəzalarında 193, 2023-cü ildə isə 204 nəfər ölüb. Hərbçilərdə isə bu rəqəmlər müvafiq olaraq 17 və 12 nəfərdir.

O, həmçinin hərbi qulluqçuların ölümünə səbəb olan xəstəlikləri, qəzaları da xatırladıb. Bildirib ki, ordu cəmiyyətin güzgüsüdür və bu sahədə intihar halları orada mövcud problemləri əks etdirir: "Amma gizlədə bilmərik ki, orduda ardıcıl iş aparılsa da, hələ də "dedovşina" davam edir və bizim vəzifəmiz onu azaltmaq, 2024-cü ildə sıfıra endirməkdir".

Hayastan ordusunda xəstəlik və səfalətin durmadan genişləndiyi bir vaxtda hərbi qulluqçuları müalicə etmək üçün nə maddi vəsait, nə də yer çatışır. Bu isə xəstəlikdən ölən erməni əsgərlərinin sayının durmadan artmasına səbəb olur.

Yaranan belə acınacaqlı vəziyyətdən qorxuya düşən valideynlər indi müxtəlif üsullarla övladlarını hərbi xidmətdən yayındırmağa çalışırlar. Ən geniş yayılmış üsul isə erməni gənclərinin hərbi çağırış yaşına çatmağa az qalmış xarici ölkələrdən birinə, əsasən də Rusiyaya göndərilməsidir. Bu da Hayastan ordusunun insan resursu baxımından ciddi problemlər yaşamasına səbəb olur.

Göründüyü kimi, İkinci Qarabağ müharibəsində ağır itkilərlə üzləşmiş Hayastan ordusu hələ də normal fəaliyyətini bərpa edə bilməyib. Son 4 ildə fərarilik edən, qeyri-döyüş şəraitində ölən hərbçilərin sayı artıb. Hazırda erməni gəncləri ən müxtəlif bəhanələrlə çağırışdan yayınır, rüşvət və tanışlıq hesabına özlərini ordudan kənarda saxlamağa çalışırlar.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Londonda 6-cı Türk İcması İncəsənət Sərgisi açılacaq

**Yunus Əmrə İnstitutu və Türkiyənin Londondakı baş konsulluğu Böyük Britaniyada yaşayan bütün peşəkarlıq səviyyəsindən olan türk rəssamları üçün açıq olan möhtəşəm istedadlar bayramı - 6-cı Türk İcması İncəsənət Sərgisini təqdim edir. Sərgi martın 5-dən 25-dək davam edəcək.**



AZƏRTAC xarici mediaya istinadla xəbər verir ki, sərgi Yunus Əmrə İnstitutunun Fitsroviyadakı London qalereyasında keçiriləcək və əsl yaradıcılıq məkanına çevriləcək. Burada müxtəlif incəsənət əsərləri: rəssamlıq, rəqəmsal sənət, fotoqrafiya, qısametrajlı filmlər, ənənəvi və müasir incəsənət, heykəllər, instalyasiyalar və digərləri təqdim olunacaq.

Bu sərgi geniş auditoriya ilə istedadını bölüşmək arzusunda olan türk rəssamları üçün çox gözəl fürsətdir. Sərgiyə olan maraq son beş ildə Böyük Britaniya və xaricdəki digər türk icmalarından yüzlərlə rəssam və minlərlə ziyarətçini cəlb edərək həndəsi silsilə ilə artıb. Təkcə ötən il sərgidə 60-dan çox rəssamın münsiflər heyəti tərəfindən diqqətlə seçilmiş 140 rəsm əsəri təqdim olunub.

Türkiyə Cümhuriyyətinin Londondakı baş konsulu Bekir Utku Atahan, Yunus Əmrə İnstitutunun Londondakı şöbəsinin direktoru Mehmet Karakuş və Böyük Britaniyada yaşayan məşhur türk rəssamlarından ibarət münsiflər heyəti təqdim olunan işləri qiymətləndirəcəklər.

# Köhnə avtomobillər haqqında yeni qaydalar

## Utilizasiya fondu ölkənin avtoparkını təzələməyə hədəflənib

**Xəbər verildiyi kimi, dövlət başçısı nəqliyyat vasitələrinin utilizasiyası üzrə tədbirlərin stimullaşdırılması və təşviqi məqsədilə "Tullantılar haqqında" qanunun 14-3-cü və "Büdcə sistemi haqqında" qanunun 5-ci maddələrinə uyğun olaraq Azərbaycan Respublikası dövlət büdcəsinin tərkibində "Nəqliyyat vasitələrinin utilizasiyası fondu"nun yaradılması barədə sərəncam imzalamışdır.**



Məsələnin aktuallığı və yaradılacaq fondun fəaliyyət istiqamətləri bu və ya digər dərəcədə əksəriyyət üçün maraq kəsb edir. Onə görə də mövzuya bir qədər ətraflı yanaşmaq, bəzi xırdalıqları təfərrüatı ilə nəzərdən keçirmək vacibdir. Öncə ondan başlayaq ki, sözügedən sərəncama əsasən, istehsal vaxtından 4 il keçən minik avtomobillərinin ölkəyə gətirilməsinə gömrük rəsmiləşdirilməsi zamanı utilizasiya haqqı ödəniləcək. Bu yerdə onu qeyd edək ki, bu cür rüsumların təyin edilməsi bizdə yeni olsa da, o, dünyanın bir çox ölkələrində çoxdan tətbiq edilir. Başqa sözlə desək, əgər ekoloji vəziyyəti qorumaq istəyiriksə, istismar müddəti bitən avtomobillərin istismarının qarşısını müəyyən vasitələrlə almaq lazımdır. Və belə vasitələrdən biri də utilizasiya fondunun yaradılmasıdır.

Ölkəmizin avtomobil parkının böyük bir hissəsi Bakının payına düşdüyü üçün "köhnə maşın" problemi paytaxt üçün daha ağrılıdır. Əgər paytaxtda əvvəllər atmosferə atılan tullantıların əksəriyyəti sənaye müəssisələrinin payına düşürdüsə, indi atmosferə atılan zəhərli tullantıların 75 faizi nəqliyyatın hesabına yaranır. Nəqliyyat vasitələrinin sayı isə günbəgün artır. Bu artımın son 20 ildə 3,5 dəfə olduğu bildirilir. Üstəlik, aparılan monitorinqlər və hesablamalar nəticəsində müəyyən edilmişdir ki, ölkədə avtomobil nəqliyyatından atmosferə il ərzində atılan təkcə karbon oksidlərinin miqdarı 700 min tona yaxındır.

Onu da etiraf edək ki, ölkəyə əvvəllər idxal olunan işlənmiş avtomobillərin böyük bir hissəsi qədərindən artıq istismar olunduğu üçün bu gün faktiki olaraq ekoloji standartlara cavab vermir. Amma artıq gecdir, onlar ölkənin avtoparkının böyük bir hissəsini təşkil edirlər. Buna baxmayaraq, əlimizi yanımıza salıb vəziyyətlə barışa da bilməzdik. Bir neçə il əvvəl ölkəyə idxal edilən avtomobillərin istehsal tarixinə məhdudiyyət (10 il) qoyulması, indi isə köhnə avtomobillərin istismardan çıxarılmasının stimullaşdırılması üçün utilizasiya fondunun yaradılması məhz bu barışmazlıqdan irəli gəlir.

Artıq xəbər verildiyi kimi, Baş nazir Əli Əsədov "Nəqliyyat vasitələrinin Utilizasiyası Fondunun vəsaitinin formalaşdırılması və istifadə Qaydası"nı təsdiqləmişdir. Qərarla "Yol hərəkəti haqqında" qanunun 27- ci maddəsinin II və III hissələrində nəzərdə tutulan nəqliyyat vasitələri üçün hər dövlət texniki baxışı zamanı istehsal və buraxılış ili 4 ildən 10 ilədək olduqda - 10, 10 ildən 20 ilədək olduqda - 20, 20 ildən 30 ilədək olduqda - 30, 30 il və daha çox olduqda isə 40 manat utilizasiya haqqı ödəniləcək.

Sözsüz ki, yeni qaydalar ölkənin avtomobil bazarının tədricən yenilənməsinə, ekologiyanın daha ciddi qorunmasına hədəflənib. Amma həmin hədəfə çatmağa xidmət edən tədbirlər təkcə bunlar deyil. Nəzərdə tutulur ki, müxtəlif səbəblərdən istismara yaramayan avtomobilini utilizasiyaya verən şəxsə yerli istehsal olan yeni avtomobil güzəştli qiymətə təklif ediləcək. Əgər həmin şəxs digər avtomobil almaq istəyirsə, ona həmin güzəştin 70 faizi məbləğində vəsait ödəniləcək. Yəqin ki, məqsədə nail olmaq üçün gələcəkdə digər tədbirlər də görüləcək və bütün hallarda ölkənin avtomobil parkı gec də olsa yenilənməyə başlayacaq.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**

**ALLAH RƏHMƏT ELƏSİN!**

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Flora Sadıqlıya əzizi

**NÜSRƏDDİN QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3865
Sifariş 202

Qiyməti 60 qəpik